AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

ELMİRA FİKRƏTQIZI

# TÜRK XALQLARI ƏDƏBİYYATINDA VÜCUDNAMƏLƏR

## I cild

BAKI – 2015

*XVIII əsr türkmən şairi Molla Nəfəsin və repressiyaqurbanı olmuş görkəmli Azərbaycan ədəbiyyatşünası Əmin Abidin əziz ruhlarına ithafla*

**Elmi məsləhətçi:** **fil.ü.e.d. Muxtar KAZIMOĞLU (İMANOV)**
*(AMEA Folklor İnstitutu)*
**Elmi redaktor**: **fil.ü. f.d. Səadət ŞIXIYEVA**
*(AMEA Şərqşünaslıq İnstitutu)*

**Rəyçilər:** **prof. fil.ü.e.d. Saparboy RAZİMBAYEV**
*(Özbəkistan, Səmərqənd Dövlət Universiteti)*
**Dr. Doğan Qaya**
*(Türkiyə, Sivas Universiteti)*
**Suna Atun**
*(Kıbrıs, Doğu Ağdəniz Universiteti)*
**Maşallah Xudubəyli**
*(Azərbaycan, AMEA Folklor İnstitutu)*

**Elmira Fikrətqızı. Türk xalqları ədəbiyyatında vücudnamələr. I cild,** Bakı, "Elm və təhsil", 2015, 224 səh.

Kitabda örnəklərinə həm yazılı, həm də şifahi ədəbiyyatda rast gəlinən və müxtəlif nəşr əsərləri və əlyazmalardan toplanan vücudnamələr tədqiq edilir. Kitabın birinci cildində Azərbaycan və türkmən şifahi və yazılı ədəbiyyatından vücudnamə nümunələri təqdim olunur, variantlar və müəlliflər dəqiqləşdirilir. Bu şeir şəklinin mənşəyi, tədqiq tarixi haqqında məlumat verilməklə yanaşı, klassik və müasir vücudnamələr təhlil edilir.

**folklorinstitutu.com**

F 4603000000 / N-098-2015 Qrifli nəşr

**© Folklor İnstitutu, 2015**
**© Elmira Fikrətqızı, 2015**

# İÇİNDƏKİLƏR

**Ön söz ........................................................................ 6**
**Giriş ........................................................................ 9**

## MƏTNLƏR

**Anonim vücudnamələr**
Adamyň ömri hakynda oýun gatyşykly çyn ........................ 21
İnsan ömrü haqqında baməzə sözlər (tərcümə) ........................ 22
Atadan anaya məlum olanda ........................ 23
Dünya qalmayacaq heç bir insana ........................ 26
"Koroğlu" dastanı (Azərbaycan variantı) ........................ 30
Türkmən variantı ........................ 31
Vücudnamə. Parça-1 ........................ 33
Vücudnamə. Parça-2 ........................ 34
Vücudnamə. Parça-3 ........................ 34
Vücudnamə. Parça-4 ........................ 35
Vücudnamə. Parça-5 ........................ 35

**Müəllifli vücudnamələr**
**Aşıq Abbas.** *Ustadnamə* ........................ 36
**Aşıq Ağalar.** *Oyandım* ........................ 38
**Aşıq Aslan Kosalı.** *İnsan oğlu* ........................ 41
**Aşıq Bəhmən Göyçəli.** *Rəhbərımız – partiyamız yaşasın* ........ 43
**Aşıq Hüseyn Əliabadlı.** *Döndüm* ........................ 46
**Aşıq Mədət.** *Sanasan Qəvvasam, düşdüm dəryaya* ................ 47
**Aşıq Müslüm Əsgəri Zənganlı.** *Hər anda Tanrıdır dilim əzbəri* ........................ 51
**Aşıq Qafar İbrahimi.** *Adın yaxşı olsun dillərdə əzbər* ........... 53
**Aşıq Saleh.** *Döndüm* ........................ 56
**Aşıq Şenlik.** *Olur* ........................ 59
**Aşıq Valeh.** *Vücüdnamə* ........................ 61

**Bəhram Əsədi.** *Gəldim* ........................................................ 66
**Dollu Mustafa**
*Qız olar*................................................................. 73
*Mənə* ...................................................................... 75
*Ustadnamə*............................................................... 81
*Şükür olsun ol xudayə* ........................................... 87
**Dövletmammat Balgızıl**
*Yaş ötürdim* ............................................................ 88
*Yaş ötürdüm* (tərcümə)........................................... 89
**Gayipnazar Gayıbi**
*Gözlerim*................................................................. 90
*Gözlərim* (tərcümə) ............................................... 92
**Hacı Loğman Qorqud.** *Gəldim* ............................... . 93
**Həmzə Həmzəi.** *Döndüm* ....................................... . 95
**Kəminə**
*Qeler* ....................................................................... 97
*Gələr* (tərcümə) ........................................................ 99
**Mahmud Türkmən.** *Xilqətnamə* ............................. 101
**Məlikballı Qurban.** Cənnətə düşdüm.......................... 113
**Məmməd Məhbübi.** Bənzər ....................................... 116
**Məxdumqulu**
*Düşen günlerim* ....................................................... 117
*Gana geldım* ........................................................... 119
*Gəldım* (tərcümə) ................................................... 121
*Joşa ýetdiň*.............................................................. 124
*Yetdin* (tərcümə) ..................................................... 126
*Many bılmez ýaşynda* ............................................. 129
*Dördündə, ya beşində* (tərcümə)............................... 131
*Nahana geldiň* ......................................................... 133
*Gəldin* (tərcümə) ..................................................... 135
*Sana geldıň*.............................................................. 136
*Sənə gəldin* (tərcümə).............................................. 139
**Mikayıl Azaflı.** *Olar* ................................................ 141

**Misgin Qılıç**
*Ayrılsa* ........................................................................ 144
*Ayrılsa* (türkcə) ........................................................ 145
**Miskin Vəli.** *Gəldim* ................................................................ 146
**Molla Məhərrəm.** *Atamız Adəmdir, anamız Həvva* .............. 151
**Mollamurt**
*Eyledi.* ......................................................................... 156
*Eylədi* (tərcümə) ......................................................... 157
**Molla Nepes**
*Jahana geldi* ................................................................ 159
*Cahana gəldi* (tərcümə) .............................................. 162
**Qurbani.** *Yaxşıdır* ....................................................................... 165
**Sayat Nova.** *Şükür olsun Yaradana* ........................................ 169
**Şair Cavad.** *Yetişdim* ................................................................. 171
**Şair Əli.** *Cəsədnamə* ................................................................... 174
**Tilim Xan.** *Yetişdim* ................................................................... 175
**Xaltanlı Tağı.** *Gəldim* ................................................................ 183
**Xəstə Həsən.** *Ben Âdem vasfını söyleyim size* ........................ 186
**Xəstə Qasım.** *Qədəm qoyam bu cəhanə* ................................. 189
**Xoylu Vartan.** *Pişrev* .................................................................. 200
**Zelili**
*Güle meñzärsiñ* ............................................................ 203
*Gülə bənzərsən* (tərcümə) ........................................... 204
*Jana geldiñ* .................................................................. 205
*Cana gəldin* (tərcümə) ................................................ 208
**Zınharı**
*Mazanı biler* ............................................................... 211
*Ləzzət bilər* (tərcümə) ................................................. 212

**İstifadə olunmuş ədəbiyyat** ........................................................ **214**

# ÖN SÖZ

Eyni soykökə malik türk xalqlarının qarşılıqlı ədəbi əlaqələrinin üzə çıxarılması, bu əlaqələrin xarakteri və inkişafı istiqamətində elmi araşdırmaların aparılması hər zaman aktual olan məsələlərdəndir.

İki cilddə hazırladığımız kitabda bir sıra türk xalqlarının (Azərbaycan, Türkiyə, Kıbrıs türkləri, türkmən, özbək, qazax, uyğur, başqırd, tatar, qırğız və s.) şifahi və yazılı ədəbiyyatından örnəklər verilmişdir. Birinci çilddə 58 vücudnamə mətni verilmiş, onlardan bir çoxu təhlilə cəlb edilmişdir. Folklorşünaslıq tarixində bu şeir şəkli ilə bağlı müxtəlif tədqiqatlar olsa da, ilk dəfə olaraq bu kitabda klassik və müasir Azərbaycan vücudnamələri bir toplu şəklində təhlil və təqdim edilmiş, eyni zamanda başqa türkmən ədəbiyyatına aid vücudnamələrə də yer verilmiş, həmin örnəklər əsasında müqayisəli tədqiqat aparılmışdır. Kitabda Güney Azərbaycan xalq ədəbiyyatından bir neçə vücudnamə də ilk dəfə olaraq tədqiqat obyektinə çevrilmişdir. Bu cəhəti də xüsusi vurğulamaq istərdik ki, bəzi vücudnamələrin çap olunmuş variantlarından istifadə edilmiş, bir sıra vücudnamələr isə əlyazmalardan toplanaraq, ilk dəfə nəşrə təqdim edilmişdir.

Vücudnamələrlə bağlı araşdırmalarımız Molla Nəfəsin yaradıcılığında bu şeir şəklinin təhlili ilə başlayır. Belə ki, Türkmənistanın Aşqabad və Mərv şəhərlərində 8-10 aprel 2010-cu il tarixlərində məşhur türkmən şairi Molla Nəfəsin 200 illik yubileyinə həsr olunmuş yubiley tədbiri üçün hazırladığımız məqalə bizi bu istiqamətdə axtarışa sövq etdi və həmin məqalə yeni və böyük həcmli tədqiqat işinin başlanğıcını təşkil etdi. Beləliklə, Bu kitabı yazmaq ideyasının təkan vericisi Molla Nəfəs şeridir. Mövzu ilə bağlı çoxsaylı digər nümunələrin toplanması və Azərbaycan ədəbiyyatşünaslığında

bu şeir şəkli ilə əlaqədar aparılan tədqiqatların sərf-nəzər edilməsi nəticəsində bəzi yanlışlıqların da olduğu üzə çıxdı və irəlidə bu barədə geniş bəhs edəcəyik.

Qeyd edək ki, lazım olan materialların toplanmasında bir çox xeyirxah insanlar öz köməklərini əsirgəmədilər və buna görə də onlara təşəkkür etməyi özümüzə borc bilirik. Bu şəxslər arasında Türk dünyası folklorunun böyük araşdırıcısı Dr. Yaşar Kalafatın və Türkiyə Respublikası Cumhuriyyət Universitetinin müəllimi Dr. Doğan Qayanın, Mimar Sinan İncəsənət Universitetinin müəllimi Dos. Dr. Hənifə Koncunun, Muğla Universitetinin müəllimi Dr. Çulpan Zarirova Çetinin, Kocaeli Universitetinin müəllimi, Dos. Dr. Işıl Altunun, Qazi Universiteti Fənn-ədəbiyyat fakültəsinin əməkdaşı Reyhan Gökben Salukun, Qars Qafqaz Universitetinin müəllimi fil.ü.f.d. Aidə Paşayevanın, Ankara Universitetinin Çağdaş Türk Ləhcələri və Ədəbiyyatları Kafedrasının magistri Jannatkhon Asqarovanın, Əlişir Nəvai adına Səmərqənd Dövlət Universitetinin professoru Saparboy Razimbayevin, Özbəkistan Elmlər Alademiyası Dil və Ədəbiyyat İnstitutunun əməkdaşı, prof., fil.ü.e.d. Cabbar Işankulun, görkəmli özbək şairi Tahir Qahharın, Dağıstan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin əməkdaşı fil.ü.f.d. Leyla Hacıyevanın, Tatarıstan Elmlər Akademiyası Q.İbrahimov adına Dil, Ədəbiyyat və İncəsənət İnstitutunun əməkdaşı Dr. Fəridə Tahirovanın, Kıbrıs Doğu Ağdəniz Universitetinin müəllimi, eləcə də SAMTAY Vəqfinin başqanı olmuş Suna Atunun, Kıbrıs Lefke Avropa Universitetinin müəllimi Dr. Nazim Muradovun, Çin Beynəlxalq Radiosu Türkcə Bölümünün əməkdaşı Prof. Dr. Rukiyə Hacının, Güney Azərbaycan aşıqlarının vücudnamələrini əldə etməyimizə böyük kömək göstərən Məhəmməd Zəncanlı və Əhməd Əsədinin, Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunun direktoru, AMEA-

nın müxbir üzvü Muxtar İmanovun, həmin institutun “Aşıq yaradıcılığı” şöbəsinin müdiri fil.ü.f.d. Elxan Məmmədlinin, baş elmi işçisi, fil.ü.e.d. Hüseyn İsmayılovun, elmi işçisi Maşallah Xudubəylinin, elmi işçisi fil.ü.f.d. Zümrüd Səmədovanın, “Türk xalqları folkloru” şöbəsinin müdiri fil.ü.f.d. Əfzələddin Əsgərin, böyük elmi işçisi fil.ü.f.d. Səkinə Qaybalıyevanın, “Xarici əlaqələr” sektorunun müdiri Əli Şamilin və həmin sektorun kiçik elmi işçisi Aynur Qəzənfərqızının, “Azsaylı xalqların folkloru” bölməsinin müdiri fil.ü.f.d. Ləman Süleymanovanın, “Folklorun toplanması və sistemləşdirilməsi” şöbəsinin müdiri fil.ü.f.d. İlkin Rüstəmzadənin, “Klassik folklor” şöbəsinin aparıcı elmi işçisi, fil.ü.f.d. Afaq Ramazanovanın, “Mifologiya” şöbəsinin aparıcı elmi işçisi, fil.ü.e.d. İsmayıl Öməroğlunun, Füzuli adına Əlyazmalar İnstitutunun “Şəxsi fondların tədqiqi” şöbəsinin böyük elmi işçisi fil.ü.e.d. Nailə Səmədova və elmi işçisi Qətibə Vaqifqızının, AMEA Nizami adına Ədəbiyyat İnstitutunun dissertantı İsmixan Osmanlının, AMEA Şərqşünaslıq İnstitutunun “Türk filologiyası” şöbəsinin müdiri fil.ü.f.d. Xalidə Quliyeva-Qafqazlının və aparıcı elmi işçisi fil.ü.f.d. Rəşid Təhməzoğlunun, “İran filologiyası” şöbəsinin aparıcı elmi işçisi fil.ü.f.d. Səadət Şıxıyevanın, AMEA-nın Fəlsəfə və Hüquq İnstitutunun əməkdaşı Allahverdi Teymurovun, BDU-nun “Türk xalqları ədəbiyyatı” kafedrasının müdiri, prof., f..ü.e.d. Ramiz Əskərin adlarını xüsusilə çəkmək istərdik. Kitabın redaktəsində böyük əməyi olan fil.ü.f.d. Səadət xanım Şıxıyevaya və elmi məsləhətlərini əsirgəməyən prof., fil.ü.e.d Muxtar Kazımoğluna xüsusi təşəkkürlərimizi bildiririk. Kitabın texniki tərəflərinin hazırlanmasında əməyi olan fil.ü.f.d. Əziz Ələkbərli, Nizami Məmmədov və Ceyhun Məmmədova ayrıca minnətdarlığımızı ifadə edirik.

# GİRİŞ

Şifahi və yazılı ədəbiyyatda örnəklərinə rast gəldiyimiz vücudnamələr haqqında müxtəlif tədqiqatçılar tərəfindən elmi araşdırmalar aparılmışdır. P.Əfəndiyev, V.Vəliyev, M.Həkimov, S.Paşayev, Z.Makas, A.Çələbioğlu, D.Qaya, E.Artun, M.Hacıyeva, M.Rıhtım, Q.Namazov, M.Qasımlı, A.Nəbiyev, Ə.Cəfərzadə, Ə. Eldarova, Z.Səmədova, S.Qayıbov, X.Hümmətova, N.Korabatian, N. Səmədova və başqaları bu şeir şəkli ilə bağlı məlumat vermiş, məzmun və forma xüsusiyyətlərini təhlilə cəlb etmişlər[1]. Bu elmi tədqiqat işləri arasında türkiyəli alim Doğan Qayanın "*Yaşnamələr*" adlı kitabı diqqəti xüsusilə cəlb edir. Burada janrın tədqiq tarixi[2], qələmə alınma ənənəsi, forma-məzmun xüsusiyyətləri əhatəli şəkildə araşdırılmış və Əhməd Yəsəvidən başlayaraq, müxtəlif türk xalqları şairlərinin yaradıcılığına məxsus 98 sayda müəllifi məlum olan və olmayan (laedri) mətn təqdim olunmuşdur. Azərbaycanda isə buna bənzər toplu R.İmaməliyev, V.İmaməliyeva, T.İmaməliyeva-Babanlı tərəfindən *"Vücudnamə. Saqinamə. Tövbənamə. İbrətnamə: Ensiklopedik məlumat kitabı"* adı altında çap edilmişdir. Bu kitabda vücudnamə haqqında qısaca məlumat verilərək, Aşıq Valeh, Aşıq Mustafa, Məlikballı Qurbanın vücudnamələri və müəllifi bəlli olmayan bir nümunə təqdim olunmuşdur. Bundan başqa 2011-ci ildə Ramiz Əskər tərəfindən *"Türkmən müəmmaları, deyişmələri və vücudnamələri"* adlı kitab nəşr olunmuş və burada Məx-

---

[1] Ə.Əliyev isə *"Azərbaycan aşıq şerinin ideya-bədii xüsusiyyətləri (XIX əsrin sonu, XX əsrin əvvəlləri)"* adlı namizədlik dissertasiyasında aşıq şerinin poetik forma və şəkillərini təsnif edərkən bir çox janr və şəkillərdən (gəraylı, qoşma, bayatı, təcnis, ustadnamə, əlif-lam və s.) bəhs etdiyi *(Əliyev, 1987: 146-168)* halda, vücudnamələrə toxunmur.

[2] D.Kaya özündən əvvəl bu sahədə araşdırma aparan türkiyəli tədqiqatçılar sırasında Veysəl Arsevən, Xeyrəddin İvgin, Amil Çələbioğlunun da adlarını qeyd etmişdir.

dumqulu Fəraqi və Molla Nəfəsin vücudnamələri verilmişdir. Tərtib etdiyimiz kitab bu baxımdan Azərbaycan ədəbiyyatşünaslığında ayrıca olaraq vücudnamələrə həsr olunmuş ilk əsərdir.

Qeyd etdiyimiz kimi, həm şairlərin, həm də aşıqların müraciət etdikləri bu şeir şəklinin mənşə və ilk örnəyi haqqında tədqiqatçılar arasında fikir müxtəlifliyi vardır. Ebru Şənocaq vücudnamələrin ilkin qaynağı kimi Göytürk yazılı abidələrini göstərir və həmin abidədə illərlə bağlı məlumatların verildiyi mətnləri nümunə kimi qeyd edir: "Anadolu Âşık Edebiyatı'nda "*Yaş Destanı*" veya "*Yaşnâme*" olarak bilinen destan şeklinin ilk örneğini biz, Türk milli kültürünün önemli vesikası olan Göktürk Yazıtları'na kadar götürebiliriz... Göktürk Yazıtları'nda da, bu ifadelerin benzerini görüyoruz. *"On sekiz yaşımda Altı Çub Soğdaka doğru ordu sevk ettim....Yirmi yaşımda Basmıl Iduk Kut soyumdan olan kavim idi, kervan göndermiyor diye ordu sevk ettim....Yirmi iki yaşımda Çin'e doğru ordu sevkettim...."* sözleri örnek olarak verilebilir." *(Şenocak, 2001: 173-174)* Əbru Şənocaq bu mətnlərlə yaşnamələr arasındakı iki əsas fərqin olduğu qənaətinə gəlir: Göytürk yazılarının nəsr formasında olması və xaqanların yalnız savaş anlarından bəhs edərək, yaşlarla bağlı müəyyən məqamları əks etdirmələri. Nəzərə alsaq ki, Molla Nəfəsin də vücudnaməsində savaş və qəhrəmanlıq səhnələri aparıcıdır, bu mənada əski türk yazılı mətnlərini ilkin qaynaq kimi qəbul edə bilərik[3].

Qeyd edək ki, Sədnik Paşayev (1983: 16) böyük Azərbaycan şairi Nizami Gəncəvinin də *"Xosrov və Şirin"*[4] əsərində vücudnamədən yararlandığını bildirmişdir:

---

[3] Tapmaca, yanıltmac, dastan kimi şifahi xalq ədəbiyyatının müxtəlif janrlarında rast gəldiyimiz vücudnamə elementləri bu formanın daha qədimliyindən xəbər verir.

[4] Maarifə Hacıyeva, Mehmet Rıhtımın *(2009: 315)* həmmüəllif olduqları *"Folklor və təsəvvüf sözlüyü"* kitabında da vücudnamənin klassik örnəyi olaraq, Nizami Gəncəvinin əsərlərindəki bəyani-hal qeyd olunmuşdur.

*"Doqquzda tərk etdi oyun yolunu,*
*Şir üstə sınadı güclü qolunu.*
*On yaşa girəndə bu nadir cavan*
*Otuz yaşlıları qoyurdu heyran.*
*...Qırx yaşa qədərdir həyat nəşəsi.*
*Qırxda bitib gedir könlün həvəsi,*
*Əllidən aşdınmı, canın sağ olmaz.*
*Ayaqlarda taqət, gözdə nur qalmaz.*
*Altmışda salarsan bir yerdə məskən,*
*Yetmişdə hər üzvün düşər taqətdən.*
*Dünyada əziyyət çəkib boy atdın,*
*Elə ki, səksənə, doxsana çatdın,*
*Ordan da yetirdin özünü yüzə,*
*Ölüsən, diri də görünsən gözə".*

(Nizami Gəncəvi, 1983: 53,55*)*

D.Qaya yazılı ədəbiyyatda ilk vücudnamə müəllifi kimi Əhməd Yəsəvinin, aşıq ədəbiyyatında isə Aşıq Qurbaninin adını çəkir *(Qaya, 2004: 13)*. Qeyd edək ki, həmin tezis S.Qayıbov *(2009: 81)* və Y.Qarasoy *(2009: 140)* tərəfindən də təkrar edilmişdir[5]. Lakin əldə edə bildiyimiz mənbələrdə[6] Aşıq Qurbaninin (XVI əsr) vücudnaməsinə rast gəlmədik. Sədnik Paşayev isə bu şeir şəklində ilk müəlliflik məsələsi ilə bağlı aşağıdakıları

---

[5] Aşıq Qurbaninin adını vücudnamə müəllifləri sırasında çəkən Ağalar Mirzə: "Aşıq ədəbiyyatında Qurbaninin, Aşıq Valehin və o cümlədən Xaltanlı Tağının vücudnamə yazdığı məlumdur", qeydi ilə kifayətlənir *(Mirzə, 1999: 75).*

[6] Aşıqlar /Tərtib edəni: S.Axundov; Bakı, 1957 ; Qəzənfər Kazımov. Qurbani və poetikası. Bakı: ADPU, 1996; Qurbani. Əsərləri. Tərtib edəni, ön söz, qeyd və izahların müəllifi: Q.Kazımov. Bakı: Şərq-Qərb , 2006; Qurbani. Poeziya almanaxı. Tərtibçilər: Y.Dirili, M.Əhmədoğlu; Bakı: Təfəkkür, 2007; Qurbani. tərtib edəni: ön söz, qeyd və izahların müəllifi: Q. Kazımov. Bakı: Bakı Universiteti, 1990; Qurbani (tərtib edəni A.Dadaşzadə), Bakı, "Gənclik", 1972; Azərbaycan aşıqları və el şairləri. İki cilddə. I cild (tərtib edəni: Ə.Axundov, ön sözün müəllifi: İ.Abbasov), Bakı, "Elm", 1983

qeyd edir: "Qurbani aşıq poeziyasına ilk dəfə olaraq məsail, divani və təcnis şeir formalarını gətirdiyi kimi, bundan sonra sənət meydanına gəlmiş Tufarqanlı Abbas da aşıq yaradıcılığına örnək olaraq müləmmə təcnis (çoxdilli), cığalı təcnis və vücudnamə kimi şeir formalarını gətirmişdir". *(http://www.pirsultanli.-info/pdf/asiq_semsir.pdf - 12.05.2010)* Göründüyü kimi, bəzi Azərbaycan folklorşünasları vücudnamənin banisi kimi Tufarqanlı Abbasın adını qeyd edirlər. Lakin Z.Makas *"Vücudnamə"* başlıqlı məqaləsində Tufarqanlı Abbasa aid edilən həmin şerin Xəstə Həsənin olduğunu bildirir: "Hasta Hasan`ın yaşadığı dönemde bulunduğu bölgenin siyasi bir fetret devri geçirmesi, onun şiirlerinin birçoğunun kaybolmasına sebep olduğu gibi, bazı şiirlerinin de baska aşıklara mal edilmesine yol açmıştır. Nitekim onun aşağıdaki vücudnamesi Himmet Elizade`nin 1935`de Baku`da neşredilen *"Aşıglar"* adlı kitabında – tahrif edilmiş bir şekilde – Tufarganlı Aşık Abbas`a mal edilmiştir". *(Makas,1984: 325)* Türkiyəli folklorçulardan A.Çələbioğlu *(1998, 399)* və D.Qaya *(2004: 195)* da bu fikri qəbul etmişdirlər. Bu alimlərin doğru olaraq qeyd etdikləri kimi, Aşıq Abbas və Xəstə Həsənin vücudnamələri biri digəri ilə variantlıq təşkil edir.

Yuxarıda da qeyd etdiyimiz kimi, tədqiqatçılardan bir qismi Dirili Qurbanini vücudnamə müəllifi kimi göstərirlər. Bu qənaətdə olanlardan biri də D.Qayadır. Onun *"Yaşnamələr"* kitabında bu tezis irəli sürülməklə yanaşı, Dirili Qurbaninin deyil, həmin təxəllüsü daşıyan digər iki şairin vücudnamələri verilmişdir. Möhürbəndlərdən birində müəllif kimi Məlikballı Qurbanın, digərində Qurbaninin adı çəkilir. Tərtibçi tərəfindən hər iki aşığın adının qarşısında yaşadıqları dövr XVI əsr kimi göstərilmişdir. Məlumdur ki, Dirili Qurbani həmin əsrdə yaşamışdır. Lakin Məlikballı Qurbanın yaşama tarixi sonrakı yüzilliklərə təsadüf edir, daha doğrusu, onun XIX əsr müəllif-

lərindən olduğu məlumdur. (bax: *Azərbaycan aşıqları və el şair-ləri, 1983: 270*) D.Qaya Məlikballı Qurbanın vücudnaməsini *"Sakaoğlu Saim, Alptekin Ali Berat, Şimşek Esma, (1985), Azerbaycan Âşıkları ve El Şairleri, C. I, İstanbul"* adlı kitabdan, ikinci Qurbaninin şerini isə *"Çelik M. Fahreddin Karslı Kurbani, Halk Bilgisi Haberleri, S. 114, Nisan 1941"* adlı qaynaqdan götürmüşdür. M.Fəxrəddin Çəlik *(1941: 134)* və Amil Çələbioğlu *(1998: 370)* Qarslı Qurbaninin doğum və vəfat tarixlərini 1690-1800-cü illər arasında verirlər. Deməli, *"Yaşnamələr"* kitabında verilən Qurbani adlı aşıqlar, XVI əsrdə deyil, daha sonrakı yüzilliklərdə yaşamışdır. Bundan başqa, Amil Çələbioğlu Qurbaninin ilk vücudnamə müəllifi olduğuna dair heç bir məlumat vermir. Bütün bunları nəzərə aldıqda Dirili Qurbaninin vücudnamə müəllifi olması şübhə doğurur.

D.Qaya Çələbioğlunun Yusif Xas Hacib Balasaqunlunun "*Kutadqu-bilik*" və Yunus Əmrəyə aid verdiyi örnəkləri yaşnamə olaraq qəbul etmir və fikrini belə əsaslandırır: "Çelebioğlu, yazısında, *Kutadgu Bilig'dan* bir bölümle (Beyit: 364-377) ve Yunus'tan örnek bir şiire de yer vermiştir. Dikkatle incelendiğinde aslında bunların doğan her canlının zamanla yaşlanacağı ve hayatının sona ereceğini anlatan ve yaşname niteliği taşımayan şiirler olduğu görülecektir. Bu bakımdan her iki örneği de ilk yaşname örnekleri arasına almadık." *(Qaya, 2004: 15)* Fikrimizcə, həmin şeirlər daha çox dövriyyə səciyyəlidir.

Digər belə bir yanlışlıq Molla Cümə ilə bağlıdır. Bir çox müəlliflər onun vücudnaməsi olduğundan qısa da olsa, bəhs etmişlər. *(Əfəndiyev, 1992: 251; Həkimov, 2004: 450; Nəbiyev, 2004:280.; Qayıbov, 2009: 81)* Molla Cümənin əsərlərinin tərtibçisi Paşa Əfəndiyev isə onun "*Aşıqlar*" adlı şerini qoşma-vücudnamə adlandırır. *(Molla Cümə, 1995: 458)* Lakin bizcə, *"Aşıq-*

*la*r"[7] başlıqlı həmin əsər vücudnamənin tələblərinə cavab vermir. Belə ki, burada yaşlar üzrə mərhələlərin təsviri yoxdur, yalnız şairin şəxsi həyatı ilə bağlı avtobioqrafik məlumatlar verilmişdir. Buna görə də aşağıdakı qoşmanı vücudnamə hesab etmirik:

*Aşıqlıq Adəmdən icad olubdur,*
*Ol Adəm atanın nəvəsiyəm mən.*
*Nə qədər dünyaya aşıq gəlibdir,*
*Külli aşıqların anasıyam mən.*

*Aşıq anasıyam, şairlər kökü,*
*Gəzərəm dünyada divanə təki,*
*Mahalım Göynükdür, şəhərim Şəki,*
*Layisqi kəndinin binasıyam mən.*

*Binəm Layisqiyə düşübdür mehman,*
*Pədərim Salahdır, madərim Reyhan,*
*Vələdim Həsəndir, əxim Süleyman,*
*Familim Molla Oruc, ədnasıyam mən.*

*Ədnayəm, kəmtərəm, dərdə dərmanam,*
*Hənəfi məzhəbəm, həm müsəlmanam,*
*Nəbim Məhəmmədd ir, əhli-Quranam,*
*Mömin qardaşların aşnasıyam mən.*

*Aşnayam, gedərəm doğru yolunan,*
*Bülbüləm, söhbətim olar gülünən,*
*Danışsalar yetmiş iki dilinən,*
*Ol qədər arifəm, qanasıyam mən.*

*Qanıram, ustaddan almışam dərsi,*
*Oxumuşam ərəb, türk ilə farsi,*

---

[7] Qeyd edək ki, Hümmət Əlizadənin tərtibində həmin qoşma *"Adəmin nəvəsi"* başlığını daşıyır.

*Fikrim seyr eyləyər ərşinən kürsi,*
*Dərin kitabların mənasıyam mən.*

*Mənada mollayam, Molla Cüməyəm,*
*İsmi-Pünhan, oda şux[8] pərvanəyəm,*
*Gəlmişəm cahana, bir gün fənayam,*
*Axırda Kərəm tək yanasıyam mən.*

*(Cümə, 1995: 120-121)*

Fikrimizcə, burada ilahi eşqdən, Allaha olan "aşiqlik"dən, Adəm əleyhissəlamdan bu yana dünyaya gələn aşiq//aşıqlardan bəhs olunur. Sədnik Paşayev də həmin şerin təhlilində vücudnamə terminindən istifadə etmir və "aşıqlığ"ın əslində aşiqlik olduğunu qeyd edir: "Qoşmanın ilk bəndinin ilk misrası da çox zaman düzgün izah olunmur. ...belə başa düşülə bilməz ki, Adəm ilk dəfə saz götürüb, söz qoşub, aşıqlıq edib, əsla yox. Adəmdən aşıqlıq yox, aşiqlik, yəni sevib-sevilmək qalıb"[9] *(Paşayev, 1990: 86)*. Qiyas Vəkilov isə həmin misranı müstəqim mənada qəbul edib, aşıqlığın Adəm Atadan icad olunduğunu göstərir *(1993: 49)*. Son bənddə isə təsəvvüfdə aşiqliyin simvolu olan *"pərvanə"* obrazının şerə gətirilməsi, cahana gəlmə və əslinə dönmə (nüzul və üruc), Kərəmin adının çəkilməsi dediklərimizi təsdiqləyir. Beləliklə, bu şeir tərcüməyi-haldan mühüm məqamlar əks etdirməklə yanaşı, vücudnamədən daha çox dövriyyə şeirlərlə səsləşməkdədir. Ümumiyyətlə, Türkiyə ədəbiyyatşünaslığında yaşnamələrin dövriyyə şeirlər əsasında yarandığı qeyd olunur: "Yunus Emre ve diğer vahdet-i vücud anlayışına sahip olan sünni mutasavvıfların hepsinin devriyyelerinde yer alan bu tasavvufi, remzi ifade tarzı yanında aynı şairlerin

[8] Oda aşiq

[9] Zənnimizcə, şerin ilk beytində aşıq hər şeyin Adəm atadan başladığı təsəvvüründən çıxış edərək sözün, sazın qədimliyinə işarə edir. Çünki şeirin sonrakı misralarında diqqət şerin, şairin üzərində cəmləşdirilir. (Red.)

halk için yazdıkları devriyyelerde çoğunlukla insanın ana rahmine düşmesinden başlayarak ölümüne kadar, hatta bazan ölümden sonrakı bazı sahfaları da içine alan bir anlatımla karşılaştırmaktadır. Bu manzumelerde, ana rahmine düşme anından itibaren kişinin başına gelecek olan maddi ve manevi sıkıntılara işaretle dünya hayatında bunlardan kendini korumanın yollarını anlatan, kabir ve ahiret aleminin güçlüklerini gözler önüne seren şer`i devriyyeler de yazılmıştır... Ayrıca bu anlayıştan hareketle devriyye türü, ileride ayrı bir nevi olarak ortaya çıkacak yaşnameye de dönüşmektedir”. *(Uzun, 1994: 252)* Murad Özgökmenin *“Türk İslam ədəbiyyatında ilâhilər, nəfəslər və dövriyyələr”* adlı dissertasiyasında Aşıq Dərdlidən verdiyi dövriyyə şeir ilə Molla Cümənin adı çəkilən qoşması arasında ideya-məzmun baxımından yaxınlığın olması da bu mülahizələri təsdiqləyir. Həmin dövriyyə şeri tam olaraq aşağıda veririk:

*Bir zaman eğlendim sulb-ı pederde,*
*Kereme uğradım, kana yetiştim.*
*Bir zaman meksettim rahm-i maderde,*
*Vücut hasil ettim, cana yetiştim.*

*Erba anasırdan olundum tertib,*
*Üstâdım Hüdâ'dır, eyledi terkib,*
*Ben ana kul oldum ol bana habib,*
*Mâ idim, şekl-i insana yetiştim.*

*Hak mimarım oldu kuruldu binam,*
*El, ayak, parmaklar yapıldı tamam,*
*Dokuz ay, dokuz gün olunca hitam,*
*Vakt erişti, bu cihana yetiştim.*

*Dertli Hak'tan nutuk geldi dilime,*
*Tarikattan bir yol geçti elime,*

*Şeriattan su bağlandı gülüme*
*Katre idim, bir ummana yetiştim.*
*(Özgökmen, 2001: 85-86)*

Göründüyü kimi, burada vəhdəti-vücud təliminin güclü təsiri vardır, şerin sonunda şəriət və təriqət mərhələləri yada salınır və qətrənin (cüzv) ümmana (küllə) qovuşması təsvir olunur. Dənizdən (vəhdətdən) qopub gələn damla dövr edərək ona qovuşur. Beləliklə, klassik vücudnamələr dövriyyə şeirlərdən nəşət etmiş, həm məzmununda, həm də adında birinci ilə paralelliyi qoruyub saxlamışdır. Bu baxımdan vücudnamə termininin ifadə etdiyi məna da maraq doğurur və prof., f.e.d. Məhərrəm Qasımlının tədqiqatlarında vəhdəti-vücud təlimi ilə əlaqəli şəkildə izah edilir: "... orta çağ aşıq yaradıcılığındakı qıfılbənd, müəmma, vücudnamə kimi şeir şəkillərinin, nadir istisnalar olmaq şərtilə, sufiliyin rəmzi-ürfani sisteminə bağlılığı tamamilə təbiidir... Məsələn, vücudnamədə bəndənin dünyaya gəlişi və Tanrıya qovuşana qədərki ömür yolu müəyyən mərhələlər üzrə, tarixi ardıcıllıqla (əsasən, bir yaşdan yüz yaşa kimi) təsvir olunur. Şeir bəndənin Tanrıya qovuşması – vücuda (Vücudi-Mütləq – E.F.) çatması, onunla vəhdətə girməsi ("vəhdəti-vücud") ilə başa çatır və bu səbəbdən də "vücudnamə" adlanır". *(Qasımlı, 2007: 148-149)* Göründüyü kimi, vücudnamə arxetipi, yəni dövriyyə ilə məzmun baxımından yaxından səsləşməkdədir. Vücudnamənin Azərbaycan ədəbiyyatşünaslığında "əvvəl-axır" və "meracnamə" terminləri ilə ifadə olunması *(Namazov, 1984: 60)* da bu şeir şəklinin mövzu baxımından yalnız bu dünya ilə bağlı olmadığı fikrinə yönəldir. "Əvvəl-axır" termini dövr nəzəriyyəsindəki, yəni "varlıqların Haqdan gəlişini və Ona dönüşünü açıqlayan təsəvvüfi görüş"dəki əvvəl və son, eniş və dönüş (nüzul və uruc) anlayışları ilə assosiasiya yaradır. "Meracnamə" termini də bu baxımdan həmin

nəzəriyyə ilə uyğunluq təşkil etməkdə, kamil insanın meracını – ruhi seyrini xatırlatmaqdadır. Bəzən "vücudnamə" terminin açıqlaması "vücud" sözünün müstəqim mənası ilə də izah olunur: "Yaşnamelerin dışında, vücud yapısıyla ilgili eserlere de vücudname denilmektedir". *(Çələbioğlu, 1998: 367)*

Bu şeir şəklinin mövzusu ilə bağlı tədqiqatçılar arasında rəy birliyi olsa da, forması ilə bağlı fikir müxtəlifliyi mövcuddur. Azad Nəbiyevə görə, vücudnamə yalnız qoşma formasında, yəni on bir hecalı olur: "Qoşma poetik sisteminə əsaslanan, onun ölçülərində yaranan və qoşmanın tipi kimi tanınan şer şəkillərindən biri də vücudnamədir... Qoşma və onun növləri barədə folklorşünaslıqda müxtəlif mülahizələr vardır. Bir sıra araşdırıcılar qoşma strukturundan yararlanmaqla yaranan bir sıra şəkilləri ustadnamə, vücudnamə, cahannamə, müsibətnamə və s. müstəqil şeir şəkli hesab edirlər. Hətta ayrı-ayrı antologiyalara da onlar beləcə daxil edilir. Şəkli xüsusiyyət etibarilə qoşmadan ancaq bəndlərinin sayı ilə fərqlənən bu nümunələrlə qoşma arasındakı uyğunluq və eyniliklər əsasən nəzərdən yayınır. Başqa qrup tədqiqatçılar isə belə hesab edirlər ki, qoşma məzmun cəhətdən də rəngarəng olub müxtəlif növlərə ayrılır. Ustadnamə, vücudnamə, cahannamə və s. qoşma strukturunu daşıyan on bir hecalı şeir şəkilləri yalnız qoşmanın növləri hesab edilməlidir". *(Nəbiyev, 2004:279)* Amma müxtəlif türk xalqlarının ədəbiyyatından topladığımız vücudnamə örnəkləri bu tezisin doğru olmadığını göstərir və digər folklorşünaslar da bu şeir şəklinin müxtəlif formalarda olduğunu bildirirlər. "Vucudnâme bütün âşık şiir şekillerinde olabilir[10]. Vucudnâme diğer şiir şekillerine göre sayıca daha çok bende sahiptir. Kafiye kuruluşu 1. bentte birinci-üçüncü mısralar serbest, ikinci-dördüncü mıs-

[10] Eyni fikir Mürsəl Həkimov tərəfindən də bildirilmişdir. (Həkimov, 2004: 450)

ralar hem kafiye olur. Kalan bentlerde de birinci-ikinci-üçüncü mısralar birbiriyle, dördüncü mısra, birinci bendin ikinci-dördüncü mısralar ile hemkafiyedir" *(Kobatarian, 2008: 128).* "Yaşnameler, âşıklar tarafından koşma tarzında söylenmiş şiirlerdir… Yaşnameler, tanımda da işaret ettiğimiz gibi destan[11] şiirlerdir.". *(Qaya, 2004: 13, 16)* "Aşıq şerində çox zaman gəraylı, müxəmməs, qoşma, mürəbbe kimi şeirlərlə yazılır"[12] (*Hacıyeva, Rıhtım, 2009: 315)* Azərbaycan ədəbiyyatşünaslığında isə vücudnamə ideya-mövzu xüsusiyyətlərinə görə ustadnamə də hesab edilir. *(bax: Həkimov, 2004: 450)*

A.Çələbioğlu *(1998: 369)* yaşnamələri məzmun baxımından dörd qrupa bölür:

1. Ümumi olaraq insan ömrü ilə bağlı yaşnamələr;
2. Qız və qadın ömrü ilə bağlı yaşnamələr;
3. Şairin həyatı ilə bağlı yaşnamələr;
4. Ömrün mövsümlərə və s. bənzədilərək təsnifi.

D.Qaya *(2004: 16)* isə vücudnamələri aşağıdakı qruplar üzrə təsnif edir:

1. Bütün insanlardan bəhs edən yaşnamələr;
2. Qız-qadınlardan bəhs edən yaşnamələr;
3. Şairlərin öz şəxsi həyatlarından bəhs etdikləri yaşnamələr;

---

[11] Türkiyə ədəbiyyatşünaslığında dastan həm də aşıq şerinin bir şəkli kimi qəbul edilir: "Büyük bir çoğunluğu 11 ve 8 heceli koşma, çok az bir kısmı mani ve pek nadir olarak da divani şeklindeki örneklerine rastlanılan 5 veya 7 dörtlükten aşağı olmamak şartıyla 130 hatta 150 kıta hacmindeki örnekleri mevcut olan, konu sınırlaması olmaksızın âşık tarafından destan yapmaya değer bulunan bir vak'ayı, bir cismi veya kavramı hikâye ederek anlatan ve sözlü kültür ortamında, âşığın ele aldığı konuyu anlatan tutumuna bağlı olarak geleneksel âşık havaları eşliğinde icra ettiği nazım türüne destan denir." *(Çobanoğlu, 2000: 3; Kaya, 2004: 12)*

[12] Eyni qənaət "Ədəbiyyatşünaslıq – Ensiklopedik lüğət"də də verilmişdir. *(Vücudnamə, 1998: 43)*

4. Sosial-tənqidi mövzuda yaşnamələr;

5. İnancla bağlı yaşnamələr.

D.Qayanın araşdırmasında vücudnamələrin 5-88 dördlük arasında olduğu müəyyənləşdirilmiş, həcmcə ən böyük (144 bənd) yaşnamənin Kıbrıslı Oğuz Yorgancıoğluya aidiyyəti qeyd edilmişdir. *(Qaya, 2004: 18)* Azərbaycan ədəbiyyatşünaslığında isə vücudnamələr xüsusi tədqiqat obyektinə çevrilmədiyindən, bu şeir şəklinin məzmun baxımından təsnifatı da verilməmişdir.

Ayrı-ayrı türk xalqlarının ədəbiyyatından əldə edib araşdırdığımız bu vücudnamələr üçün səciyyəvi cəhət insan ömrünün müxtəlif mərhələlərini şərti xronologiyaya uyğun və ardıcıllıqla əks etdirilməsi, dini köklərə malik olması və yeri gəldikcə Qurandan qaynaqlanmasıdır.

Bir-birindən dənizlərlə ayrılan uzaq coğrafiyalarda yaşayan bu aşıq və şairlərin qələmə aldıqları əsərlərdə ideya, məzmun və motiv yaxınlığı qabarıq nəzərə çarpmaqda şeirlərin texniki cəhətləri və struktur özəlliklərində analogiya görünməkdədir: şeirlər, əsasən, qoşma və ya gəraylı şəklindədir. Lakin qazax vücudnamələri fərqli strukturdadır.

Beləliklə, bəhs etdiyimiz müştərək cəhətləri nəzərə alaraq vücudnamə poetik formasını türk xalqlarının ədəbiyyatında özünü göstərən ədəbi təzahürləri ilk dəfə olaraq burada araşdırmaya cəlb etdik. Eyni zamanda dövriyyə xarakterli şeirlərlə vücudnamələrin bağlılığı, bu şeir şəklinin klassik ədəbi ənənə və onun şifahi xalq ədəbiyyatındakı izləri və müəyyən transformasiya elementlərini daşıması kimi maraq doğuran məsələlər də ilk dəfə bu araşdırmada diqqət mərkəzinə çəkilmişdir.

Kitab türk xalqları ədəbiyyatında vücudnamələrin inkişafı, şifahi və yazılı ədəbiyyatdakı yeri, müəllifləri baxımından əhəmiyyət daşıyır və bu istiqamətdə aparılan gələcək tədqiqatlara işıq tutacaqdır.

# MƏTNLƏR

## *ANONIM VÜCUDNAMƏLƏR*

## ADAMYŇ ÖMRI HAKYNDA OÝUN GATYŞYKLY ÇYN

*Bebele öýkünibräk*

**On** ýaşyňda owlaksyň sen,
**On bäşi**ňde – toklusyň.
Bökmäge-de haklysyň sen,
Ýatmaga-da haklysyň.
**Ýigrimi**de kürresiň sen,
**Ýigrimbäş**de atsyň sen.
**Otuz-kyrk**da çyn bedewsiň,
**Elli**ňde-de itsiň sen:
Hem-ä hilegärsiň sen,
Hemem akyllysyň sen.
Duşman üçin ýaraksyň,
Dosta ýakymlysyň sen.
**Altmyş, ýetmiş, segsen, togsan**
Bular özüňe bagly.
Gaplaňam bolup bilersiň,
Möjegem bolup bilersiň,
Şagalam bolup bilersiň,
Doňuzam bolup bilersiň,
Bolsaň-da adam ogly.
**Ýüz**e ýeteniňde weli
Borsuň ütülen towuk.
Ketegiň içem sowuk,
Ketegiň daşam sowuk.

Emma özüň adam bolsaň –
Ýokdur ullakan howp.
Iliň-günüň, dost-ýaryň
Seni horlamaz, garaz.
«Ütülen towuk» diýip,
Azaram berip durmaz.
Gaty gitse, diýerler:
«Ganatsyz, garry horaz!»
**(Gurbannepesow, 1995: 386-387)**

## İNSAN ÖMRÜ HAQQINDA BAMƏZƏ SÖZLƏR

**On** yaşında oğlaqsan,
**On beşində** – toğlusan.
Atılmağa da haqlısan,
Yatmağa da haqlısan.
**İyirmidə** xotuqsan,
**İyirmi beş**də atsan.
**Otuz-qırxda** çin bədövsən,
**Əllində də** itsən sən.
Həm də hiyləgərsən,
Həm də ağıllısan.
Düşmən üçün yaraqsan,
Dosda sevimlisən.
**Altmış, yetmiş, səksən, doxsan**
Bunları özünə bağlı.
Qaplanam ola bilərsən,
Canavaram ola bilərsən,
Çaqqalam ola bilərsən,
Donuzam ola bilərsən,
Olsan da adam oğlu.
**Yüzə** yetəndə vəli

Qoxumuş ütülən toyuq.
Hininin içəm soyuq,
Hininin dışam soyuq.
Amma özün adam olsan –
Yoxdur böyük xof.
Elin-günün, dost-yarın
Səni xorlamaz, qərəz.
«Ütülən toyuq» deyib,
Azaram verib durmaz.
Cəld getsə, deyərlər:
«Qanadsız, qoca xoruz!»

## ATADAN ANAYA MƏLUM OLANDA

Atadan anaya məlum olanda,
Qan içində coşqun oldum əməyə.
Qüdrətin kəlamı yetişdi mənə,
**Üç ay**ında məlum oldu anaya.
**Dörd ay**da döndüm bir yorğa ata,
Kimsə yetişməz olur bu sürətə.
**Beş ay**da nişan düşdü cəsətə.
Takım yoxdu, bürünmüşdüm pərdəyə.
Altı ayda kök salıban cücərdim,
**Yeddi ay**da çiçəkləndim, göyərdim.
**Doqquz ay**da ancaq düşdüm dünyaya.
Ağ balıqlar götürdü məni müqabil,
Həm sərin əmirdim, həm də sərbəsil,
Qüdrətin yolunda olmuşam mismil.
Oxucular gətirdi mənə İncil,
Ətrafımı bürüdü mələk Cəbrayıl.
Dəgdi Zəmzəm suyu, oldum qönçə gül,

Ol səbəbdən tabe oldum İsaya.
**Yarım yaş**da gecə-gündüz sulandım,
Ağlamaqdan yaş içində islandım.
**Bir** yaşında beşiklərdə bəsləndim:
Yuxlamadım, götürdülər laylaya.
**Yaş yarım**da oda vurdum əlimi,
**İki** yaşında vərdiş elədim yolumu.
**Üç** yaşında mövlam açdı dilimi,
Süd əmmədim, meyl saldım xubzaya,
**Dörd** yaşında özüm bildim işimi!
**Beş** yaşında tanıdım tay-tuşumu,
**Altı** yaşında dağıtmışam dişimi,
**Yeddi** yaşında tapşırdılar mələyə,
**Səkkiz**ində bildim əlif, beyi,
**Doqquz**unda qandım abır-həyanı,
**On** yaşında əzbər etdim əyyamı,
**On bir**ində qələm çaldım loğmaya,
**On iki**sində məlum oldu işimiz,
**On üç**ündə qaynar oldu quşumuz,
**On dörd**ündə tütək bağlı quşumuz,
**On beş**ində döndüm bədirlənmiş Aya,
**On altı**sında mən çox düşmüşəm gücə,
**On yeddi**sində ayıb çıxdı yüzə (üzə),
**İgirmi**sində döndüm bir iyirmi nərə,
Bir istədim düşmənləri çəkəlim dara,
Hökmüm çoxdu, baş əgmərəm xotkara,
Dindirəndə əl elərəm ox-yaya,
**İgirmi bir**isində busdum bəzirganın yolunu,
Dağıdıb tökdüm qalaların hər zorlularını,
Çaldım, çapdım bu dünyanın malını.
.........................................................

**Otuz**unda kimsə məni almadı,
Düşmən çox çalışdı, çarə bulmadı,
İsgəndər tək haray salam dəryaya.
.......................................................
**Qırx** yaşımda yad elədim ölümü,
Onda bildim qohumumu, elimi,
**Qırx beş**ində doğru döndüm yolumu.
**Əlli**də artıq məhəl qoydum sumamaya.
**Əlli beş**imdə özüm düşdüm yarışa,
Çox qocaldım, əlim çatmaz bir işə,
Fələk döndü, işim düşdü tərsəyə.
**Altmış**ımda ağırlaşdı cəsətim,
Görənlər də eyləyirdi qeybətim,
Yeriyəndə qalmayırdı taqətim.
Yıxılanda dayaq verdim əsaya.
**Yetmiş**imdə nadanlara tay oldum,
Bürüşüdü damarlar, quru yay oldum.
Urvatdan tezcə düşüb, xeyli zay oldum,
Sözüm ötmür, işim qaldı hay-haya.
**Səksən**imdə əlif qəddim büküldü.
Ömrüm burcu bədənimdən töküldü.
Soldu gözüm, axdı, yaşı töküldü.
Bu dünyada ömrüm keçdi xub zaya.
**Doxsan**ımda dağıtdım xanimanımı,
Əcəl gəldi, bürüdü dörd yanımı.
**Yüz** yaşımda tapşırmışam canımı,
Qohum-qardaş yığılalar ah-vaya,
İki kimsə çimizdirdi məni əbə,
Onlar da yetsinlər xeyli savaba.
Çəkdilər məzara, xabi-turaba,
Fərişdələr götürdülər havaya.

Minkər, ənkir kəsdi yolum sərasər,
Cəbrayıl, Mikayıl oldu havadar.
................................................
Heç görülməyən işlər orda görünür,
Bir kişinin adı qırx yerdə bilinir,
Arasında sur düdüyü çalınır,
Yer-göy titrəyərək gedir lərzəyə,
Mən görmüşəm orda haqqı-ədalət,
Heç bəndə görməsin elə zülmət.
Günahkarlar suray olur damlaya,
Miskin dünyada.... edər bu sözü,
Bizim üçün qurulur mizan-tərəzi,
Aşıq Dünya sığın göynən mövlaya.

**(Azərbaycan folkloru antologiyası.**
**XIII, 2005: 409-411)**

## DÜNYA QALMAYACAQ HEÇ BİR İNSANA

Əzəl gündən bu dünyaya gələndə,
Eşqin həvəsindən düşdüm ərkana.
Ananın rəhmində qaynayıb döndüm,
Çevrildim orada bir qətrə qana.

**Doqquz ay, doqquz gün, doqquz saat**da,
Baş yazım yazıldı ağ bir kitabda,
Gördüm sığışmıram daha bir həddə,
Vədəm tamam oldu gəldim cahana.

Cahana gələndə gəldi bir qarı,
Yudu, təmizlədi, geydim paltarı,

Iki şamamadan əmdim nobarı,
Bildim ki, gəlmişəm yeni dünyaya.

Ay-günün işığı düşdü üzümə,
Şad oluban güldüm özüm-özümə,
Çox zaman ağladım, baxıb gözümə,
Həm gecə, həm gündüz incidi anam.

**Bir** yaşımda bir xeylicə iridim,
**Yaş yarım**da dörd ayaqlı yeridim,
Kilimdə, həsirdə qıçım sürüdüm,
Nə öyüdə baxdım, nə yalvarana.

**İki** yaşda su istədim, içmədim,
Böyük-kiçik bir-birindən seçmədim,
Nə daşdan, atəşdən, sudan qaçmadım,
Bənzədim dilbilməz mən bir nadana.

**Üç** yaşımda döndüm açılmış gülə,
Dil-dil ötüb mən oxşadım bülbülə,
Görənlər istədi dindirə, gülə,
Şirin dilim oxşatdılar bal şana.

**Dörd** yaşımda əfsarımı çeynədim,
**Beş** yaşımda bir azacıq qaynadım,
**Altı** yaşda adaşımla oynadım,
**Səkkiz** yaşda su tək axdım hər yana.

**On** yaşımda uşaqlıqdan ayrıldım,
Böyük-kiçik arasında sayıldım,
Qanım coşdu hər tərəfə yayıldım,
Görən dedi mənə dəli-divanə.

**On bir**imdə yedim ağıl nobarı,
**On iki**də fəhm elədim hünəri,
**On üç**də itirmədim dinarı,
**On dörd**də könlüm gəldi cövlana.

**On beş**ində bədirlənmiş Ay oldum,
Atama, anama mən də hay oldum,
Belim qüvvətləndi, qatı yay oldum,
Dönmüş idim şümşad kimi cavana.

**İyirmi** yaşında sərimdən keçdim,
Könül havalandı, qaynayıb, coşdum,
Qolum qüvvətləndi, həddimdən aşdım,
Güclənib, zorlanıb döndüm aslana.

**Otuz**unda heç kimsəni saymadım,
Mərdlik etdim, namərdliyi duymadım.
Qisasımı heç kimsədə qoymadım,
Hər nə iş tutdumsa mərdü mərdana.

**Qırx** yaşında nizə kimi quruldum,
Eşqdən usandım, yardan yoruldum,
Sel tək bulanıb, yel tək buruldum,
Dalğa yatdı, daha gəlməz çalxana.

**Əlli**sində bir az kefim pozuldu,
Ömür damarlarım bir-bir süzüldü,
Bir ayağım pilləkəndən üzüldü,
Onda bildim, dünya qalmaz insana.

**Yetmiş**ində ağrı canı doydurdu,
Yıxdı bəndlərimi sinəm qovurdu,

Yandırdı gülşənim, yelə sovurdu,
Diş ağrısı gətdi məni amana.

**Həştad**ında, oğul sözüm tutmadı,
Qohum-qardaş mənə kömək etmədi,
Könül istər yerə ayaq getmədi,
Gedəndə dəyərdi o yan-bu yana.

**Doxsan**ında əcəl gəldi asıldı,
**Yüz** yaşında lap nəfəsim kəsildi,
Bürc kimi bədənim yerə basıldı,
Can getdi, cəsəd də qaldı virana.

Öləndə ruyuma tamam soydular,
Qohum-qardaş ağladılar, doydular,
Beş arşın ağ içrə məni qoydular,
Apardılar tapşırdılar zindana.

Xeyir-şər kitabın ələ aldılar,
Oxudular pak-napakı bildilər,
Cənnətə, həm cəhənnəmə sürdülər,
Ayırdılar hər birisin bir yana.

Can cəsədlə halallaşıb ayrıldı,
O yol üstə çox bəndlər var idi,
Məlakələr onda mənə yar idi,
Nə zəhmətlər çəkdim, keçdim o yana.

Mal ki, vardır əmanətdir insana,
İnsan ki var, əmanətdir dünyaya,
Əbləh odur, dünya üçün qəm yeyə,
Tanrı bilər kim qazana, kim yeyə,

Bacardıqca sən də yaxşılıq elə,
Dünya qalmayacaq heç bir insana.

**(Vücudnamə. Saqinamə. Tövbənamə, 1997: 215-217)**

## "KOROĞLU DASTANI" (Azərbaycan variantı)

**Üç** yaşından **beş** yaşına varanda,
Yenicə açılan gülə bənzərsən,
**Beş** yaşından **on** yaşına varanda,
Arıdan saçılmış bala bənzərsən.

**On dörd**ündə sevda enər başına,
**On beş**ində yavan girər duşuna,
Çünki yetdin **iyirmi dörd** yaşına,
Boz, bulannıq axan selə bənzərsən.

**Otuz**unda kəklik kimi səkərsən,
İgidlik eyləyib qanlar tökərsən,
**Qırx**ında sən əl haramdan çəkərsən,
Sonası ovlanmış gölə bənzərsən.

**Əlli**sində əlif qəddin çəkilər,
**Altmış**ında ön dişlərin tökülər,
**Yetmiş**ində qəddin, belin bükülər,
Karvanı kəsilmiş yola bənzərsən.

**Səksən**ində sinən enər dizinə,
**Doxsan**ında qubar qonar gözünə,

**KOROĞLU** der, çünki yetdin **yüz**ünə,
Uca dağ başına kola bənzərsən.

**(“Koroğlu”, 1956: 417)**

## “KOROĞLU” DASTANI
## (Türkmən variantı)

Bizem böldük dirilerin qövmundən,
Xak jan berip qımıldaşan günlerim.
**Dokuz ay**lap yatdım ənem qarnında
Gözüm açıp, dünyə gelen günlerim.

**Bir**imde bilmedim yahşi yamanı
**İki**mde tanadım atam ənemi
**Üç**ümde berdiler dili zıbanı
**Dört** yaşımda daş atışan günlerim.

**Beş** yaşımda bexre aldım yaz bilen,
**Altı** yaşda kovalaşdım saz bilen,
**Edi** yaşda işim bolmaz qız bilen,
**Sekiz**imde dişim düşen günlerim.

**Dokuz**ımda molla berdim salamı,
**On**umda boynumda xakın kelamı,
**Onbir**de göterdim dövlet qalamı,
Xakın kelamını yazan günlerim.

**On iki**den girmişem **on üç** yaşıma,
**On dörd**ünde xecer urdı başıma,
**On bəş**imde gızlar girip düyşüme,
Oların ışkında joşan günlerim.

**Yigrim**imde sıçran-sıçran uçardım,
**Otuz**da gılıçdan ganlar saçardım,
Çillesi demirden yayım çekerdim,
**Dokuz** pilden ok geçiren günlerim.

**Kırk**ımda şir kibi arlap inmişem,
**Elli**mde ner kimin kükrən sınmışam,
**Altmış**ımda toba-tagsır kılmışam,
Pıgamber yaşını yaşan günlerim.

Xayıp boldı, beg **GÖROGLI**, garrıdın,
Vagtı eten bossan kimin eridin,
Xatarlar içinde esrik ner idin,
Ağzımdan ak köpük saçan günlerim

**(Göroğlu, 1958: 609-610)**

**Azərbaycanca:**

*Bizlər gəldik dirilərin qövmündən,*
*Haq can verib, qımıldaşan günlərim.*
***Doqquz ay** yatdım anam qarnında,*
*Gözüm açıb, dünyaya gələn günlərim.*

***Bir**imdə bilmədim yaxşı-yamanı,*
***İki**mdə tanıdım atam-anamı,*
***Üçüm**də verdilər dili-zəbanı,*
***Dörd** yaşımda daş atışan günlərim.*

***Beş** yaşımda bəhrə aldım yaz ilə,*
***Altı** yaşda qovalaşdım saz ilə,*
***Yeddi** yaşda işim olmaz qız ilə,*
***Səkkiz**imdə dişim düşən günlərim.*

***Doqquz**umda mollaya verdim salamı,*
***On**umda boynumda haqqın kəlamı,*
***On bir**də götürdüm dəvat-qələmi,*
*Haqqın kəlamına yazan günlərim.*

***On iki**dən girdim **on üç** yaşıma,*
***On dörd**ümdə xəncər vurdu başıma,*
***On beş**imdə qızlar girdi duşuma,*
*Onların eşqiylə coşan günlərim.*

***İyirmi**mdə səkə-səkə uçardım,*
***Otuz**da qılıncdan qanlar saçardım,*
*Çilləsi dəmirdən yayım çəkərdim,*
*Doqquz fildən ox keçirən günlərim.*

***Qırx**ımda şir kimi kükrəyib-enmişəm,*
***Əlli**mdə nər kimi kükrəyib sınmışam,*
***Altmış**ımda tövbə-təqsir qılmışam,*
*Peyğəmbər yaşını yaşayan günlərim.*

*Heyf oldu, bəy **KOROĞLU,** qarrıdın,*
*Vaxtı ötən bostan kimi əridin,*
*Qatırlar içində əsrük nər idin,*
*Ağzımdan ağ köpük saçan günlərim.*

## Vücudnamə. Parça 1

**Əlli**də eylədim ömürümü yarı,
Ömür baxçasının saraldı barı,
Səslədim möhnəti, oyatdım zayı,
Məmnun adladım, keçdim cəfaya.

**Altmış**ında sanbur gədikdən aşdım,
**Yetmiş**ində əhli-ziyadan qaçdım,
**Səksən**ində səbrü-taqətdən düşdüm,
Qədd əyildi, pənah gətirdim əsayə.

**(Azərbaycan Folklor Antologiyası,**
**6, II c., 2002: 327)**

### Vücudnamə Parça-2

**İyirmi** idim – igid idim,
**Otuz** idim – topuz idim.
**Qırx** idim – qırıq idim,
**Əlli** idim – bəlli idim,
**Altmış** idim – batmış idim.
**Yetmiş** idim – bitmiş idim,
**Səksən** idim – sərsəm idim.

**(Cəfərov, 1984: 80)**

### Vücudnamə Parça-3

İnsanoğlu; **9 ay 10 gün**ə qədər ağlamaz.
**10** yaşına qədər sevimli, yaramaz.
**20** yaşında gəncliyinin qiymətini anlamaz.
**30** yaşında yaşar, amma pulu olmaz.
**40** yaşında anlar ki, pulsuz olmaz.
...**50** yaşında yolun yarısı, narahat olmaz.
...**60** yaşında sağı-solu bəlli olmaz.
**70** yaşında çox işə yaramaz.
**80** yaşında eşitməz, anlamaz.
**90** yaşına qədər yəqinki yaşamaz.
**100** yaşında tarix olar, unudulmaz...

## Vücudnamə Parça-4

**50** oldun – bəlli oldun.
**60** oldun – batmış oldun.
**70** oldun – getmiş oldun.
Oldun **80** – bil ki, təksən.
Oldun **90** – bu gün varsan, sabah yoxsan.
**100** oldun – torpaqla düz oldun[13].

## Vücudnamə Parça-5[14]

**10**-da tullan.
**20**-də evlən.
**30**-da pullan.
**40**-da ağıllan.
**50**-də ağıllan.
**60**-da hellən.
**70**-də şellən.
**80**-də çallan.
**90**-da çullan.
**100**-də yollan.

---

[13] Bu nümunə bizə Ramiz Əskər tərəfindən təqdim edilmişdir.
[14] Bu nümunə bizə AMEA, Fəlsəfə və Hüquq İnstitutunun əməkdaşı Allahverdi Teymurov tərəfindən təqdim edilmişdir.

## *MÜƏLLIFLI VÜCUDNAMƏLƏR*

## Aşıq Abbas (XVI-XVII)

### USTADNAMƏ

Ata bəşərindən gəldim anaya,
Ana bədənində qan oldum durdum.
Anam boylu qaldı, yatdı vədəyə,
İki mələk **qırx gün** çəkdi cəfamı,

Düzdü bəndi-bəndim, eylədi təhər,
Sanasan qavvasam düşdüm dəryaya.
Bir **beş ay** dolandı, incitdim ana,
**Səkkiz ay** tutuldum nəzir qurbana,

**Doqquz ay**da mən də gəldim dünyaya.
O dəm hazır olub gəldi mamalar,
Kəsildi qurbanlar, yedi dayalar,
Madərimə şirni verdi analar,

Basıb bağrına, tutdu laylaya.
**Bir** yaşında oldum bir əcəb göyçək,
**Iki** yaşda qoysa qızılca, çiçək,
**Üç** yaşında mən ölmədim, dirildim,

Yavaş-yavaş ayax tutdum bağçaya,
Göftarım şirindi misalı-bülbül,
Çox-çox şirin gəldim ata-anaya.
Ağlı-huşum vardı, qalxdım söylədim,

Özümdən böyüyə salam eylədim,
Götürüb qoydular mollaxanaya.

**Beş** yaşımda ağ-qaranı mən seçdim,
**Altı**da, **yeddi**də vacibət keçdim.

**On** yaşında sərim doldu sevdaya.
İstərəm özümü bir yaxşı dilbənd,
Özü şux, sözü şux, yəni dərdimənd,
**On səkkiz** yaşında mən oldum oğlan.

Oturub, durduğum, danışdığım qan.
Baş alıb, baş verməm heç bir kimsəyə.
İyirmi yaşında qoç bir iyidəm,
**Otuz**umda mən yuxudan oyandım.

**Qırx** yaşımda hər sevdadan usandım,
**Əlli**də nəsihət verrəm özgəyə,
Qocaldım, axırda oldum natavan,
Nə qolay, nə yaxşı, hamıdan yaman.

İstərəm buradan köçəm üqbaya,
Ömür başa yetdi, gethaget oldu,
Nəvə-nəticə tamam mənə yad oldu.
Gələn dedi: "Bax dəngəsər qocaya".

Beş gün, üç gün keçib ağrıdı başım,
Yığışıb gəldilər qohum-qardaşım,
Heç macal tapmadım mən halallaşım,
Onda gördüm canım düşdü lərzəyə.

O vaqt sinəm üstə çöküb bir cəllad,
Vurdu caynağını oldum bitaqət,
Dedim: "Sən Tanrı, əl saxla bir saat",
Cəfa çəkdim ömür verdim fənaya.

Gəlib qohum-qardaş ah-vay etdilər,
Məni ağa büküb, suya tutdular,
Qoydular tabuta alıb getdilər,
Axirət evinə, mənzil-məvaya.

Verdi təlqinimi molla, üləma
Qoydular qapısız, bacasız dama.
Qəbr sıxıb torpax çökdü əzama
Onda bildim, getdim axır dünyaya....

**(Aşıqlar, 1937: 30-31)**

**Aşıq Ağalar ()**

**OYANDIM**

Yoxdan məni var edəndə ilahim,
Gör xabi-qəflətdən necə oyandım.
Keçdim atam yurdundan düşdüm anayə,
Birəng ikən min rəng ilə boyandım.

**Bir aylıq**la məlum deyildim hələm,
**İki aylıq**da gördüm yeni bir aləm,
Haqdan gəldi mələk əlində qələm,
Dərya tək çalxanıb, sel tək bulandım.

**Üçüncü ay** yerim oldu bir ümman,
**Dördüncü ay** cismim oldu tamam qan,
**Beşinci ay** haqdan gəldi mənə can,
Anamın qanından içib, dolandım.

**Altı ay**da tamam oldu cəsədim,
Bərkidi, sümüyüm, iliyim, ətim,

**Yeddi-səkkiz** anam çəkdi möhnətim,
**Doqquz**da dünyaya düşüb yarandım.

**Bir** yaşımda yaxşı-yaman qanmadım,
**İki** yaşımda bir soltanı sanmadım,
**Üç** yaşımda dediyimdən dönmədim,
**Dörd** yaşımda həya gəldi, utandım.

**Beş** yaşımda, həm oynadım, həm güldüm,
**Altı** yaşda ədəb-kamalı bildim.
**Yeddi**yə çatanda məktəbə getdim,
Oxuyub hərfini, dərsimi qandım.

**Səkkiz** yaşda oldum məktəbli oğlan,
**Doqquz** yaşda qəlbim oldu bir umman.
**On** yaşımda gəzib dolandım hər an,
Qohumu, qardaşı, yadları andım.

**On bir** yaşda mən dolandım cahanı,
**On iki** yaşda oldum könül qurbanı.
**On üç** yaşda çaldım tarı, kamanı,
**On dörd** yaşda həya gəldi, usandım.

**On beş** yaşda artıq eylədim həya,
**On altı** yaşımda düşdüm sevdaya.
**On yeddi** yaşımda yetişdim payə,
Eşqin dəryasında qalıb çalxandım.

**On səkkiz** yaşımda beynim oldu qan,
**On doqquz** yaşımda gəzdim firavan.
**İyirmi** yaşımda alıb bir canan,
Məhəbbət uğrunda oda qalandım.

**Otuz** yaşda əbəs sandım sevdanı,
**Qırx** yaşımda zikir qıldım sübhanı.
**Əlli** yaşda enib bir pilləkanı,
Elə bil ki, dağ başından tullandım.

**Altmışa** çatanda ağardı başım,
**Yetmişə** çatanda töküldü dişim.
Elə ki, **səksənə** yetişdi yaşım,
Uşaq kimi hər bir sözə aldandım.

**Doxsana** çatanda titrədi dizim,
Danışdım, sözümü bilmədim özüm.
Elə ki, **yüz** oldu, yumuldu gözüm,
Qəbir əzabına düşüb yoxlandım.

İnkir-minkir cəm oldular yanıma,
Görcək mənim qorxu düşdü canıma,
Sığındım Allaha, haqq, "Quran"ıma,
Ol səbəbdən yüngül keçdi fərmanım.

Məhşər meydanından quş kimi uçdum,
Sirat körpüsündən çox asan keçdim,
Ağalar deyir ki, cənnətə düşdüm,
Abi-kövsərdən də içib, dolandım.

**(Aşıq Ağalar, 2014: 76-78)**

## Aşıq Aslan Kosalı[15] (1929)

## İNSAN OĞLU

Təbiyət yaradıb icad eylədi,
Sovqat etdi yer üzünü bəndaya,
Atadan anaya mən gəlib düşdüm
İstədim ki, mən də uçam dünyaya.

Ana bədənində **doqquz ay** qaldım,
**Doqquz gün** də keçdi dünyaya gəldim.
Üzərdə uduxdum, nəfəsmi aldım
Hamamladı məni, qucaqladı dayə.

Oydu ki mən gəlib **bir** yaşa çatdım,
Fərəhlənib günü-gündən boy atdım,
**İki** yaşda əl-ayağımı oynatdım,
**Üç** yaşında fikir verdim anaya.

**Dörd** yaşımda bir az ağıla gəldim,
**Beş** yaşımda yaxşı oynayıb-güldüm,
**Altı** yaşda yaxşı-pisimi bildim,
Anam məni bir az saldı cəfaya.

**Yeddi** yaşda atam qoydu məktəbə
**Səkkiz, doqquz**, **on**da aldım mərhəba.
**On beş**ində xeyli çatdım mətləbə
Ağlım toxtaq oldu, üzümdə həya.

**İyirmi**də oldum əməlli cavan
Çox özümdən dedim, beynim idi qan.

[15] Aşıq Aslanın bu vücudnaməsini fil.ü.f.d. Elxan Məmmədli təqdim etmişdir.

**İyirmi beş** yaşına yetişən zaman
Yar eşqiylə adım saldım araya.

El adəti aldım bir sərminadan[16].
Sevdi məni yarım olduqca, o can
Heç kimsə doymayıb o şirin candan
Ancaq indi mən düşmüşəm sevdaya

**Otuz**unda artdı mülkü-qüdrətim,
Mənim də dünyaya gəldi evladım,
El içində nəziri-qurban dedim,
Layiq idi zəhmət çəkmək balaya.

**Otuz beş**də baxdım oğula-qıza,
Bənzədi hər biri Aya, ulduza.
**Qırx** yaşında fikir verdim namaza,
Dedim borcu verək dahi mevlaya.

Eylə ki **əlli**yə yetişdi sinnim,
Baxdım ki, ömürdən azaler[17] günüm.
**Altmış**da qaldı taqətli günüm,
Az tərpəndi, gec yetirdim binaya.

**Altmış beş**də yaxın etdim uzağı,
Gözlərim torlanıb görmür qabağı.
**Yetmiş** yaşda üç eylədim ayağı,
Nəvələrim güldü qoca babaya.

**Səksən**ində oldum yorğana mail,
Naxoş oldum, halım oldu lap zayıl,

[16] Sərvi-mina
[17] azalır

**Doxsan**ımda oldum ölümə qayil
Çünkü həsrət oldum ağa-qaraya

Nəyisə, Əzrayıl aldı canımı,
Qohumum-əqrəbam kəsdi yanımı,
Dünyadan qaldırdı mərgümanımı,
Daha bir də gələn döyüləm buraya.

Yığıldı mollalar, oxundu Quran
Torpaqlar doğrandı, qazıldı kankan
Dedim bu gün də var, ay Aşıq Aslan,
İnsan oğlu getməlidir üqbaya.

**Aşıq Bəhmən Göyçəli (1901-1976)**

## RƏHBƏRİMİZ – PARTİYAMIZ YAŞASIN

**Min doqquz yüz birinci** tarixdə mən
Təvəllüd elədim, gəldim cahana.
**Beş** yaşında qaldım atadan yetim,
Dar oldu başıma keçən zamana.

**Altıda, yeddi**də göz yaşım tökdüm,
**Səkkizdə, doqquz**da ahı-zar çəkdim,
**On-on bir** yaşında bu iki əhdim,
Çox nifrət elədim o zimistana.

**On ikidə, on üç**də bildim xeyir-şər,
**On dörddə, on beş**də mən oldum nökər,
**On altı** sinnimdə deyim müxtəsər,
Çox zülüm olubdu mən novcavana.

Üç xırda qardaşım, bir qoca anam,
Az qaldım odlara alışıb yanam,
İstədim ki, şirin candan usanam,
Üfüqdən bir günəş doğdu asmana.

**On yeddi** tarixdə günəş yayıldı,
Zəhmətkeşlər yoxsulluqdan ayıldı,
Fəhlə, kəndli hamı qardaş sayıldı,
Çarı yıxıb qərq etdilər ümmana.

Qabaqda qəhrəman, böyük partiya,
İstinad eylədi yoxsul, ortaya,
Hücum etdi mülkədara, varlıya,
Ölkəmizdən qovdu çöl-biyabana.

**On səkkiz**də hər təşkilat quruldu,
**On doqquz**da qan soranlar qırıldı.
**İyirmi**də qatı qanlar duruldu,
**Iyirmi bir**də gəldik şirin zəbana.

Düz qoyuldu bu qanunun əsası,
Lenin oldu zəhmətkeşlər atası,
Dağıldı kökündən zülmün qalası,
Lenin adı əzbər oldu dəhana.

Lenin verdi məzlumlara bir nicat,
**Iyirmi iki, iyirmi üçd**ə xoş həyat,
Bütün ölkələrə eylədi isbat,
Sovet hökuməti mərdi-mərdana.

Günbəgün yüksəldi ilbəilində,
Məktəb açdı hər millətin dilində,

Hamı bir hüquqda sovet elində,
Xalqımız qarşıladı xoş mehribana.

**Iyirmi yeddi**də olundu elan,
**Iyirmi səkkiz**də beşillik plan,
Yaşasın ölkənin qaydına qalan,
Cavab verdi hər tərəfdə düşmana.

Tarix yetişəndə **iyirmi doqquz**a,
O zamandan daxil olduq kolxoza,
Xalqımız çıxıbdı bu gözəl yaza,
Ölkəmiz bənzəyir bir gülüstana.

Sovetlər elidi gözəl büsatlı,
Yüksək sənayeli, gözəl həyatlı,
Qadınlar, kişilər olur savadlı,
Elmi kamalımız çatıb loğmana.

Alındı köhnədən qalan qisaslar,
Xainlər dərdləndi, şadlandı dostlar,
Qəhrəmandı Qızıl Ordu, matroslar,
Düşmənin ürəyin döndərdi qana.

**Otuz altı, otuz yeddi** ildə cəm,
Sinifsiz cəmiyyət qurmuşuq möhkəm,
Bu **qırxıncı** ildə yoxdu dərdi-qəm,
Biz çatmışıq indi əhdi-peymana.

Xalqın şairləri, həm də aşığı,
Məclislər bəzəyi, el yaraşığı,
Bir bilirik bu dünyanın işığı,
Partiyadı şölə salıb hər yana.

Azad sənətimdə, azad elimdə,
Mən gəzirəm bu təriflər dilimdə,
Öz hüququm, ixtiyarım əlimdə,
Ağ ürəyim, ağ günüm var nişana.

Sən həyatdan alıb kamı kolxozçu,
Staxanovçuluq namı kolxozçu,
Varlı olub indi hamı kolxozçu,
Yaşasın deyirik dövran qurana.

Rəhbərimiz – partiyamız yaşasın,
Zəhmətkeşin sorur halın yaşasın,
Çalın sazı, siz əl çalın, yaşasın,
Azad hüquq verib şair **BƏHMANA**.

**(Aşıq Bəhmən, 2005: 278-280)**

**Aşıq Hüseyn Əliabadlı (XX əsr)**

**DÖNDÜM**

**On beş** yaşa çatanda mən
Bir gözəl oğlana döndüm.
Yandım eşqin atəşində,
Kərəm Məcnuna döndüm.

**İyirmi**də bala-bala
Nəzər saldım sağa, sola.
Heç kəsdən qalmadım dala,
Bir igid aslana döndüm.

**Otuz**una vara-vara,
Yetişdim kamala, vara.

Sədəm çatdı hər diyara,
Hər işi qanana döndüm.

**Qırx**da hər işə qarışdım,
Tayım-tuşumla yarışdım.
Halal zəhmətlə sarışdım,
Namuslu insana döndüm.

**Əlli** yaşda oldum qoca,
Gündüzümü sandım gecə.
Daha gəlmirəm vecə,
Çox vaxtsız nihana döndüm.

**HÜSEYN**, ömrü vurma başa,
Bu büsata et tamaşa.
Çata bilsən altmışa,
Sanaram pirana döndüm[18].

### Aşıq Mədət (1934)

## SANASAN QƏVVASAM, DÜŞDÜM DƏRYAYA

Əsli bəni-adəmin vəsmin söyləyim,
Ata vücudundan gəldim anaya.
Ana bətnində qan oldum durdum,
Anam həmlə oldu, qaldım vədaya.

**Üç ay**da bir mələk oldu müqərrar,
Düzdülər əzamı eylədi təyyar,

[18] Zümrüd Səmədovanın şəxsi arxivindən (Əlyazması hüququnda)

Ətdən, qandan, sudan mən tapdım qərar,
Sanasan qəvvasam, düşdüm dəryaya.

**Doqquz ay**da gəldim ayə, nişana,
Ağırlaşdı yerim döndü zindana,
Atam, anam nəzir verdi qurbanə,
Allah-allahla gəldim dünyayə.

Göbəyimi kəsdi bir qarı,
Küllüyü eylədi, gətdi kübarı,
İki şamamadan əmdim nübarı,
Onda bildim mehman oldum dünyaya.

Xülaseyi gəldim **bir** yaşa,
Süründüm ağaca, kəsəyə, daşa,
Heç qorxu bilmədim, yandım atəşə,
Yürürdüm oda, düşməyə çaya.

**İki** yaşımda oldum yanı qızılgül,
Gövtarım şirin idi, vüsalı bülbül,
Gələndən, gedəndən oldum dilbədil,
Onda çox xoş gəldim ata-anaya.

**Üç** yaşımda oldum vacibi göyçək,
Dedilər sağ qoya qızılca çiçək,
**Dörd** yaşda danışdım yalan və gerçək,
**Beş** yaşında çıxdım qapı, bacaya.

**Altı**da, **yeddi**də diş təzələdim,
İdrakım tamam idi, əyan söylədim,
Özümdən böyüyə salam eylədim,
Götürüb qoydular məkətxanəyə.

**Səkkiz**də, **doqquz**da qaranı seçdim,
**On**da da vacibətə yetişdim,
**On iki**də Quran kitabı keçdim,
**On dörd**də lərin doldu lərdayə.

**On beş**də gəzdim könlüm dilvəndi,
Özü şux, sözü şux, yəni dərdimənd,
Bir huriyi nisbənd, bir mələk sifət,
Bənzərdi Yusifi ol Züleyxaya.

**On yeddi**də oldum bir cavan oğlan,
Dindiyim, oturduğum tamam hamsı qan,
(oturduğum, durduğum, danışdığım oldu qan)
Gecə-gündüz mən gəzirəm pəhləvan,
Baş alardım, baş verməzdim kimsəyə.

**On yeddi**dən **iyirmi**yə gəldim,
Göz açdım, xeyrimi şərimi bildim,
Həm yedim, həm yedirtdim, həm aldım, verdim,
Gördüm heç etibar yoxdur dünyaya.

**Otuz**da oğlanam,
**Otuz bir**də o yan, bu yanam,
**Otuz üç**də hər sövdadan ağlaram,
**Otuz beş**də mən əl qoydum türbaya.

**Qırx** yaşımda yatmış idim, oyandım,
**Əlli, altmış** maşallaha dayandım,
Tutduğum işlərdən yaman utandım,
Götürübən nəsihət verdim özgəyə.

**Yetmiş**də işim gethaget oldu,
Oğul dönük düşdü, gəlin bəd oldu,

Qohum-qardaş hamı məndən yad oldu,
Qaldım valehlərə Haqqı Rzayə.

**Səksən**də qapıdan kəsildi ayaq,
Qapandı gözlər, tutuldu qulaq,
İncidi məndən oğul və uşaq,
Öz-özümə nifrət etdim, xudaya.

**Doxsan**da oldum piri-natəvan,
Ahal-şahal daha hamıynan yaman,
Qurudu qəfəsim çox incidi can,
İstəyirəm köç edim mənzil məqayə.

**Yüz** yaşımda ağrıdı başım,
Yanıma yığıldı qohum-qardaşım,
Bir macal vermədi, bir halallaşam,
O saatda şanım düşdü lərzayə.

Sinəmin üstünü aldı bir cəllad,
Dedim, ay gidi, bir macal ver, bir saat,
Çaldı caynağını oldum bitaqət,
Cəfa çəkdim, ömür verdim fədaya.

Talışımı verdi Molla Üləma,
Qoydular qapımı, bacamı damə,
Qavər çıxdı, torpaq çıxdı əzana,
Orda rast oldum iki kimsəyə.

Dedilər rəbbin kim, qaldım ləryəndərizar,
Vurdu toxmağını, töküldü odlar,
Verildi suallar gəldi cavablar,
Dedilər, dəyməyin haqqı bəndəyə.

Qabağımız qıl körpüyə tuş oldu,
Altı od, üstü od, həmayan iş oldu,
Mömin şəkillərə taxta puş oldu,
Günahkar bəndələr düşdü cəzaya.

Hər kufə yeridi millət və millət,
Kiminə cəhənnəm, kiminə cənnət,
Məhəmməd hümmətinə etdi şəfayət,
Şükür ki, biz hümmət idik ol Mustafaya.

İsmim **MƏDƏD,** üzü qara, günahkar,
Ağa məndə günah, səndə cəfa var.
Ya Naibi-Qafər, Saqi-kövsər,
Canım qurban sənin kimi ağaya[19].

## Aşıq Müslüm Əsgəri Zənganlı (1938- )

## HƏR ANDA TANRIDIR DİLİM ƏZBƏRİ

Ana rəhimindən gəldim dünyayə,
Mama quslı verdi mən cismi zarə.
Atamla anam da çox şad oldular
Qurdu mənim içün bircə gəhvarə.

Neçə gün gözlərim yuxulu qaldı,
Qohum-qardaş məni qucağə aldı,
Hər biri gözümdən bir sevinc aldı,
Bir görən görmüşdü gördü dubarə.

[19] Bu vücudnaməni bizə təqdim edən AMEA Folklor İnstitutunun əməkdaşı Maşallah Xudubəyliyə təşəkkürlərimizi bildiririk.

**On gün**üm ki geçdi, çağırdı anam,
Dedi, deyin gəlsin qocaman babam,
Yemişlər paylandı səsləndi atam,
Bircə ad çağırın bu şiri xarə.

Böyük babam aldı məni qucağə,
Sağ qulağıma əzan, sola iqamə,
Dedi, Allah çox görməsin atamə,
Gələn gəlir, edir mənə nizarə.

**Yeddi**yə yetişdi o gün ki yaşım,
Məktəbə apardı böyük qardaşım.
Gördülər məni də orda tay-tuşum,
Molla: “Bismillah”, - dedi gəldim guftarə.

Oxudum, dərsimi eylədim tamam,
Bir toy tutduruban oldum şadkam.
Neçə oğlum, qızım oldu, həm kəlam,
Çox şükr eylədim pərvərdigarə.

İşlədim, qocaldım yetdim **atmış**a,
**Yetmiş**də verdilər əlimə əsa,
**Səksan** biri istir əldən yapışa,
Qurtardı qudrətim kəsildi çarə.

**Doxsan**da tutuldu, görmədi gözüm,
Kəsildi taqətim, titrədi dizim,
Sözümə baxmadı oğulum, qızım,
Anasız uşaq tək qaldım avarə.

**Yüz** yaşa çatanda gəldi Əzrayıl,
Oxudu başımda neçə fəzayıl,

Can çıxmaqlıq oldu zəhri-həlahil,
Öz əməlim canda çəkdi şərarə.

Apardılar, qəssal quslumu verdi,
Əgnimə kəfəni tez geyindirdi,
Qəbrə qoyulcağın yasaul gəldi.
Yerləşdi bədənim bir dar məzarə.

Oxundu qəbr üstə həqqin kəlamı,
Hördülər məzarım getdilər hamı,
Məlakələr dedi, çağır imamı,
Gəldi qəbr evinə bir şəhsəvarə.

Oniki ada söz yazdı **ƏSGƏRİ**
Çağır, dadə yetsın sən ərənləri.
Hər anda Tanrıdır dilim əzbəri,
Başarsan namə yaz gül üzlü yarə[20].

### Aşıq Qafar İbrahimi (1954- )

## ADIN YAXŞI OLSUN DİLLƏRDƏ ƏZBƏR

Onda kı, doğulub gəldim dünyaya,
Əmdim hamı kimi ana döşünü.
Dil açanda yalvarardım xudaya,
Axırda göstərdi qəza işini.

**İki** yaşda yavaş durdum ayağa,
Qaçardım gələndə ata qabağa,
Çox dedilər mənə nəzir-sadağa,
Allah, ucalt bu balanın başını.

[20] Məhəmməd Zəncanlının şəxsi arxivindən (Əlyazması hüququnda)

Üç ilə **dörd** yaşda dedim xoş kəlam,
Gözümə çox gözəl göründü aləm,
Gah da ucalardı asimana nalam,
Ana tez silərdi gözüm yaşını.

**Altı** yaşda varid oldum məktəbə,
Dərs oxuyub bəlkə çatam ədəbə,
Görən dedi, əhsən sənə, tələbə,
Gözəl balam tükətdi yeddi yaşını.

Oxudum **doqquz**da, **on**umda dərsi,
**On bir**də düşündüm yaxşıyla pisi,
**On iki**də artdı anam həvəsi,
Deyərdi, sevirəm qara qaşını.

**On üç**də, **on dörddə** çox nadan oldum,
**On beş, on altı**da beyni qan oldum,
**On yeddi, on səkkiz** şux cavan oldum,
Nəsihət eylərdim mən də naşıya.

**On doqquz, yirmi**də mən düşdüm qala,
Vuruldum bir gözəl nazlı sənəmə,
Zalım fələk zülm eylədi çox mənə,
Axıtdım üzümə gözüm yaşını.

**Yirmi bir, yirmi iki** açıldı güllər,
Danışdı uşaqlar çox şirin dillər,
**Yirmi üç, yirmi dört** gəldilər ellər,
Tanıyan tovlardı mənə başını.

Az sinnim **otuz**a yetişdi həmən,
Uşaqlar dövrəmi aldı əl aman,

Fəxr edərdim öz-özümə bir zaman,
Çərxi kəc önümə atdı daşını.

**Otuz beş**də uşaqlar da hərəsi,
Hər güşədən qozadılar bir səsi,
Düşünən olmadı yaxşıla pisi,
Bacı da döyürdü öz qardaşını.

**Qırx** sinnimdə mən də düşdüm qabağa,
Qara xəttim nədən dönmüşdür ağa,
**Qırx beş**imdə mən gedəndə yığnağa,
Cavanlar tovlardı mənə başını.

İllər keçdi sinnimiz oldu **əlli,**
**Əlli beş**də dalıladıq lap bəlli,
Bir kimsə olmadı verə təsəlli,
Dedilər, ağartdın qara qaşını.

**Altmış**da ikini mən eylədim üç,
**Yetmiş**də dayanıb durammadım heç,
**Səksan**da dedilər dərdindən vaz keç,
Dəhə çək qırağa qocə nəşini.

**Doxsan**da gün keçib, azaldı ömür,
Görməgə gəldilər gündə birbəbir.
Dedilər qazdırın siz ona qəbir,
Yazdırın adına məzar daşını.

Yena da ölmədim, yetişdim **yüz**ə,
Ağladım qara su çün gəldi gözə.
Söylərəm Qafara az belə yaz,
Bilmak olmaz o Allahın işini.

Əzəldən vəfası budur dünyanın,
Axırda əzrail alacaq canın.
Sadir olsa haqdan hökmün fərmanın,
Daşdan-daşa çalacaqdı başını.

Yaxşı ol amanda qalasan, bəlkə,
Qabaqda var çoxlu qorxu, təhlükə.
Çalış pak adına dəyməsin ləkə,
Şeytan tez aldadar ağlı naşını.

Dünya mənzilgahdı, müsafiri sən,
Özündən ad qoyar hər gəlib gedən.
Milyonlar köç edib demə ki sənsən,
Təbiət belədi qonan, daşını.

Kamal qazan mərifətlə bərabər,
Adın yaxşı olsun dillərdə əzbər.
Həlal həram qazandığın bil, gedər,
Təhcə düzlük ucaldacaq başını.

Əl at ətəginə bircə Allahın,
Dara düşsən özü olsun pənahın.
Əf qılsın **AŞIQ QAFAR** günahın,
Doğru yolda çox eləsin talası[21].

**Aşıq Saleh** (XVIII)

## DÖNDÜM

Atadan gəldim anaya,
Bir qətrə qana döndüm.

[21] Məhəmməd Zənganlının şəxsi arxivindən (Əlyazması hüququnda)

Yatdım ana bətnində,
**Beş ay**ında cana döndüm.

Sanadılar ayım, günüm,
Qərar tapdı sür-sümüyüm,
Sərasər insana döndüm,
Zülmətdən dünyaya döndüm.

Dədəm mənə verdi dayə,
Əmdim ağız, tutdum maya,
Bir tifli-nadana döndüm,
Sərvəri-sultana döndüm.

**On** yaşımda oxudum kəlam,
Ayaqlandım, gəzdim aləm,
Ustadlara verdim salam,
Dərs aldım, rəvana döndüm.

**İyirmi** yaşda oldum dəli,
Dindirənə dedim, bəli!
Yıxdım qaleyi-xeybəri,
Rüstəmi-Zala döndüm.

**Otuz**unda tutdum maya,
Bədirlənmiş döndüm aya,
Çıxdım ərsan əlaya,
Hökm Süleymana döndüm.

**Qırx**ında yetişdim,
Qırxlarnan yedim-içdim,
Qırxlar çəminə qarışdım,
Dəryayi-ümmana döndüm.

**Əlli** yaşına da yetdim,
Günü-gündən geri otdum,
Zəri-zibasını satdım,
Bazarsız dükana döndüm.

**Altmış**ında köç eylədim,
İki qılçamı üç eylədim,
Cavan ömrü puç eylədim,
Xırd oldum, samana döndüm.

**Yetmiş**ində zikr eylədim,
Ağı-bezi fikir eylədim,
İlahiyə şükür eylədim,
Sərvəri-sultana döndüm.

**Səksən**də qəddim büküldü,
Gözümün nuru töküldü,
Dizimin taqəti çəkildi,
Bir əbli-kamana döndüm.

**Doxsan** yaşımda halallaşdım,
Əcəl badəsini içdim,
Bu fani dünyadan köçdüm,
Mən gözəl zamana döndüm.

**Yüz** yaşda gətirin atımı,
Siz oxuyun bayatımı,
Tez yetirin xələtimi,
Məkandan-məkana döndüm.

O vaxt məni götürdülər,
Dar küçədən ötürdülər,

Yeddi qəddən səf düzdülər,
................................

**SALEHƏM,** düşdüm azara.
Bulunmaz dərdimə çarə,
O gün qoyuldum məzara,
Qarışdım torpağa döndüm.

**(Pirsultanlı, 2006: 106-108)**

**Aşıq Şenlik (1850-1913)**

## OLUR

Ana rəhmindən dünyaya gələndə,
Yeni tifillənir tazə qız olur.
**Üç** yaşından beş yaşına varanda,
Qoyma qonşulara o bir söz olur.

Gözəl olan **beş** yaşında öyülür,
**Yeddi**sində qönçə güldən sayılır,
**Səkkiz**ində hilal qaşlar əyilir,
Vəchi bədirlənir, xumar göz olur.

**Doqquz**unda tərif gəlir mədhinə,
**On** yaşında minər eşqin atına,
**On bir**ində dolar şişək ətinə,
Cismi billurlanır, əmlik quzu olur.

**On iki**də gərdan qırar, sallanır,
**On üç**ündə günəş üzü hallanır,
**On dörd**ündə cığaları təllənir,
Hər bir əzasında yüz min naz olur.

**On beş**ində rikab altda bəslənir,
**On altı**da adı-şanı səslənir,
**On yeddi**də elçi gəlir, istənir,
Məzad bulur, müştərisi yüz olur.

**On səkkiz**də gedər yar otağına,
**On doqquz**da girər gəlin çağına,
**İyirmi**sində bülbül qonar bağına,
Açılır gülləri, bahar yaz olur.

**İyirmi üç**də sucalanır camalı,
**İyirmi beşd**ə bulur hər bir kamalı,
**Otuz**unda kədxudadır, deməli,
Zəhmi əhillənir, xoş mizac olur.

**Otuz üç**də utandırmaz insanı,
**Otuz beşd**ə dürüst söylər lisanı,
**Qırx** yaşında hər sevdadan usanı (r),
Dövri dönər, məşəqqəti az olur.

**Qırx üç**ündə gizli söylər sirrini,
**Qırx beş**ində gözdən salar ərini,
**Əlli**sində "nənə" deyər torunu,
Toylar mətbəxində hey aşbaz olur.

**Əlli üçd**ə derlər:"İxtiyar, nənə",
**Əlli beş**də hər dərd toxunur cana,
**Altmışd**a zülfünə yaraşmaz şanə,
Çallanır telləri, muyu boz olur.

**Altmış üçd**ə daha sərgəndər olu (r),
**Altmış beş** deyəndə bükülür beli,

**Yetmiş**ində qurur budağı, dalı,
Qazəl tökər bağçaları güz olur.

**Yetmiş üç**də zəhər olur yeməyi,
**Yetmiş beş**də gözdən çıxar əməyi,
**Səksən**ində geyər kətan gömləyi,
Donu çitdən, əyincəyi bez olur.

**Səksən üç**də daha kəndin itiri (r),
**Səksən beş**də ağırından oturu (r),
**Doxsan**ında bilməz könül hatırı,
Söyər qonşulara küshaküs olur.

**Doxsan beş**də **ŞENLİK** söylər sözləri,
**Yüz** yaşında çıxar quzu dişləri,
Baş yastığı olar ocaq daşları,
Tüstü döyər, var əndamı his olur.

**(Aslan, 1973: 187-188;**
**Kaya, 2004: 318-321)**

## Aşıq Valeh (1729-1822)

## VÜCÜDNAMƏ

Çəhar ənasırdan, şeş cəhətdən,
Bir qətrə mənidən olmuşuq peyda,
Ədəm dəryasında qaldım **altı ay**,
Qüdrətü qadirü xaliqül-əşya.

Rəhm içində əvvəl bünyad oldu dil,
İki nöqtə gözüm oldu müqabil,

Bir damaq, bir ciyər olundu hasil,
**Doqquz gün**də təmam oldu bu əza,

Doqquzdan **qırx**adək cismim oldu qan,
**İki qırx**da ruhum tutdu aşiyan,
**Üç qırx**da dirilib tərpəndim hər yan,
Lərzə verdi cismim hər tərəf, hər ca.

Bir mələyə qadir eylədi təqdir,
Üç yüz altmış damar olundu təzhir,
Dörd yüz qırx dörd sümük eylədi tə'mir,
Məvayi-tarikdə memari-qəza.

**Doqquz ay** bətndə mən tutdum qərar,
**Doqquz gün, nöh saət** çəkdim intizar,
**Doqquz dəqiqə**də gəldim aşikar,
Bildim ki, qadirdir vahidi-yekta.

Düşdüm din üstündə, imanda möhkəm,
Neçə əhl-i nas oldu onda cəm,
Cismim nəməkləndi, mən oldum adəm,
Adımı qoydular Şəfi-hüveyda.

**Bir** yaşında oldum beşikdə səvar,
Ana südün əmmək eylədim şüar,
**İki** yaşda süddən kəsildi madər,
**Üç** yaşında eki qıldım ibtida.

**Dörd** yaşa yetəndə gəzdim biüsul,
**Beş** yaşda çalındı sünnəti-Rəsul,
**Altı** yaşda başa əql oldu düxul,
**Yeddi**də oxumaq eylədim bina.

**Səkkiz**də höccəmi oxudum səvad,
**Doqquz**da rəvanə eylədim mötad,
**On** yaşa yetəndə şamü bamdad,
Zikr oldu dilimdə övsafi-Mövla.

**On bir**də dərsimi eylədim tamam,
Dildə əzbər oldu peyğəmbər, imam,
**On iki** yaşımda oldum xoşkəlam,
Söylədim hər tərəf, oldum dilguşə.

**On üç** yaşda oldum laleyi-həmra,
**On dörd** yaşda oldum mahı-pürziya,
**On beş** yaşda oldum bəndeyi-xuda.
Fərzü sünnətimi eylədim əda.

**On altı**da oldum xoş qamətü-qəd,
Səhfəyi-puydə mehman oldu xət,
**On yeddi** yaşımda buldum namizəd,
Əlqissə, ixtiyar etdim kədxuda.

**On səkkiz**də işrət eylədim tamam,
**On doqquz**da gördüm hər mətləbü-kam,
**İyirmi**də mənə xoş keçdi əyyam,
Neçə övlad mənə haq gördü rəva.

**Otuz** yaşda oldum bir şeyli-bahar,
Başda eşq əsəri həm leylü-nəhar,
**Qırx** yaşında oldum aşiqi-didar,
Dağıldı başımdan o eşqi-sevda.

Bir özgə xəyala düşdüm ol zaman,
Gördüm ki, sevdada qalmamış ziyan,

Bivəfa dünyaya sərf etmişəm can,
Bir mətaim yoxdur əz bəhri-üqba.

Ondan sanra zikr elədim ruzü-şəb,
Şirin cana verdim cox rənəü-təəb,
Möminlər içində öldüm müntəxab,
Ülugi-dəhrdən paki-müəlla.

**Əlli** yaşda san bir gədikdən aşdım,
**Altmış** yaşda əhli-əyaldan qaçdım,
**Yetmiş** yaşa çatdım, taqətdən düşdüm,
Oldum mən bir suyu sövülmüş aşyan.

**Səksən** yaşa yetdim, qalmadı imdad,
**Doxsan** yaşda tutdu əlimdən imdad.
**Yüz** yaşa yetəndə gəldi bir cəllad
Dedi: Haza, yövmül-axərid-dünya.

Çəkdi çəngəlini, saldı, əzayə,
Tamamən cəsədim düşdü lərzayə,
Aldı mürği-ruhum, çəkdi səmayə,
Cismim qəfəs kimi qaldı müqəvva.

El yığılıb ağladılar bir zaman,
Məni bir taxt üstünə qoydular haman,
Mürd əsirlər mənə verməzlər aman,
Rəxti-vücudumu qıldılar yəğma.

Verdilər qüslümü, pak oldu bədən,
Təni-üryanıma tutdular kəfən,
Qıldılar namazım növrəsü-kuhən,
Məni qəbr içində qoydular tənha.

Məni ki, qəbr içrə qoydular əfrad,
Hər kəs öz məqamın eylədilər yad,
Dünya cifəsindən əlimdə bir zad,
Əməlimdən qeyri qalmadı əsla.

Münkər-Nəkir məndən aldılar xəbər,
Çəkdilər üstümə həm tiğü-təbər,
Nitqim batdı, dilim tutmadı əzbər,
Mənə qəbr içində verdilər cəza.

Çağırdım: Ya Əli, həllali-müşkül,
Urək qüvvət tapdı, güşad oldu dil,
Cavabım suala oldu müqabil,
Müraciət etdim mərsuli-Xuda.

Neçə min il tutdum qəbr içrə qərar,
Qiyamət qopmağa çəkdim intizar,
Bir gün əmr eylədi Vahidül-qəhhar:
Ruzi-qiyamətdir, yövmül-intəha.

Əmr oldu İsrafilə, çaldı sur,
Xəbərdar eylədi: Ey əhli-qübur,
Qüm, biizniallahı vədəyi-nüşur[22],
Tamamən əmvatı eylədi əhya.

Məqribdən Məşriqə üz tutduq Şamə,
Hər kəsin əməli əlində namə,
Adil divan orda yetdi tamamə,
Onda fərq olmadı sultandan gəda.

[22] Qalx, Allahın izni ilə qiyamət vaxtı gəlib çatıb.

Bir həşr qopdu ki, onda ey xuda,
Gün təpədən yaxdı, yer döndü oda,
Oğul atadan, qız anadan cüda,
Tamam məhşər əhli dedi: va nəfsa.

Tamam məhşər əhli səf-səf durdular,
Haq buyurdu, onda mizan qurdular,
Cəhənnəmin atəşini gördülər,
Düşdü bu aləmə şurişü qovğa.

Va ümməta, dedi Həzrəti Rəsul,
Onun iltimasın Haqq etdi qəbul,
Çün keçdik Siratı, olmadıq məhil,
Cümlə xətalardən biz olduq rəha.

Həqdir, əməlimiz deyildi saleh,
İslam harəsində işlədi tale,
Bir neçə həmdəmlə şikəstə Valeh,
Məskənimiz oldu Cənnəti-məva.

**(Aşıq Valeh, 1993: 377-379; Kaya, 2004: 339-346, Aşıq Valeh, 1970: 49-54)**

**Bəhram Əsədi (1965)**

## GƏLDİM

Laməkan seyrini edirdim bir vaxt,
Mənə əmr olundu məkana gəldim.
Saysiz kəhkəşanlar yaranan gündə,
Payim düşdü mən bu cəhana gəldim.
Yerin bətnində idi məkanim mənim,
Olmuş idi qatbaqat yerlər məskənim,

Birdən yer yarildi, əsdi bədənim,
Bir dağin ucundan vulkana gəldim.

Daş oldum, dağ idi mənə yer, məkan,
Uzun vaxtdan sonra sindim yağışdan
Qum oldum çaylarla axdım bir zaman,
Ayaqlar altinda fəğana gəldim.

Yolun torpaği idim uzun bir zaman,
Məni ayaqlardi hər yaxşi, yaman,
Qarişdim əkinə, çixdim göy otdan,
Davar məni yedi mən cana gəldim.

Davarliq dövəranim ki sona irdi,
Qəssab kəsdi məni bazara verdi.
Atam məni aldi, anam bişirdi,
Yedirtdi atama insana gəldim.

Atamdan bir zaman anama yendim,
**Doqquz ay** qaranliq zindana sindim,
Yedigim qan oldu unu bəgəndim,
Orda da qadaya nəşanə gəldim.

Orda da asudə mən qalanmadim,
Huşa gedənmdim zoq alanmadim,
Oyatdılar məni yurd salanmadim,
Dunyaya göz açdım dövrana gəldim.

Əvvəldə ağlardim heç də gülməzdim,
Yaxşinə yamannə onu bilməzdim,
Əlimdə heç nəyi tuta bilməzdim,
Zəif bir can idim, təvana gəldim.

Neçə ay ömrümdən keçəndə az- az,
Mən ağladim bir az, mən güldüm bir az,
Sonda sürünməgə göstərdim niyaz,
İməkləmək ilə culana gəldim.

Neçə ay dörd əlli gəzdim cəhanda,
Dünyaca sevindim dani dovranda
Çoxaldiqca sözüm incə dəhanda,
Şirin ləhcələndim bəyana gəldim.

**Iki**cə yaşımda danişdim xoş-xoş,
**Üçə** yetişəndə sözlərdən sərxoş,
**Dörd**də nağillardan çox oldum dilxoş,
Hər nədən artiqraq dastana gəldim.

**Beş**imdə əlimə qələm götürdüm,
**Alti**da özümü dərsə yetirdim,
**Yeddi**də bir gözəl rətəbə gətirdim,
Özümdə bir yeni gumana gəldim.

**Səkkiz**də ağalıq getdi əlimdən,
Əmər-nəhy olundum kurul-kurul mən,
**Doqqu**zda çox sözlər mən öyrənərkən,
**On**umda çox yerdən yamana gəldim.

On yaşı keçrək çox yerə vardim,
Çoxlu insanlara istədim yardim,
Allahima döndüm, haqq̆a yalvardim,
Namaza yügürdüm, əzana gəldim.

**Yirmi**də bir gözəl cavana döndüm,
Özümə baxdiqca gahdan öyündüm,

Toyi adi gələndə dinmədim dindim
Axri meydanda cəlmana gəldim

**Otuz**a çataraq oldum yumuşaq,
Düzdüm ətrafima bir neçə uşaq,
Gərk ğəmin nirxin indi soruşaq,
Ğussəyə ğərq oldum hərmana gəldim.

**Qırx**da kamallandım, ağilda bişdim,
Bir çox əgrilərdən düzə yetişdim,
Düşündüm təfəkkür bəhrinə düşdüm,
Dənizlərə daldım, ümmana gəldim.

**Əlli**də uzümə düşdü qirişiq,
Bir az da azaldi gözümdən işiq,
Amə artiq oldum həyata aşiq,
Qocasan deyənə bəhanə gəldim.

**Altmış**da işləmək day çətin oldu,
Payiz ağaci tək bədənim soldu.
Cavanliq əlfətin mənimlə yoldu,
Küləklərə düşdüm, dumana gəldim.

**Yetmiş**də qocalıq asari təmam
Qondu mənə, oldum bir zəif adam.
Dahi yavaş - yavaş üç ayaqliyam,
Çox da xəstələndim, dərmana gəldim.

**Səksən**də çəliksiz yeriyəmmədim,
Bir çoxuna öyüd vermək istədim
Ancaq dedigim söz olmuşdu qədim,
Cavanlardan çoxlu böhtana gəldim.

**Doxsan**da əsirdi əlim – ayağim,
Titrəryirdi əngim, dilim, dodağim,
Azalmişdi dahi sa(ğ)liq – surağim,
Həyatda sanki bir zindana gəldim.

**Yüz**də öz yerimdən qalxa bilmdim,
Özüm öz halımi yaxşi bilmdim,
Nədən indiyədək bəs mən ölmdim?
Istixarə etdim, qurana gəldim.

Yüzdən oyanaya yetişdimsə mən,
Qulaqdan kar oldum, kor oldum gözdən,
Dindirən olmadi sən kimsən, nəsən?
Nə də ki, birində dəhana gəldim.

Bir zaman gözümü yumdum dedilər,
Filankəs də etdi dünyadan səfər,
Büründüm beş arşin ağa sərasər,
Çiginlərə mindim yabana gəldim

Məni torpaq altda qoyub getdilər,
Ağlayıb - ağlamaz doyub getdilər,
Qordaqlar gözümü oẙub getdilər,
Borda yeyilməgə ilana gəldim.

Salım yer qalmadi dahi dərimdə,
Ətlərim yox oldu hər bir yerimdə,
Nəhayət çürüdü sümüklərim də,
Payiz yarpaği tək xəzana gəldim.

Bütün bu əhvalı görürdü gözüm,
Ama̋ danişmağa yox idi sözüm,

Cisimdən ayrildim öləndə, özüm
Ruhlar aləmində sirana gəldim.

Xilqətin ilkindən yarananlari,
Gördüm kim ləkəli, kimisi ari.
Yox əginlərində cisim paltari,
Mən də əməlimlə vicdana gəldim.

Məhkəmə yox ikən, mizan yox ikən,
Kimi toy edirdi, kimisi şivən.
Bir çox irtibatlar onlar ilə mən,
Qurarkən onlarla yan - yana gəldim.

Neçə milyon illər keçdi bilmirəm,
Neçə min fəsillər keçdi bilmirəm,
Nə qədər nəsillər keçdi bilmirəm,
Mən öz gümanimda bir ana gəldim.

Birdən diskinərək açdım gözümü,
Yenə də məzarda gördüm özümü.
Silkələnib qalxdim, sildim tozumu,
Böyük bir düzəngah meydana gəldim.

Bütün xəlayiqlər cəm idi orda,
Həm qoca, həm cavan, həm böyük, xirda,
Ana öz balasin tanimir borda,
Bu mənzərələrdən amana gəldim.

Insanlar durublar səf başdan-başa,
Haminin əməli çəkilir daşa,
Kimsənin qədərti yox ordan çaşa,
Növbət mənə çatdi mizana gəldim.

Bir taya qoyoldu xeyir əməllərim,
Bir taya qoyoldu hər nə var şərim,
Macal olmadi heç dili döndərim,
Əl-ayaq danişdi yalana gəldim.

Mən öz hesabima xoş yetişincə,
Bir körpü qoydular tükümdən incə,
Itilikdə bənzər iti qilinca,
Ayaq qoydum ora lərzana gəldim.

Sirat körpüsündə gördüm baxalı,
Öz əməllərimi ağlı-qaralı,
Yol boyu düzülüb rəngli-boyalı,
Ağladim gözümdə leysana gəldim.

Körpünün ustəhdir yaxşılıqlarım,
Duzulub yan-yana əgri rəftarım,
Özümü buradan necə qurtarim?
Nə içün dünyada ziyana gəldim.

Ayaq qoymalıyam əməllərimə,
Rahatca keçirəm qoysam xeyrimə,
Sərnegün oluram qoysam şərimə,
Əcayib firtına, tufana gəldim.

Körpünün o yanı cənn̈əti-əla,
Körpünün altıdır cəhənnəm ama,
Nə bilim o yana çatıram orda?
Yoxsa ki sərnegün qazana gəldim?

Hamılar istəyir orda cənn̈əti,
Cənnət̃ədəki hazir min bir neməti,

Sirat körpüsündən keçmək zəhməti,
Çoxların dedirdir "xusrana gəldim"

Körpüdən keçənlər edir şükürlər,
Körpü üstəkilər qan-yaş tökürlər,
Körpüdən düşənlər haray çəkirlər,
Amandır Allahım! İmana gəldim.

Çoxusu atəşdə əbədi qalır,
Çoxusu can ətir əl-ayaq çalır,
Nəhayət özunu eşigə salır,
Deyir Həqq yar oldu rizvana gəldim.

Ordan oyandadir həyat, əbədi,
Dahi neyləəməli orda ədədi,
Elə ki buraya çatdi **ƏSƏDİ**,
Döndüm o qadr sübhana gəldim[23].

## Dollu Mustafa (XIX əsr)

## QIZ OLAR

**Üç** yaşından **dörd** yaşına varanda,
Gözəlləşir, bu qız yaxşı qız olar,
**On** yaşında həddi-buluğ olanda,
Qönçə tək açılıb bir nərgiz olar.

**On bir**ində kətan örtər başına,
**On iki**də vəsmə yaxar qaşına,

[23] Məhəmməd Zəncanlının şəxsi arxivindən. (Əlyazması hüququnda)

Elə ki yetişdi **on üç** yaşına,
Qoyma qonşulara, o bir söz olar.

**On dörd**ündə gözəllərə qatılar,
**On beş**ində elçilərə satılar,
**On altı**da şirin toyu tutular,
Tapar həmdəmini sərfinaz olar.

**On yeddi**də al gərdəyi qurular,
**On səkkiz**də yalan sözlər qurular,
**On doqquz**da şux məmələr qırılar,
Ürəyi-ürəyə əcəb söz olar.

**İyirmi**də bənzər gəlinə,
**İyirmi bir**də sığal verər telinə,
Elə ki, baş vurdu eşqin gölünə,
Təzədən silkinib, quba qaz olar.

**Otuz**unda oğul, uşaq yetirər,
**Qırx** yaşında hər zülmünü götürər,
**Əlli** yaşda gəlib köksün ötürər,
Hər yetəndən qaçmaz, üzbəüz olar.

**Altmış**ında **MUSTAFANIN** sözünə,
**Yetmiş**ində ağ tor gələr gözünə,
Elə ki çatdı yetişdi **yüz**ünə,
Ocaqlar başında tək yalqız olar.

**(Azərbaycan aşıq şerindən seçmələr: II cild, 2005, s. 57-58)**

## MƏNƏ[24]

Ata belindən gəldim ana bətninə,
Geydirdilər qırmızı don, al mənə.
**Otuz gün**dən **qırx gün**ümə varanda,
Canım, başım tamam oldu qol mənə.

Vədəmi qoydular bir **doqquz ay**a,
Yerim sıxnaq oldu, zəmət verdim anaya,
Vədəm qurtulan gün gəldim dunyaya,
Baxdım dəgdi bu dünyada yel mənə.

Göbəgimi kəsib duzu basdılar,
Axtardılar mənə bir ad tapdılar.
Göstərdülər əldən-ələ qapdılar,
Bu götürüb o da deyər ver mənə.

**Bir** yaşında mən də qalxdım ayağa,
Dizim titrir məətəl oldum dayağa.
Anam məni göt(ür)dü qoydu qundağa,
Düzəltdilər onlar ayrı yer mənə.

Bir yaşından **iki** yaşa bürünüm,
İməkləyib qap bacaya surunum.
Quimadila bədənzərə görünüm,
Məqid oldular onlar bir mənə.

İki yaşdan **üç** yaşıma yetişdim,
Alışdı cəsədim otlara düşdüm.
Çiçək ilən qızılcaya bələşdim,
Atam, anam qıldı ahü- zar mənə.

[24] Məhəmməd Zəncanlının şəxsi arxivindən (Əlyazması hüququnda)

**Dörd**ümdə qurtuldum şəkəristana,
**Beş**imdə dedilər bax bir cəvana.
**Altı** yaşda təsədəqə, qurbana,
Verdilər nəzər, niyaz nə ki var mənə.

**Yeddi**də baxmadım aşnaya, yada,
**Səggiz**ində oldum mən bir şərxata.
Qohum, qonşu gəldi əlimdən dada,
Hərgün oldu döyüş, qalma-qal mənə.

**Doqquz**umda mən də getdim işimə,
**On**umda qarışdım yara, yoldaşa.
**On bir**ində sevda gəldi başıma,
Baxdım oldu xırda məmə nar mənə.

**On iki**dən yetirdim **on üç** yaşa,
Çox istəkli oldum yar və yoldaşa.
**On dörd**ümdə gücümü sınadım bir ağır daşa,
Dedim: dədə, bir tədarük verin mənə.

Mən yetişdim **on bes** yaşın özünə,
Ürəgim alışdı əsəqin közünə,
Gözlərim sataşdı qonsu qızına,
Könül meyl eylədi onu al mənə.

**On altı**da mən göndərdim elçini,
Onlarla danışdıq kəsi-biçini.
**On yeddi**də gətirdilər mən fəqirin köçünü,
Verdi zövq və səfa nə ki var mənə.

Elə ki yetisdim **on səggiz** yaşa,
Oğlan çörək istir, qız ağlır ana.

Xudaya, ruzini sən yetir başa,
Kərəmindən yetir həlal mal mənə.

**On doqquz**dan **yirmi**yə etdim iradə,
Yirmisində canım oldu cəfadə.
**Yirmi bir**də möhtac olmadım yada,
Verdi bu evdarlıq çox azar mənə.

**Yirmi iki**dən mən də çatdım **yirmi üçə**
Kim dayanar bu qədərtə, bu gücə,
Heç qərar tutmaram gündüz və gecə,
Deyirlər yatmırı bəxtəvər mənə.

**Yirmi dörd**dən yetirdim **yirmi beş** salı,
Hər gəlib gedənlər məndən dərs alı.
O zaman saymaram Rüstəmi Zalı,
Həqq verib zur[25], qədərt, arxa, dal mənə.

**Yirmi altı**da mən də göründüm gözə,
**Yirmi yeddi**sində məni çəkdilər üzə.
Gəlib məsləhətə, baxırlar sözə,
Həqq verib mərifət, çox kəmal mənə.

**Yirmi səkkiz**imdə oldum bir bağı-gülşan
**Yirmi doqquz**da oldum bir pişmiş cuvan.
**Otuz**umda oldum dəryayi-ümman,
Baxdım tamam yadlar oldu el mənə.

**Otuz bir**də çoxdur mənim hörmətim,
**Otuz iki**də çoxalıbdır zəhmətim.

---
[25] Güc

**Otuz üç**də dahi çoxdur dövlətim,
Çəkildi hər zaddan bir qatar mənə.

**Otuz dörd** yaşında dövlətim daşdı,
**Otuz beş**də gözlər mənə qamaşdı.
**Otuz altı** yaşda bir dişim düşdü,
Ağrıdıban verdi çox azar mənə.

**Otuz yeddi**də məətəl qaldım özümə,
**Otuz səggiz**də oğul baxmır sözümə.
**Otuz doqquz**umda nişan düşdü üzümə,
Oldu qocalıqdan bir nişan mənə.

**Qırx** yaşında bildim həlal, həramı,
**Qırx bir**imdə tövbə etdim yalanı.
Etibarsız gördüm fani dünyanı,
Bu yıl yəqin bildim ölüm var mənə.

**Qırx iki**də evdarlıqdan əl çəkdim,
**Qırx üç**ümdə o̊ruc, namazı tutdum.
**Qırx dörd**ümdə pis yollardan qayıtdım,
Oldu onlar yaxşı bir mədar mənə.

**Qırx beş**imdə çox qurşandım namaza,
Yəqin ola mənə əcir[26] cəzada.
**Qırx yeddi**də nəzir ilən niyazı,
Verdim xeylək əsan ola mal mənə.

**Qırx səggiz**də qorxdum, ürəgim əsdi,
**Qırx doqquz**da əcəl canıma qəsddi.

---

[26] Savab

**Əlli**sində baxdım dövlət əbəsdir,
Verdim əsan, oğul verməz mal mənə.

**Əlli bir**də mən usandım malımdan,
**Əlli iki**də ellər yanır dadımdan.
**Əlli üç**də ölüm çıxmır yadımdan,
Baxdım oldu şirin ağzım tal mənə.

**Əlli dört**də öz günümə ağladım,
**Əlli beş**də oğul deyir suabıma saxladım,
**Əlli altı**da sədəqi Həqqə bağladım,
Yəqin bildim Həqdən umud var mənə.

**Əlli yeddi**də mənə qalan əsandı,
Dəli könül əbəs dövlət qazandı.
Oğul, arvad, gəlin məndən usandı,
Öz külfətim oldu bir zəval mənə.

**Əlli səggiz**də duman tutdu gözümü,
**Əlli doqquz**da azdıraram özümü.
Oğul, arvad, gəlin danlır üzümü,
Deyirlər dəlidir, bekamal mənə.

O zaman yetişdim **altmış** yaşına,
Qazandığım dövlət qaldı başına.
Gülməyin siz bu dünyanın işinə,
Kar oldu qulağım eşitmir mənə.

**Yetmiş**imdə məətəl qaldım bir gücə,
**Səksən**imdə daha gəlmədim vecə.
Eşitdim deyirlər ölməyir bu qoca.
Baxdım oldu bu gen dünya dar mənə.

**Yüz** yaşında mənə bir yer saldılar,
Götürübən çiginlərə aldılar.
Bir sərada mənə bir gor qazdılar,
Qayırdılar o sərada ev mənə.

Buraxdım dünyada yar və yoldaşı,
O zaman düzdülər üstümə daşı.
O dəmdə neylərəm eli, qardaşı.
Şahlar şahi özün kömək ol mənə.

Mənə fatihə verdi el və aşina,
Dağıldı dağılan başlı başına.
Durdum başım dəgdi əhəd daşına,
Bildim dahi ordan yoxdur yol mənə.

Bir vaxt baxdım gordan qapı darıldı,
Ənkir, münkir yığıldılar gəldilər,
İncitdilər, məndən sual aldılar.
Baxdım, edib bu dar dünya fel mənə,

Qəbir dardı, dönəmmirəm o yan, bu yana.
Ilan, çayan məni gətdi amana,
Yeni başdan döndüm xaki-yeksana.
Dedilər yerindi, orda qal mənə,

İsrafil sur çaldı, gözümü açdım,
Kəfənim boynumda mən yola düşdüm,
Gedən kimi qıl körpüyə yetişdim,
Çağırdılar, oğlan, yeyin gəl, mənə.

Ayağımı qoydum, mən də kəsildim,
Yetmiş min il qıl körpüdən asıldım.

Gözlərimi açdım, ağamı gördüm,
Baxdım şahlar şahı dayaqdır mənə.

Bir vaxt baxdım adamlar san verdilər,
Mizan-tərəzini orda qoydular.
Əhali şərri̇̄ cəhənmə sürdüulər,
Bəəşətdə verdilər dəstə gül mənə.

Anlayana bunlar yaxşı söz oldu,
Anlamayan cəhənn̈əmdə köz oldu.
**DOLLU MUSTAFA** da sərafraz oldu,
Eşidənlər desin bir rəhmət mənə.

## USTADNAMƏ

Ata belində ikən anayə gəldim,
Onda döndüm bir zərrə mayəyə.
**Üç həftə**də kimsə bilmədi sirrimi,
**Bir ay**da məlum oldum anayə.

**İki ay**da aldılar sorağım,
**Üç ay**da məlum oldu dodağım.
**Dörd ay**ımda yer eylədi ayağım,
**Beş ay**da şaddıx getdi arxayə.

**Altı ay**da bu cəsədim düzəldi,
**Yeddi ay**da bildim dünya gözəldi.
**Səkkiz ay**da vədəm mənim azaldı,
Dübarə də mən baxırdım bir aya.

Dübarə **doqquz gün, doqquz dəqiqat,**
Gecə gündüz dedim tamamdır saat.

Zorba idim, anamda qalmadı quvat,
Qaranlıxdan fərz eylədim dünyayə.

**Bir ay**da hamı baxdı üzümə,
**İki ay**da işıq gəldi gözümə.
**Üç ay**da güvənmirdim özümə,
**Dörd ay**da göz atırdım atayə.

**Beş ay**ımda anam aldı qucağa,
**Altı ay**da atılırdım ocağa.
**Yeddi ay**da nənəm verdi sadağa,
**Səkkiz ay**da mən sığındım mövlayə.

**Doqquz ay**da ləzət verdim qonağa,
**On ay**ımda apardılar yaylağa,
**On bir ay**da anam gətirdi bağa,
Üzüm yedim, heç baxmadım məməyə.

**On iki ay**da tamam oldu **bir** yaşım,
Ərindi, silindi açıldı döşüm.
Qafıldan çıxdı ikicə dişim,
O saatda şükür qıldım Xüdayə.

**İki** yaşda bir az əmələ gəldim,
Ey ağalar, elə bildim bay oldum.
Oynayanda uşaxlara tay oldum,
Ağlayanda yaşım dönürdü çaya.

**Dört** yaşında yox idi dərdim,
**Beş** yaşımda hər bir işi bilərdim.
**Altı** yaşda hər kimsəyə söyərdim,
**Yeddi** yaşda təqsir yoxdur uşağa.

**Səkkiz** yaşda dədəm verdi bir işə,
Gecə-günüz dərs alardım həməşə.
**On** yaşında bir dil açdım tamaşa,
**On bir** yaşda kağız yazırdım saya.

**On iki** yaşda göndərdilər dükana,
**On üç** yaşda heç baxmırdım nadana.
**On dört** yaşda bac vermədim düşmana,
**On beş** yaşda Xudam yetirdi baya.

**İyirmi** yaşda xiridimi açdım,
Havalı idim namazdan qaçdım.
İstanbul qəhvəsini aliban içdim,
Heç baxmırdım mən də qənd-çaya.

**İyirmi beş** yaşında toy elədim özümə,
Böyük-kiçik baxırdılar sözümə.
Bir nazənin onda baxdı üzümə,
Aşiq-məşuq oldum butaya.

**Otuz** yaşda kimsə bilmədi halım,
Məndən qorxurdi oxuyan alim.
Yox idi dünyada mən kimi zalim,
İstəyirdim xundkər mənə baş əgə.

**Otuz beş**də yığdım dünyanın malı,
Bəyənmirdim mən də tirməyi şalı.
Elə bildim mənəm Rüstəm zalim,
Güc var idi bac vermirdim xəznayə.

**Qırx** yaşımda qırxlar tasi,
Frənkdən aldım paltarın xası.

Məlum olar dövlət yeyəsi,
O səbəbdən bel bağladım ölkəyə.

**Qırx beş**ində düşmənə yetirdim yara,
Nə qədər çalışdı bulmadı çara.
Çox adam məndən qaçdı avara,
Yer üstə dava edirdim mən paya.

**Əlli** yaşında getdi ömrümün bəri,
Başıma yığıldı dünya qəhəri.
Əziz günlərim qayıdardı gəri,
Onda bildim qalan günüm bicayə.

**Əlli beş**imdə dedim vaxtım mənim,
Qafıl döndü qara baxtım mənim.
Soluxdu qızıldan taxtım mənim,
Dedim gərək gedim gəzim arayə.

**Altmış** yaşda heç bilmədim neynəyim,
Yavan aş oldu gündə yeməyim.
Oğul-uşax itirdilər əməyim,
Qarqış etdim fələk boynun əyə.

**Altmış beş**də tanımadım işimi,
Yaman söz eşitdi tek-tek güşimi.
Sancı vurdu azar tapdı dişimi,
Görən dedi, apar çikdir ustayə.

**Yetmiş yaş**da cəvab verdi uşağım,
Onda bildim bükülübdür vərəgim.
Düşmən oldu qol-qanadım, budağım,
Çərxi-fələk ömrüm yetirdi zayə.

**Yetmiş beş** yaşda alan yoxdu sorağım,
Dəyişdilər yerim, qaldı otağım.
Çox çalışdım, alışmadı çırağım,
Qocalığda bir baxa idim şöləyə.

**Səksən** yaşda olan dişim töküldü,
Düşmən əldə evim-bağım söküldü.
Qohum-qardaş bütün məndən çekildi,
Çağıranda gedə bilmədim toya.

**Həştad beş** yaşımda dediyim bitmədi,
Böyük, kiçik sözüm taraz etmədi.
Gönül istəyən yerə ayağ getmədi,
Gedəndə düşdüm o yan bu yanə.

**Doqsan** yaşda ölməyimi bilirdim,
Gecə-gündüz həqqə şükür qılırdım,
Ağlayıban göz yaşımı silirdim,
Hayıf oldu gəmin batdı dəryayə.

**Doqsan beş** yaşımda getdi adı sanım,
Kəsildi nəfəsim, qurudi qanım.
Bir quru qəfəs qaldı, bir quru canım,
Onda qaldım ah vaya, ah vaya.

**Yüz** yaşımda məni yıxdı azarım,
Yeyəsiz qaldı dükanla bazarım.
Bir dost onda qazdı məzarım,
Tabutumu çevirdilər Qibləyə.

Əzrail tutdu qapı və baca,
Günüz ikən xeyrat verdilər aca.

Məni saxladılar bir gün, bir gecə,
Götürəndə həşir düşdü məhləyə.

Xudadan əmr oldu körpünü keçdim,
Əcəl badasını mən orda içdim.
Gedə-gedə dünyayə yetişdim,
Rast gəldim möhkəm davayə.

Dava eylər şər şeytani,
Yığılmışdı neçə min canı.
Zülmət gördüm haq divanı,
Rast gəldim mən Musayə.

Orda gördüm Musa dağı,
Yaman görər nar ocağı.
Səkkiz qatdır cənnət bağı,
Mərt iyit düşməz bəlayə.

Halal malı mən almışam dəstimə,
İndi bildim sən gəzirsən qəsdimə.
Bu dünyada haq olubdu üstümə,
Töküldü abrım, qalmadı haya.

**AŞIX HƏTƏM**[27] de aşkara,
Rəhmət verin şairlərə,
Ayan olsun qalanlara,
Rast gəldik biz Mövlaya

**(Azərbaycanın qeyri-maddi… 2011: 38-44)**

---

[27] "Maral xanım dastanı"ndan götürdüyümüz bu vücudnamənin bundan öncə verdiyimiz nümunə ilə variantlıq təşkil edir. Lakin fərqlər çox olduğu üçün verməyi vacib bildik. Sonda Aşıq Hətəm adı çəkilsə də, dastanda da Dollu Mustafadan bəhs edilməsi müəllifin ikinci aşıq olmasını sübut edir.

## ŞÜKÜR OLSUN OL XUDAYƏ[28]

Şükür olsun ol xudayə,
Biz gəldik bətin anayə.
Bir neçə gün orda qaldıq,
Bələd olduq biz o cayə.

Ayım **üç ay**ımdan keçdi,
**Doqquz** ayıma yetişdi,
Mənim anam həngə düşdü,
Məni gətirdi dünyayə.

**Yeddi**də qoydular adım,
Adım ata pir ustadım,
Qırx günə dək mən ağladım,
Mehriban oldum laylayə.

Mənim sinnim **beş**dən keçdi,
O dəm **on beş**ə yetisdi,
Gözüm bir gözələ düşdü,
Oxşatdım mələk simayə.

**Yirmi**də bir cavan oldum,
Öz yoluma rəvan oldum,
**Otuz**da pələvan oldum,
Döndüm alınmaz qalayə.

**Qırx** sinnimdə yol eylədim,
Qiybət dilin lal eylədim.
Özüm həqqə qul eylədim,
Oxşadım əbəd xudayə.

---

[28] Bu vücudnaməni bizə Məhəmməd Zəncanlı təqdim etmişdir.

**Əlli**də dolandı halım,
Artıq oldu qalmaqalım,
Özümdən olan yalım,
Üz turşatdı mən qocayə.

Day sinnim **altmış**dan keçdi,
Hicran şərbətini içdi,
Bir neçə gün xəstə düşdü,
Üzüm döndərin qiblayə.

Anam-bacım ağladılar,
Məni suya bağladılar.

Anam-bacım ağlamayın,
Ürəkləri dağlamayın,
Dünyaya bel bağlamayın,
Rəhmət verin **MUSTAFA**ya.

**Dövletmammat Balgızıl (1854-1912)**

## YAŞ ÖTÜRDIM

Ey yaranlar, musulmanlar,
**On dört-on beş** yaş ötürdim.
Meylis bilen marekede,
Özümni orta getirdim.

Dünya kime berdi vepa,
Birden şu gün, bir dem sapa,
Dutar bilen yıfa-yıfa,
Şu akıl-huşum yitirdim.

Hayp zeynim avam oldı,
**Otuz**da könlüm uyaldı,
Öten dövran yada geldi,
Gözlerime yaş getirdim.

Ey, yalançı, panı, senin....
Hanı sıya zülpüm menin,
Bolmadı bu könül çenim,
Mövç urdum, turdum oturdım.

Gezerdim yarın bağında,
Sayrardım saher çağında,
Bilbil kimin pudağında,
Sayrayıp danım atardım.

Diyer **DÖVLETMAMMET** deli,
Azdırar dünyanın malı,
Dünya bir mıhman mısalı,
Bilmedim, ne iş bitirdim.
**(Türkmen Şiir Antolojisi, 1995: 928)**

**YAŞ ÖTÜRDÜM (tərcümə)**

Ey yarənlər, müsəlmanlar,
**On dörd-on beş** yaş ötürdüm.
Məclis ilə mərəkədə,
Özümü ortaya gətirdim.

Dünya kimə etdi vəfa,
Bir dəm cəfa, bir dəm səfa,
Dutar ilə çala-çala,
Bu ağıl-huşumu itirdim.

Heyf zehnim avam oldu,
**Otuz**da könlüm utandı,
Ötən dövran yada gəldi,
Gözlərimə yaş gətirdim.

Ey, yalançı, fani, sənin....
Hanı siyah zülfüm mənim,
Olmadı bu könül istəyim,
Mövc vurdum, durdum oturdım.

Gəzərdim yarın bağında,
Ötərdim səhər çağında,
Bülbül kimi budağında,
Ötüb danım atardım.

Deyər Dövlətmammət, dəli,
Azdırar dünyanın malı,
Dünya bir mehman misalı,
Bilmədim, nə iş bitirdim.

## Gayipnazar Gayıbi (XIX)

## GÖZLERİM

Ovvalan doğdum eneden panı görgen gözlerim,
Gudrat ile yer basıp asmanı görgen gözlerim,
Niçeyi-dagu-deniz deryanı görgen gözlerim,
Berha bar içre gördüm canı görgen gözlerim,
Hak yaradıp mövcut eden kani görgen gözlerim.

**Bir** yaşımga girgenimde perveriş kıldı enem,
**İki** yaşa girgenimde yol salıp yördüm menem,
Türpe asan işde boldı bu menin canı-tenim,
Hak bizi köydürmek üçin saldı sütem,
Set pıraku-yüz elem hücranı görgen gözlerim.

**Beş** yaşımga girgenimde oglanlara hemra idim,
**Yedi** yaşa girgenimde asım-gümrah idim,
**Dokguz**ımda tagta tutgan mahremi-dergah idim,
**On** yaşımda girgenimde mekdep içre, şah idim,
Men halıpa, niçe bir aglannı görgen gözlerim.

Çün **yigrimi** yaşa girdim başıma urdı eser,
Eyledi mövcutlık, boldı yiğitlik serbeser,
Hir güna artdırganım başımga boldı derdeser,
Iltimasi-igtikadım köpdi, kıldım muhteser,
Niçe cananlar bile dövranı görgen gözlerim.

**Altı kem otuz**da erdim, yaşımı kıldım hasap,
Hat yazardım, hat okırdım, goynıma saldım kitap,
Nagehandan geldi apat, yüzüme çekdim nikap,
Görmedim yer, asmannı, ay, yıldız, apıtap,
Sag bile solga bakıp, deryanı görgen gözlerim.

**MOLLA GAYIP** yıglap aydar, bizden ötdi canlar,
Ötdi ömrüm, zayıg geçdi, sürmedim dövranlar,
Bu peleknin gerdişi-her kimde yüz armanlar,
Bilbilem, galdım kapasda seyr ederdim baglar,
Cennet içre cay berse, didarnı görgen gözlerim.

**(Türkmen Şiir Antolojisi, 1995: 346)**

## GÖZLƏRIM (tərcümə)

Əvvəlcə doğuldum anadan fani görən gözlərim,
Qüdrət ilə yerə basıb asimanı görən gözlərim,
Neçə-neçə dağ-dənizi, dəryanı görən gözlərim,
Bir təlaş içrə gördüm canı görən gözlərim,
Haqq yaradıb mövcud edən kanı görən gözlərim.

**Bir** yaşıma girdiyimdə bəslədi məni anam,
**İki** yaşa girdiyimdə yol alıb yürüyən mənəm,
Türfə asan işdə oldu bu mənin canü-tənim,
Haqq bizi yandırmaq üçün saldə sitəm,
Yüz fəraqü, yüz ələm, hicranı görən gözlərim.

**Beş** yaşıma girdiyimdə oğlanlara həmrah idim,
**Yeddi** yaşa girdiyimdə sağlam-gümrah idim,
**Doqquz**umda lövhə tutan, məhrəmi-dərgah idim,
**On** yaşımda girdiyimdə məktəb içrə şah idim,
Mən müəllim,bir neçə ağlıyanı görən gözlərim.

Çün **iyirmi** yaşa girdim başıma vurdu əsər,
Eylədi mövcudluq, oldu igidlik sərbəsər,
Hər günah artıranda başıma doldu kədər,
Iltimasi-etiqadım çoxdu, qıldım müxtəsər,
Neçə cananlar ilə dövranı görən gözlərim.

**Otuzdan altı aza** yetdim, yaşımı qıldım hesab,
Yazı yazardım-oxuyardum, qoynuma saldım kitab,
Nagəhandan gəldi afət, üzümə çəkdim niqab,
Görmədim yeri, asimanı, ay, ulduz, afitab,
Sağ ilə sola baxıb, dəryanı görən gözlərim.

**MOLLA QAYİB** ağlayıb deyər, bizdən ötdü canlar,
Keçdi ömrüm, hayıf keçdi, sürmədim dövranlar,
Bu fələyin gərdişidi – hər kimdə **yüz** arzular,
Bülbüləm, qaldım qəfəsdə, seyr edərdim bağlar,
Cənnət içrə yer versə, didarını görən gözlərim.

## Hacı Loğman Qorqud (1963 - )

### GƏLDİM

Ya Rəbbim, açdıqca bəsirətimi,
Mat qaldım sirrinə, heyrana gəldim.
Yatmışdım, oyatdı məni mələklər,
Dedi: "Gecikirsən!", imana gəldim.

Bismillah hökm edib, bir qətrə suya,
Lütfi-paklığıyla xəlq etdi maya.
Atamın sülbündən düşüb bir boya,
Yaranıb yoxluqdan, ümmana gəldim.

Qətrəydim, cəhd edib, gəzdim ümmanı,
Yox idi gözlərim, duydum pünhanı.
**Dörd ay**da ruh verdi Mələk-sultanı,
**Doqquz** tamamında cahana gəldim.

**Bir-yeddi**də uşaq oldum, boy atdım,
**14**-ümdə düşüncəmi oyatdım.
**21**-də həddi-buluğa çatdım,
Atamın, anamın hayına gəldim.

**23**-də sevda qondu başıma,
Bir dilbər baxışlı çıxdı qarşıma.
**24**-də övlad düşdü yaşıma,
Başqa bir növrağa, zamana gəldim.

**30-**unda doldum əqlə, kamala,
Nəfs etdim dövlətə, cahi-cəlala.
**40** yaşımda düşdüm müşgül bir hala,
Sarsıdım, çırpındım, cəzana gəldim.

**42**-də tapdım haqqı, hikməti,
Tövbə etdim, atdım qəmi, möhnəti.
Tanrı verdi öz nurundan qisməti,
Lütfüylə namaza, azana gəldim.

**45**-də taxdım idrakdan zinət,
Dəyişdi gözümdə aləm, təbiət.
Allahın ipindən tutdum, nəhayət,
Nicat gəmisinə "Quran"a gəldim.

Könlüm müştaq oldu haqq dəvətinə,
Yollandım Kəbənin ziyarətinə.
Ya Muhəmməd, qarışıb ümmətinə,
Minanın dağına, qurbana gəldim.

Qeyb ilə hicabda qaldım üz-üzə,
**HACI LOĞMAN**, hər yaşantı möcüzə.
Qəbul etsən, möhtacınam bir sözə,
"Bağışla", qapına peymana gəldim.

**(Hacı Loğman, 2010: 38-40)**

## Həmzə Həmzəi (?-?)

## DÖNDÜM

Atadan gəldim anaya,
Bir zərrəcən qanə döndüm.
Yatdım anə bəşərində,
**Beş** ayində canə döndüm.

Zülmətdən gəldim dünyayə,
Əmdim ağız, tütdüm mayə,
Atə bənzə verdi dayə
Bir tifil nadanə döndüm

**On**də oxudum kəlam,
Ustadıma verdim salam,
Sərraf oldum işdən tamam,
Dərs alıb rüanə döndüm.

**İgirmi** oldum dəli,
Çağırdılər, dedim, bəli.
Tütədüm u qələ xeyəbəri,
O Rüstəmi-Zalə döndüm.

Elə ki **qırx**a yetişdim,
Mərdlərin cəminə qarışdım,
Mərdlərinən dedim, danışdım,
Həkim Süleyəmanə döndüm.

**Əlli**sində durdu eynim,
Qoy ta gülsün dəli gönlüm,

..................................
..............................

Elə ki **altmişə** yetirdim,
Gazsöz dişlərim çəkdim,
Qara tükləri rəng(li) etdim,
Bir ağ rəng divanə döndüm.

Yetmişdə kiç elədim,
İki qıçı üç elədim,
Şirin ömrü puç elədim,
…………………

Yüzündə gətirin atım,
Oxuyən qənbər bəratım,
Hər nə tezətər getdim çatım,
...............................

Yarımdan kənara durdum,
Burnumdan bir daşı tutdum,
Şirin bədəni boyatdım,
Qərə ostoxana döndüm.

Ostoxanələr xurd oldulər,
Xurdlər qurd uldulər,
Qurdlər bir-birin yedilər,
Hanə gəldim, hanə getdim?!

**("Gələcək" dərgisi, 2007)**

## Kəminə (1770-1840)

## QELER

Xudayımnın sunqundan ajap nışana qeler,
Ata, əne qoşulşıp, aşratı kəne qeler,
Aslı toprak adamzat, ət bilen qana qeler,
**Kırk bir günləp** çaykanıp, **dört ay**da jana qeler,
**Dokız ay**ın doldurıp, panı jaxana qeler.

Oqul doqsa atadan, qören yolun unutmaz,
Sırıp pınxan saklayıp, dost-düşmana tanatmaz,
Xer kime bir söz diyip, söz manısına etmez,
Yüpek donun içinde yaqşı-yaman tanıtmaz,
Mıxman qelse toplanıp, kef desterxana qeler.

**Bir** yaşında bilmeqey yaqşı bilen yamanı,
**Iki** yaşında tanar ata bilen əneni,
**Üç** yaşında sözleqey, əyem berse zıbanı,
**Dört** yaşında xas tanar qarındaşı, doqanı,
**Bəş** yaşında açılıp, qüli reyxana qeler.

**Altı-yedi** yaşında bismılla diyip okatsa,
Alımqa xızmat eyləp, qolıqa suv akıtsa,
**Sekiz** yaşa baranda xat oynap, maşkın ətse,
**Dokuz** yaşda ders okan, xatmı-kitaba etse,
**On** yaşda taqlım alıp, ədep-ərkana qeler.

**On bir, on iki** yaşında mərekede oturqay,
**On üç, on dört** yaşasa, den-duşundan ötürqey,
**On bəş, on altı** yaşda tutan işin bitirqey,

**On yedi, on sekiz**de qiden yerden qeturqey,
**On dokuz, yiqri**mide xökmi-soltana qeler.

**Yiqrim bir-yiqrim iki**de şəxer yalı öy qerek,
Söyüp alsa qoynuna, derejeli toy qerek,
**Yiqrim üç-yiqrim dört**de at-yaraqı şay qerek,
Yiqit bolan **yiqrim bəş**de bəşe, ona tay qerek,
**Yiqrim bəş**in dəljesi ışkı-messana qeler.

**Yiqrim altı** yaşa yetse, dövletlinin çaqası,
**Otuz** yaşda niçik bolmaz ilin-qünün aqası,
**Kırk** yaşda kemal tapar ketxudalık mayası,
Əyyamında qanımat bir yaqşının sayası,
Mərekede söz qurup, adı asmana qeler.

Kırkda qaynan köpükler **əlli**de sına başlar,
Ərin yaşı bir **altmış** aşaqa ine başlar,
**Yetmiş**ine yetenson, işi xas kına başlar,
**Seqsen**de sözlər bolsa, dem alıp dına başlar,
**Toqsan**da qubar inip, qözi dumana qeler.

Adamzatdan ne bolar, **yüz** yaşına yetenson,
Axırat düşer yada, qam layına batanson,
Bir dem alırqa qoymaz, ajal yakan tutanson,
Yaşlıkda əden işin peyda bermez, yetenson,
Bu dövlet dövlet bolmaz, dövlet imana qeler.

Irak, yakın qarındaş xal üstünü qelende,
Zenan, merdan yıqlaşıp, razılaşıp bolanda,
Dodakların tebrener, paqtadan suv alanada,
Kirpiklerin san urar, qözün nurı solanda,
Xarıdın almak üçin Əzrayıl jana qeler.

Jan ajıqı yamandır, jan ber subxan içinde,
Ölüm barından yaman, panı jaxan içinde,
Yuvup, ardıp qoyarlar, oşol meydan içinde,
En, yakasız, işiksiz öy bilen don içinde,
Əssalatu-jınaza, kovmun azana qeler.

**KEMINE** diyr, dört yaran, oval qelip durarlar,
Xudayım qazap kılsa, xaybat bilen qirerler,
Roza, namazdan başlap, "repbin kim" diyip sorarlar,
Repbim alla diymesen, qürzi bilen urarlar,
Ol qürzinin zarbından dağlar lerzana qeler.

**(Meredov, 1958: 231-233)**

## GƏLƏR (tərcümə)

Tanrımın əməlindən əcəb nişana gələr,
Ata, ana birləşib, əşrati-kana gələr,
Əsli torpaq insanlar, ət ilə qana gələr,
**Qırx bir** gün çalxanıb, **dörd ay**da cana gələr,
**Doqquz ay**ın doldurub, fani-cəhana gələr.

Oğul doğsa atadan, gördüyü yolun unutmaz,
Sirrin pünhan saxlayıb, dost-düşmənə tanıtmaz,
Hər kimə bir söz deyib, söz mənasına yetməz,
İpək donun içində yaxşı-yaman tanıtmaz.
Mehman gəlib toplanıb, kef dəstərxana gələr.

**Bir** yaşında bilməyər yaxşı ilə yamanı,
**İki** yaşında tanıyar ata ilə ananı,
**Üç** yaşında söyləyər, Tanrım versə zibanı,
**Dörd** yaşında xas tanıyar qarındaşı, doğanı,
**Beş** yaşında açılıb, güli-reyhana gələr.

**Altı-yeddi** yaşında bismillah deyib oxutsa,
Alimə qulluq eyləyib, əlinə su axıtsa,
**Səkkiz** yaşa girəndə yazı yazıb, məşqin etsə,
**Doqquz** yaşda dərs oxuyub, xətmi-kitaba yetsə,
**On** yaşda təlim alıb, ədəb-ərkana gələr.

**On bir, on iki** yaşında mərəkədə oturar,
**On üç, on dörd** yaşasa, tay-tuşundan ötürər,
**On beş, on altı** yaşda tutduğu işin bitirər,
**On yeddi, on səkkiz**də getdiyi yerdən gətirər,
**On doqquz, iyirmi**də hökmi-soltana gələr.

**İyirmi bir-iyirmi iki**də şəhər kimi öy gərək,
Sevib alsa qoynuna, dərəcəli toy gərək,
**İyirmi üç-iyirmi dörd**də, at-yarağı şay gərək,
İgid olan **iyirmi beş**də beşə, ona tay gərək,
İyirmi beşin dəlicəsi eşqi-məstana gələr.

**İyirmi altı** yaşa yetsə, dövlətlinin çağası,
**Otuz** yaşda nə üçün olmaz elin-günün ağası,
**Qırx** yaşda kamal tapar kətxudalıq mayası,
Əyyamında qənimət bir yaxşının sayası,
Mərəkədə söz qoşub, adı asmana gələr.

Qırxda qaynayan köpüklər, **əlli**də sına başlar,
Ərin yaşı bir **altmış** aşağı enməyə başlar,
**Yetmiş**inə yetən son, işi xas kına başlar,
**Səksən**də sözlər olsa, dəm alıb, dına başlar,
**Doxsan**da qübar enib, gözü dumana gələr.

İnsandan nə olar, **yüz** yaşına yetəndən sonra,
Axirət düşər yada, qəm layına batandan sonra,
Bir dəm almağa qoymaz, əcəl yaxan tutandan sonra,
Gənclikdə etdiyin işin fayda verməz, yetəndən sonra,
Bu dövlət dövlət olmaz, dövlət imana gələr.

Uzaq, yaxın qarındaş **x**al üstünə gələndə,
Zənan, mərdan ağlaşıb, razılaşma olanda,
Dodaqların tərpənər, pambıqdan su alanda,
Kirpiklərin san vurar, gözün nuru solanda,
Canın almaq üçün Əzrayıl cana gələr.

Can acısı yamandır, can ver sübhan içində,
Ölüm varından yaman, fani cahan içində,
Yuyub, silib qoyarlar, həmin meydan içində,
Ensiz, yaxasız, qapısız ev ilə don içində,
Əssəlatü-cənaza, qövmün əzana gələr.

**KƏMİNƏ** deyər, dörd dost, əvvəl gəlib durarlar,
Tanrım qəzəblənsə, hədə-qorxu ilə girərlər,
Oruc, namazdan başlayıb, "rəbbin kim" deyib sorarlar,
Rəbbim Allah deməsən, kürzə ilə vurarlar,
O kürzənin zərbəsindən dağlar lərzana gələr.

## Mahmud Türkmən (?-?)

## XİLQƏTNAMƏ

Şükr eylərəm o xəllaqə,
Yetişdim lütf-i yəzdanə.
Yar oldu kövkəb-i bəxtim
Girdim səf-i müsəlmanə.

Xilqət oldum dörd ünsürdən,
Nar-o baddan, bəhr-o bərdən,
Şiyə oldum əzəllərdən,
Düşdüm cade-yi imanə.

Əzəl başdan zərrə oldum,
Sur sazını mənzil qıldım,
O yerdə həbs olub qaldım,
Bir müddət-i mədidanə.

Çox qərnilər geçdi ondan,
Bir Xatab endi yəzdandan,
Varindir heç xəbər məndən,
Kiməy, heç agəhəy ya nə?

Ərz eylədim xudavəndə,
Sən allahay, mən də bəndə.
Oldu cari ləfzim ondə,
Cavab verdim ğayibanə.

Ondan geçdi çox müddətlər,
Xilqət oldu bir peyğəmbər.
Cümlə xəlqə odur pedər,
Hər nə gəlsə bu cəhanə,

Məni oldum o dəmdə mən,
Atam sülbün etdim məskən.
Ondan sora çox müddətdən,
Anam rəhmin qıldım xanə.

Məskən eylədim anamı,
O məskəndə aldım kamı,

Ələq etdim onda namı,
Mülhəq oldum qızıl qanə.

**Qırx gün**əcək həyy-i səməd,
Qıldı müzğə, bəd cəsəd,
Sərapa cism-o sahib yəd,
Təşbih oldum mən insanə.

**Dörd ay on gün** geçdi ondan,
Ruhu qalıb qıldı yəzdan.
Üç yüz şəst-o şeş damardan,
Dörd yüz qırx dörd ustuxanə.

Bir fırıştə oldu dayəm,
Gecə gündüz mənə həmdəm.
Xorakım qandan, nafım fəm,
Çəkdim bu tur ab-o danə.

Ta **doqquz ay, doqquz günü,**
Başdan etdim bu dilxuni.
Bilməzdim gərdiş-i duni,
Neylər bu didə gəryanə.

Bir mələk-i digər gəldi,
Danışdırıb, iqrar aldı,
Yol göstərib yola saldı,
Rəvan oldum xakdanə.

Qədəm qoydum bu toprağə,
Gözüm düşdü sol-o sağə,
Ərz-o səma daş-o dağə,
Çırpındım, gəldim fəğanə.

Yığıldı dayələr başə,
Məni çəkdilər ağuşə,
Deyildi qovum qardaşə,
Verildi çox müjdəganə.

Su töküb nazik əndamə,
Yuyub geydirdilər camə,
Yetirdilər məni kamə,
Bəslədilər əzizanə.

Yığıldı qovum- əqvamım,
Danışıb qoydular namım,
Şəhd- izzət doldu camım,
Dad etdim şir-i püstanə.

**Bir** yaşımda yemək bildim,
İşarətlə təam aldım,
**İki** yaşda əvəz qıldım,
Şir-i xamı ab-o nanə.

**Üç** yaşımda yola düşdüm,
Min səs ilə dilə düşdüm,
Gəzdim əldən ələ düşdüm,
Cadə saldım hər məkanə.

**Dörd** yaşımda xətnə oldum,
Xəlil millətinə gəldim,
Məzhəb-i Cəfəri bildim,
Mülhəq oldum şiyəyanə.

Dörd yaşımdan gəldim **beşə**,
Oynamaqdır mənə peşə,

Eylədim fikr-o əndişə,
Oldum əhl-i məktəbxanə.

**Altı** yaşda dərsə getdim,
**Yeddi**ncidə qələm tutdum,
**Səkgiz**də mətləbə çatdım,
Doqquzumda yol- ərkanə.

**On** yaşımda şəhbaz oldum,
**On bir**də üz gərdin sildim,
**On iki**də müştaq oldum,
Mən on iki imamanə.

**On üç** yaşda sahib hünər,
**On dörd**ümdə açdım bəsər,
Əlim tutdu ərbə əşər,
Saldı rah-i səvabanə.

Əqlə gəldim **on beş** yaşda,
Hədd-i təklif hər ravişdə,
Müştaq oldum yaz-o qişdə,
Həcc-o sovm-o səlatanə.

O**n altı**da eşqə düşdüm,
**On yeddi**də həddən aşdım.
**On səkgiz**də soraqlaşdım,
Can qoydum rah-i cananə.

**On doqquz**, eşqə qərq oldum,
Məşhur-i qərb-o şərq oldum.
**İyirmi**də çün bərq oldum,
Ayaq qoydum bəs hər yanə.

**İyirmi beş** oldu yaşım,
Heç tərəfdən yox təşvişim.
Cəng-o cədəl oldu işim,
Olmuşam məst-o məstanə.

Tüğyan etdim **otuz** yaşda,
Özüm bilməm yaz-o qışda.
Ayaq qoydum **otuz beş**də,
Hər meydanə rüstəmanə.

**Qırx** yaşımda nadim oldum,
Oturuşub ağla gəldim,
Gecə gündüz qəmə qaldım,
Düşdüm fikr-i xan-manə.

**Əlli**də ömr olub yarı,
Qıldım tövbə istiğfarı,
Vird etdim nam- ğəffarı.
Yalvardım həyy-i subhanə.

Yaşım yetdi **əlli beş**ə,
Rəxnə düşdü kəmkəm dişə.
Muy-i abyəz gəldi rişə,
İzzət üçün xoş nişanə.

**Altmış** yaşda oruc-namaz,
Gecə gündüz mənə dəmsaz.
Adət etdim ba səd niyaz,
Səlat-o səlam Rəhmanə.

**Yetmiş**də səsxt oldu işim,
Töküldü bir be bir dişim,

Zəhrə döndü nan-xuruşum,
Qüdrətim döndü nüqsanə.

**Səksan** yaşda tutmaz dilim,
Xəm oldu ğussədən belim,
Yapraq kimi titrər əlim,
Vicudum döndü samanə.

**Doqsan** yaşda düşgün oldum,
Bir guşədə düşüb qaldım,
Geçən günü yada saldım,
Çəkdim yüz min həsrət anə.

**Yüz** yaşımda görməz gözüm,
Arzuladım mərgi özüm,
Köç-o külfət çəkməz nazım,
Naliş etdim mərizanə.

**Yüz iyirmi** yaşım oldu,
Ömrüm peymanəsi doldu,
Əyan oldu əcəl gəldi,
Qaldım dərd-biy dərmanə.

Çatan qəbri mənzil etdi,
Əcəl bəratını götdü,
Əzrail çəngəyin atdı,
Qəsd eylədi xəstə canə.

Zəhmətinən aldı canim,
Qaldı cism-i natəvanım,
Yığıldı qovum- əqvamım,
Gəlirlər cümlə əfğanə.

Qovum-qardaşlar ağlaşdı,
Yəxə yırtıb başı aşdı,
Qəmlərə tuş olub, düşdi,
Göz yaşı döndü ümmanə.

Mürdəşurlar yığıldılar,
Bədəndən rəxtim aldılar,
Cismimi üryan saldılar,
Təxt üstünə mərizanə.

Nəan eybimi gördülər,
Sidrilən kafur vurdular,
Qıyamət ğuslün verdilər,
Cismim oldu təmizanə.

Bu imiş adət-i dövran,
Müstəhsəl olmayin yaran.
Müştaq olmaz heç huşyaran,
Bu dünya-yi pərişanə.

Biyrəhmdi rəhmə gəlməz,
Bivəfadı vəfa qilməz.
Heç kimsəyə mehrin salmaz,
Nə dərvişə, nə sultanə.

Mən xəstəni yola saldı,
Var-yoxumu əldən aldı.
Qəbrin içi yerim oldı,
Ağ geyindim dərvişanə.

Azım oldum uzaq yola,
Bilməm axiri nə ola,

İşim düşüb çox müşgülə,
Üz döndərdim təşvişanə.

Gördüm yoxdur fəryadrəs,
Səvar oldum şəcər fərəs,
Əfğan səsi oldu cərəs,
Düşdüm beyn-i karvanə.

Min şurilən rəvan oldum,
Çatınca qəlbi qan oldum,
Yüz min zəhmətinən gəldim,
Yetdim şəhr-i xəmuşanə.

Çün yetişdim o mənzilə,
Mulla gəldi namaz qılə,
Üç səf əşxasilən bilə,
Dedilər beş təkbiranə.

Cismimi qəbrə saldılar,
İşimdən fariğ oldular,
Təlqin verib dağıldılar,
Hər biri getdi bir yanə.

Qaldım yüz min zəhmətinən,
Dərd-o rəngc-o möhnətinən,
Düçar oldum həsrətinən,
O mənzil-i qəribanə.

De sən peyğəmbəriy kimdi?
İmam-o rəhbəriy kimdi?
Şəfi-i məhşəriy kimdi?
Ver cavabı təcilanə.

Dil tutuldu o heybətdən,
Titrədim xovf-o vəhşətdən.
Canə gəldim müsibətdən,
Halım oldu acizanə.

Səmt-i qiblə ki nagəhan,
Oldu rovşən, oldu əyan.
Yetişdi şəfi-i üsyan,
O cay-i təng-o taranə.

Nəkireynə etdi xitab,
Bu şəxsə verməyin əzab.
Qəmli göylüm oldu şadab,
Yetişdim şah-i mərdanə.

Hər nə Nəkir ilən Münkər
Sual etdi Əli yeksər
Cavabını verdi əzbər,
O, dəlildir möminanə.

Dedim rəbbim həyy-i davər,
Məhəmməd xətm peyğəmbər,
İmamanım Əsna Əşər,
Şəfi dilər hər üsyanə.

Olubdur məzhəbim Cəfər,
Qibləm Kəbə beyt-i davər.
Millət-i İbrahim Azər,
Peyrövəm əmr-i Quranə.

Deyildi çox ibadatdan,
Həcc-o sovm səlatatdan,

Fitrə, xums-o zəkatatdan,
Cavab oldu hazıranə.

Şahi-Mərdan etdi imdad,
O bəladən oldum azad.
Bədən qəllad ilən şedad,
Yetişdilər o məkanə.

Bir-birindən sözlər düşüb,
De-danışıq həddən aşıb,
İşimiz gəlib yetişib,
Bir naməlum mənzilanə.

O cəhətdən sərgum oldum,
Dərd-o rənc-o qəmdə qaldım,
Əlacı yox belə bildim,
O möhnət-i biypayanə.

Nagəh ki şəfi-i üsyan,
Əli şah-o mələk dərban,
Dəlil oldu, etdi ehsan,
Mən məhzu heiranə.

Əl atdım damənin tutdum,
Murada, mətləbə yetdim,
Məkan darüssəlam etdim,
Hezaran şükr yəzdanə.

Çox müddətdən fərman olur,
İsrafil surunu çalur,
Cümlə insan canə gəlir,
Üz qoyarlar əcülanə.

Qarışırlar ki bir birə,
Yetişirlər bir həcərə,
Ovsafından əql xiyrə,
Olar, gəlməz heç bəyanə.

Tığdən tiz-o incə qildən,
Geçmək olmaz üç min ildən,
Hər düşənlər həman yoldan,
Qərq olar nar-i neyranə.

Be hovl-o quvət-i Rəhman,
Geçmək olar mənə asan,
Tutar dəstim Şahi-Mərdan,
Aparar ali divanə.

Gələr həqqiy ki fərmanı:
Ayırın yaxşı-yamanı!
Səvab-o bar-i üsyanı,
Çəkərlər hərdəm bir yanə.

O zəmanda Ərbə Əşər,
Olarlar çün mənə rəhbər,
Verərlər şərbət-i kövsər,
Salarlar bağ-i Rizvanə.

Qismət olar təxt-i şövkət,
O bəladan ollam rahət,
Başa qoyub tac-i izzət,
Məhrəm ollam hüriyanə.

**TÜRKMAN TİLİM**, et əndişə,
Özüy vurma dağə, daşə,

Söylədigiy gələr başə,
Sözləriy qalar nişanə[29].

## Məlikballı Qurban (XIX)

## CƏNNƏTƏ DÜŞDÜM

Ərbəyi-ənasir, şeş cihatdan,
Xəlq elədi məni qadiri-qəffar.
Bir qətrə atadan yendim anaya,
Misalimdə **qırx gün** elədim qərar.

**İki qırx** olanda hümraya döndüm,
**Üç qırx**da bir mələk gördüm səksəndim,
**Dörd qırx**da düzəldim, **beş**də tərpəndim,
**Altı qırx**da oldum xeyli giranbar.

**Yeddi qırx** olanda gəldim cahana,
Şad oldu bu işdən həm ata, ana,
Cismim xaki xunda düşdüm fəğana,
Qundaqdan beşiyə elədim səvar.

Ana püstanından nuş elədim zad,
Yığılıb gəldilər qohum, qardaş, yad,
Cəddim silsiləsi qoydular bir ad,
Dedilər fənada qalsın yadigar.

**Bir** yaşatan öz anamdan şir aldım,
**İki** yaşda əqlü-şürbə yönəldim,

[29] Məhəmməd Zəncanlının şəxsi arxivindən (Əlyazması hüququnda)

**Üç** yaşda danışdım, oynadım-güldüm,
Qəddü-qamət **dörddə** elədim izhar.

**Doqquz** yaşda şüru etdim mənayə,
**On** yaşımda getdim elmi yəğmayə,
**On bir**imdə başım düşdü sevdayə,
**On iki**də eşqim oldu aşikar.

**On üç**ümdə məclislərdə oturdum,
**On dörd**ümdə hər nə varsa götürdüm,
**On beş**də Allaha iman gətirdim,
Fərz ilə sünnəti bildim nə ki var.

**On altı** yaşımda oldum xirədmənd,
**On yeddi**də bir xanə etdim pəsənd,
**On səkkiz** yaşımda oldum payibənd,
Zövqü səfa ilə keçdi ruzigar.

**On doqquz**da qəmdən oldum azada
**İyirmi**də dərkim oldu ziyada,
**Otuz**da bərq tək gəzdim havada,
**Qırx** yaşımda etdim zikri-girdigar.

**Əlli** yaşda yarı etdim mənzili
**Altmış**da seçdim xar ilə gülü
Elə ki **yetmişə** yetirdim ili
Ağzımdan dişlərim töküldü pərkar.

**Yetmiş**dən ötəndə düşdüm ah vayə,
**Səksən**də əyilib döndüm bir yayə,
**Doxsan**ında pənah etdim əsayə,
**Yüz** yaşımda Haqdan gəldi bir azar.

Əriyib cəsədim tük tək incəldi,
Əzrayıl gəlibən çəngini çaldı,
Mürği-ruhum aldı bədən boş qaldı,
Bəqa mənzilimi etdim ixtiyar.

Yığılıban ağlayıban doydular,
Rəxti-vücüdüm tamam soydular,
Namazımı qılıb qəbrə qoydular,
İnkir Münkir ilə oldum xoş göftar.

Sual edib məndən cavabın aldı,
Bir neçə il cismim qəbirdə qaldı,
Əmrilə İsrafil surunu çaldı,
Bildim qiyamətdi çəkdim intizar.

Yığılıban gəldik quruldu divan,
Şəfim dərdimə elədi dərman,
Mövlam qazı oldu çəkildi mizan,
Sirləri faş etdi, o eybi setar.

Rəbbim şəfqət etdi Siratı keçdim,
Firdövsi-əladə kövsəri içdim,
**Məlikballı Qurban** cənnətə düşdüm,
Mövlamızı onda elədim didar.

**(Azərbaycan Aşıqları və El Şairləri, 1983: 282-284; Kaya, 2004: 238-242)**

## Məmməd Məhbübi (?-?)

### BƏNZƏR

İnsanoğlu, bu dünyayə gələndə
Kərdidə baş vermiş reyhana bənzər.
**Bir** yaşında əl-qol atıb sevinər,
Elə bil nobahar gülşana bənzər.

**İki** yaşda şirin-şirin danışar,
**Üç** yaşında uşaqlara qarışar.
**Dörd** yaşında hərdən küsüb barışar,
**Beş** yaşında həzar dəstana[30] bənzər

**Altı**sında bilməz nədir işini,
**Yeddi**sində əvəz eylər dişini,
**Səkkiz**ində yaxşı-pisi düşünü,
**Doqquz**unda qaşı kəmana bənzər.

**On** yaşında gülər, atar qaşını,
**On bir**ində tapar yar-yoldaşını,
**On iki**də tumarlayar başını
**On üç**ündə tərsin ceyrana bənzər

**On dörd**ündə bir hal gələr rənginə
**On beş**ində gedər rum, fərhənginə
**On altı**da girər eşqin cənginə
**On yeddi**də taza bustana bənzər

**On səggiz**də təklifinə yetirər,
**On doqquz**da evə gəlin gətirər,

[30] Min dastan

**Yirmi**sində subaylığı bitirər,
**Yirmi beş** kükrəmiş aslana bənzər.

**Otuz**unda düşər dünya qəhrinə
**Otuz beş**də düşər xəyal şəhrinə
**Qırx** yaşında gedər elmin bəhrinə
**Qırx beş**ində dərd pünhana bənzər

**Əlli**sində düşər alçaq-ucaya,
**Əlli beş**də çayı adlar o taya,
**Altmış**a çatanda bənzər qocaya,
**Altmış beş**də yorğun kərvana bənzər.

**Yetmiş**ində qəzəblənər özünə,
**Yetmiş beş**də duman çökər gözünə,
**Həştad**ında dayaq verər dizinə,
**Həştad beş**də dərdi təğyana bənzər.

**Doxsan**ında ağırlaşar qulağı,
**Doxsan beş**də dayaq tutmaz ayağı,
**Yüz** yaşında seçə bilməz uzağı
"**MƏHBÜBİ**" dünyası zindana bənzər[31].

## Məxdumqulu (1733-1783)

## Düşen günlerim[32]

**Dokuz ay** yatmışam anam karnında,
Göz açıp dünyaya düşen günlerim.

---

[31] Məhəmməd Zəncanlının şəxsi arxivindən. (Əlyazması hüququnda)
[32] Bu vücudnaməyə "Koroğlu" dastanının özbək və türkmən variantlarında da rast gəlirik.

Dört ayağa gezdim anam elinde,
Sekiz ayada hem gülüşen günlerim.

**Bir**imde bilmedim yahşi yamanı,
**İki**mde tanıdım ata ananı (anayı),
**Üç** yaşımda Tanrı verdi zebanı,
**Dört** yaşımda taş atışan günlerim.

**Beş**imi ötirdim (geçirdim) bahar yaz ile,
**Altı** yaşta kavalaştım baz ile,
**Yedi** yaşta işim olmaz kız ile,
**Sekiz**imde dişim düşen günlerim.

**Dokuz**umda verdim Tanrı selâmı,
**On**umda boynumda Hakk'ın kelâmı,
**On bir**inde tutum divit kalemi,
Okıp okıp mâna seçen günlerim.

**On iki**mden gittim **on üç** yaşıma,
**On dörd**ünde eser vurdu başıma,
**On beş**imde kızlar girdi düşüme,
**On altı**mda kaynap coşan günlerim.

**Yigirmi**mde mestan mestan gezerdim,
**Yigirm beş**te ganım okun düzeldim,
**Otuz**umda atlar binip üzerdim,
**Otuz beş**te ters savaşan günlerim.

**Kırk**ımda koyılıp kesem dolmışam,
**Elli**mde elime tesbih almışam,
**Altmış**ımda pire mürid olmuşam,
Peygamber yaşın yaşan günlerim.

**Yetmiş**imde ağır indi dizime,
**Seksen**imde gubar indi gözüme,
**Doksan**ımda huş kalmadı özüme,
Akıl huştan cüdâ düşen günlerim.

**Yüz** yaşına yetirmen alırlar canın,
Uzatıp koyarlar biçerler donun,
**MAHTUM KULU,** hemrah olsun imanın,
Can cesetten ayrı düşen günlerim.

**(Çelebioğlu, 1998: 405-406;**
**Kaya, 2004: 254-255)**

## GANA GELDIM

Ata bilinden düşdüm, ene rehmine geldim,
Kyrk köwn bilen çykyp, bir zerre gana geldim,
Bir mahyýy-bijanam, derýa-ummana geldim,
**Dört aý, on dört sagat**da dirildim, jana geldim,
**Dokuz aý** tamam oldy, şonda jahana geldim.

Atam-enem söýdüler, göterdiler gujaga,
Geýimlerim geýdirip, buladylar gundaga,
Gähi emedeklärdim, gäh turardym aýaga,
Ene süýdün emerdim dönerdim sola-saga,
**Iki** ýaşa ýetemde, iýmäge nana geldim.

**Üç** ýaşyma ýetemde, oýnaýyban gülerdim,
**Bäş** ýaşyma baramda, eneden zat tilärdim,
**Ýedi** ýaşa ýetemde, dost-duşmanym bilerdim,
**Dokuz** ýaşa ýetemde, bäş wagt namaz kylardym,
**On** ýaşyma ýetemde, edep-ekrana geldim.

**On iki**de her kime gaňrylyp söz gatardym,
**On üç** ýaşa ýetemde, agyr mejlis tutardym,
**On bäş**ime ýetemde, tiri-tüpeň atardym,
**On ýedi**ge baramda, yşk söwdasyn göterdim,
Yşkyň söwdasy bilen sürüp, meýdana geldim.

On ýediden geçen soň, şöhrat öýüne girdim,
Aldym bir näzeninni, zowk ile sapa sürdüm,
Bu gunçaýy-gülzaryň elwan gülüni tirdim,
**Ýigri**miýe ýetende, pelek jebrini gördüm,
Pelek aldy ýarymy, ejel gamhana geldim.

**Otuz**a girdi ömrüm, girdim tir-u kemana,
Köňül hyruç eýledi, boldum däli-diwana,
At münüp, ýarag baglap, sürüp girdim meýdana,
Rüstemi-Destan kimin söweş kyldym merdana,
**Kyrk**a ýetende ömrüm, okyp, Gurhana geldim.

Kyrkdan öter bolanda, gitdim **elli** ýaşyma,
Geldi ölüm nyşany, rehne girdi işime,
Her kim garry diýerdi, haýran galdym dişime,
Gojaldym, düşgün oldum, gowga geldi başyma,
Ele hasa göterip, dogry mekana geldim.

**Altmyş**a gitdi ömrüm, görmez oldy gözlerim,
Gojaldym, düşgün oldy, gyşa döndi ýazlarym,
Meniň sözüm etmesler hem ogul, hem gyzlarym,
Älemge hoş gelmedi meniň şirin sözlerim,
Äleme ýalbarmakdan düşdüm, amana geldim.

**Ýetmiş**e bardy ömrüm, aglar idim zary-zar,
Gözümden ýaş giderdi misli ebri-nowbahar,
Gulaklarym gapylyp, gözlerim tutdy gubar,

Daşyma ýygyldylar kowum-gardaş, her ne bar,
Geýimlerim soýuldy, tagty-rowana geldim.

Ýatyr erdim bisterde, nägäh Ezraýyl geldi,
Bilbil dilim baglanyp, gyzyl ýüzlerim soldy,
Ýüz müň jepa-jebr ilen jismimden janym aldy,
Dünýäni puç geçirdim, barça armanym galdy,
Geldi ölüm nyşany, ajal gamhana geldim.

Gassal golun çyzganyp, meýdimi ýuwdular päk,
Agaç ata mündürip, eltdiler ol suýy-häk,
Ezraýylnyň jeňinden ruhum oldy çäk-çäk,
Iki gürzli topuldy, sehmnäk-u gazapnäk,
Ruhum teslim etdiler, dirildim, jana geldim.

Soradylar: Eý adam, diý, görem, halyň nedir?
Dünýäde haýr etmediň, bu kyl-u kalyň nedir?
Gitdiň şeýtan raýyna, jowap-sowalyň nedir?
Imdi toprak astynda, ylmy-kemalyň nedir?
Gürzi saldy depämden, çäki-hemana geldim.

Jandan diýdim: „Ýa, Aly!” tapyldy Şahymerdan,
Agaýy-müşgil güşat, ol emiri-möminan,
**MAGTYMGULY** diýr, janym diýme sen oňa gurban,
Ol Münkeri-Nekirler durmadylar bir zaman,
Şol ýerde Repbim görüp, dogry mekana geldim.

## GƏLDİM (tərcümə)

*Ata belindən düşdüm, ana rəhminə gəldim,*
*Qırx kövn ilən çıxıb, bir zərrə qana gəldim,*
*Bir mahiyi-bicanam, dərya-ümmana gəldim,*

***Dörd ay, on dörd saətd****ə dirildim, cana gəldim,*
***Doqquz ay*** *tamam oldu, onda cahana gəldim.*

*Atam-anam sevdilər, götürdülər qucağa,*
*Geyimlərim geydirıb, bələdilər qundağa,*
*Gahi iməkləyərdim, gah durardım ayağa,*
*Ana südün əmərdim, dönərdim sola-sağa,*
***İki*** *yaşa yetəndə, yeməyə nana gəldim.*

***Üç*** *yaşıma yetəndə, oynayıban gülərdim,*
***Beş*** *yaşıma varanda, anadan zad dilərdim,*
***Yeddi*** *yaşa yetəndə, dost-düşmənim bilərdim,*
***Doqquz*** *yaşa yetəndə, beş vaxt namaz qılardım,*
***On*** *yaşıma yetəndə, ədəb-əkrana gəldim.*

***On iki****də hər kəsə qanrılıb söz qaytardım,*
***On üç*** *yaşa yetəndə, ağır məclis tutardım,*
***On beş****imə yetəndə, tiri-tüfəng atardım,*
***On yeddi****yə varanda, eşq sevdasın güdərdim,*
*Eşqin sevdası ilən sürüb, meydana gəldim.*

***On yeddi****dən keçəndə şöhrət öyünə girdim,*
*Aldım bir nazənini, zövq ilə səfa sürdüm,*
*Bu qönçeyi-gülzarın əlvan gülünü dərdim,*
***İyirmi****yə yetəndə, fələk cəbrini gördüm,*
*Fələk aldı yarımı, əcəl qəmxana gəldim.*

***Otuz****a girdi ömrüm, girdim tiri-kamanə,*
*Könül xüruç eylədi, oldum dəli-divanə,*
*At minib, yaraq tutub, sürüb girdim meydanə,*
*Rüstəmi-dastan kimin savaş qıldım mərdanə,*
***Qırx****a yetəndə ömrüm, oxub Qurana gəldim.*

***Qırx**dan ötər olanda, getdim **əlli** yaşıma,*
*Gəldi ölüm nişanı, rəxnə girdi işimə,*
*Hər kim qarı deyərdi, heyran qaldım dişimə,*
*Qocaldım, düşkün oldum, qovğa gəldi başıma,*
*Ələ əsa götürüb, doğru məkana gəldim.*

***Altmış**a getdi ömrüm, görməz oldu gözlərim,*
*Qocaldım, düşkün oldu, qışa döndü yazlarım,*
*Mənim sözüm etməzlər həm oğul, həm qızlarım,*
*Aləmə xoş gəlmədi mənim şirin sözlərim,*
*Aləmə yalvarmaqdan düşdüm, amana gəldim.*

***Yetmiş**ə vardı ömrüm, ağlar idim zari-zar,*
*Gözümdən yaş gedərdi misli əbri-növbahar,*
*Qulaqlarım qapanıb, gözlərim tutdu qubar,*
*Başıma yığıldılar qohum-qardaş, hər kim var,*
*Geyimlərim soyuldu, təxti-rəvana gəldim.*

*Yatır idim bəstərdə, nagah Əzrayıl gəldi,*
*Bülbül dilim bağlanıb, qızıl üzlərim soldu,*
*Yüz min cəfa-cəbr ilən cismimdən canım aldı,*
*Dünyanı puç keçirdim, bütün ərmanım qaldı,*
*Gəldi ölüm nişanı, əcəl qəmxana gəldim.*

*Mürdəşir qol çırmayıb, meyidimi yudu pak,*
*Ağac ata mindirib, etdilər ol suyi-xak,*
*Əzrayılın cəngindən ruhum oldu çak-çak,*
*İki gürzlü, toppuzlu, zəhmnak və qəzəbnak,*
*Ruhum təslim etdilər, dirildim, cana gəldim.*

*Soruşdular: Ey adəm, de, görüm, halın nədir?*
*Dünyadə xeyr etmədin, bu qeylü qalın nədir?*

*Getdin şeytan yoluna, cavab-sualın nədir?*
*İndi torpaq altında, elmi-kəmalın nədir?*
*Gürzü saldı təpəmdən, çaki-həmana gəldim.*

*Candan dedim: «Ya, Əli!» tapıldı Şahi-mərdan,*
*Ağeyi-müşkül güşad, ol əmiri-möminan,*
***MƏXDUMQULU** der, canım desən sən ona qurban,*
*Ol Münkəri-Nikirlər durmadılar bir zaman,*
*Orda Rəbbimi görüb, doğru məkana gəldim.*

**(Məxdumqulu, 2010: 369-372)**

## JOŞA ÝETDIŇ

Bir gün atаň yşk etdi,
Sulbundan joşa ýetdiň.
Owwal suwduň, gan bolduň,
Gandan soň läşe ýetdiň.

Hökm eýledi ol Hudaý,
**Dokuz sagat, dokuz aý,**
Ýedi endam jaýba-jaý,
Süňňe ulaşa ýetdiň.

Güwş berdi, dahan berdi,
Dahana zyban berdi,
Akyl berdi, jan berdi,
Göz berdi, gaşa ýetdiň.

Ýaşdyň, ele ulaşdyň,
Ýörip, ýola ulaşdyň,
Sözläp, tile ulaşdyň,
Nan iýdiň, aşa ýetdiň.

**Ýedi**ňde mekdep gördüň,
Okydyň, ýoluň bildiň ,
Gyz bile bazy gurduň,
Tä **on dört** ýaşa ýetdiň.

Hak berdigin iýp-içdiň,
Her ýola bir baş goşduň,
Mahbup bile söýüşdiň,
Bile çolaşa ýetdiň.

**Ýigrim tört** ýaşa geldiň,
Ýigit bolup, sen ýeldiň,
At mündüň, gylyç aldyň,
Jeňe-söweşe ýetdiň.

**Otuz**yňda ýeriňden,
Duman gitmez seriňden,
Ýigitligiň zorundan,
Gezdiň tomaşa ýetdiň.

Sürdüň, dünýäni sürdüň,
Ahyr wepasyn gördüň,
**Kyrk**yňa gadam urduň,
Kämil sen, huşa ýetdiň,

Bar almadyň bagyňdan,
Hazan urdy tagyňdan,
**Elli**, sakal agyňdan,
Utan, bir ýaşa ýetdiň.

**Altmyşa** ýaş ýetirdiň,
Başyň gama batyrdyň,

Hoş günleriň ötürdiň,
Ýazyň ýok, gyşa ýetdiň.

**Ýetmiş**de „Hak!” diýp galdyň,
Kuwwatyň ýok, ýykyldyň,
Gojaldyň, işden galdyň,
Söýle, ne pişä ýetdiň.

**Segsen**e ýetişse sal,
Niçik geçer beýle hal,
Ötdi gyzgynly mahal,
Oraksyz hoşa ýetdiň.

**Togsan**da ýaňylar söz,
Gara bolup görner boz,
Gowşar süýek, alar göz,
Ýüz müň endişä ýetdiň.

**MAGTYMGULY** oturdyň,
Ömrüň gapyl ötürdiň,
Hak çün ne iş bitirdiň,
Eger **ýüz** ýaşa ýetdiň.

**(Çelebioğlu, 1998: 403-404;**
**Kaya, 2004: 258-259)**

## YETDİN (tərcümə)

*Bir gün atan eşq etdi,*
*Sülbündan cuşə yetdin.*
*Əvvəl sudun, qan oldun,*
*Qandan son leşə yetdin.*

*Hökm eylədi ol xuday,*
***Doqquz saat, doqquz ay,***
*Yeddi əndam caybacay,*
*Sünnə ulaşa yetdin.*

*Guş verdi, dəhan verdi,*
*Dəhana zəban verdi,*
*Ağıl verdi, can verdi,*
*Göz verdi, qaşa yetdin.*

*Yaşdın, ələ ulaşdın,*
*Yürüb, yola ulaşdın,*
*Sözlə dilə ulaşdın,*
*Nan yedin, aşa yetdin.*

***Yeddi**ndə məktəb gördün,*
*Oxudun, yolun bildin,*
*Qız ilə bazı qurdun,*
*Ta **on dörd** yaşa yetdin.*

*Haq verdi, yeyib-içdin,*
*Hər yola bir baş qoşdun,*
*Məhbub ilə sevişdin,*
*Elə çolaşa yetdin.*

***İyrmi dörd** yaşa gəldin,*
*İgid olub, sən yeldin,*
*At mindin, qılınc aldın,*
*Cəngə-savaşa yetdin.*

***Otuz**unda yerindən,*
*Duman getməz sərindən,*

*İgidliyin zorundan,*
*Gəzdin tamaşa yetdin.*

*Sürdün, dünyanı sürdün,*
*Axır vəfasın gördün,*
***Qırx**ına qədəm vurdun,*
*Kamil sən, huşa yetdin,*

*Var almadın bağından,*
*Xəzan vurdu tağından,*
***Əlli**, saqqal ağından,*
*Utan, bir yaşa yetdin.*

***Altmış**a yaş yetirdin,*
*Başın qəmə batırdın,*
*Xoş günlərin ötürdün,*
*Yazın yox, qışa yetdin.*

***Yetmiş**də aşdan qaldın,*
*Qüvvətin yox, yıxıldın,*
*Qocaldın, işdən qaldın,*
*Söylə, nə pişə yetdin.*

***Səksən**ə yetişsə sal,*
*Necə keçər böylə hal,*
*Ötdü ol coşğun mahal,*
*Oraqsız xoşa yetdin.*

***Doxsan**da yanılar söz,*
*Qara rəngi görər boz,*
*Tamam nurdan düşər göz,*
*Yüz min əndişə yetdin.*

*MƏXDUMQULU oturdun,*
*Ömrün qafil ötürdün,*
*Haqçün nə iş bitirdin,*
*Əgər **yüz** yaşa yetdin.*

**(Məxdumqulu, 2010: 231-234)**

## MANY BILMEZ ÝAŞYNDA

Eý, ýaranlar, adamzat,
Many bilmez ýaşynda;
Bigam bolar dünýäden,
**Dörd**ünde ýa **bäş**inde.

**Bäş**inde begdir, bilmez,
Dünýäni göze almaz,
Zerre gaýgysy bolmaz,
Gezer oýun daşynda.

Eger ki **on** ýaş qeler,
Oglanlykdan huş qeler,
Iýmek-içmek hoş qeler,
Küý köp bolar başynda.

**On bäş**e ýetse saly,
Galkar köňül hyýaly,
Çalar jahyllyk ýeli,
Juwan görner düýşünde.

Juwanlyk ody ýanar,
Oglanlykdan nyrh döner,
Her gün bir yşka müner,
Ol **ýigrimi** ýaşynda.

Gözüň aldyr sen mala,
Ugrar sen ham hyýala,
Güýjüň qeler kemala,
**Otuz**a ulaşanda.

Jahyl bolan kem bolar,
Ne aňa merhem bolar,
**Kyrk**da akyl jem bolar,
Adamzadyň başynda.

Ýaş **elli**ge gidende,
Bolar garry adynda,
Ölüm bolar ýadynda,
Sangy eder işinde.

Düşmüşem söwdaýa diýp,
Söwdaly gowgaýa diýp,
Geçdi ömrüm zaýa diýp,
Ah urar **altmyş**ynda.

**Ýetmiş**de läş kaklanar,
Jan jesetde saklanar,
Gaýgy-hasrat çohlanar,
Kösti bolar işinde.

Kuwwaty ýok tutanda,
Ynjalmaýyn ýatanda,
Ýaş **segsen**e ýetende,
Tanymaz ugraşanda.

Çykmaz içerden daşa,
Bakmaz kowum-gardaşa,

Öli diýrler ol kişä,
Ýaş **togsan**dan aşanda.

Magtymguly hümmeti,
Galmaz gadyr-gymmaty,
Pygamberiň ymmaty,
Hiç bolar **ýüz** ýaşynda

**(Çelebioğlu, 1998: 399-401,**
**Kaya, 2004: 251-254 )**

## DÖRDÜNDƏ, YA BEŞİNDƏ (tərcümə)

*Ey yaranlar, adəmzad*
*Məna bilməz yaşında*
*Biqəm olar dünyada,*
***Dörd**ündə, ya **beş**ində.*

***Beş**ində bəydir, bilməz,*
*Dünyanı gözə almaz,*
*Zərrə qayğısı olmaz,*
*Gəzər oyun daşında.*

*Əgər ki **on** yaş gələr,*
*Cavanlıqdan huş gələr,*
*Yemək-içmək xoş gələr,*
*Küy çox olar başında.*

***On beş**ə yetsə salı,*
*Uçar könül xəyalı,*
*Əsər cavanlıq yeli,*
*Cüvan görər düşündə.*

*Cüvanlıq odu yanar,*
*Cavanlıqdan nırx dönər,*
*Hər gün bir eşqə minər,*
*Ol* ***iyirmi*** *yaşında.*

*Gözü sataşsa mala,*
*Uğrarsa xam xəyala,*
*Gücü gələr kamala,*
***Otuz****a ulaşanda.*

*Cahil olan kəm olar,*
*Nə ona mərhəm olar,*
***Qırx****da ağıl cəm olar,*
*Adamzadın başında.*

*Yaş* ***əlli****yə gedəndə,*
*Olar qoca adında,*
*Ölüm olar yadında,*
*Diqqət edər işində.*

*Düşmüşəm sevdaya der,*
*Sevdalı qovğaya der,*
*Keçdi ömrüm zaya der,*
*Ah edər* ***altmış****ında.*

***Yetmiş****ində «ah»lanar,*
*Can cəsəddə saxlanar,*
*Qayğı-həsrət çoxlanar,*
*Asta olar işində.*

*Qüvvəti yox tutanda,*
*Dincələmməz yatanda,*

*Yaş **səksən**ə çatanda,*
*Tanımaz uğraşanda.*

*Çıxmaz içərdən dışa,*
*Baxmaz qohum-qardaşa,*
*Ölü derlər ol kişə,*
*Yaş **doxsan**dan aşanda.*

*Məxdumqulu hümməti,*
*Qalmaz qədir-qiyməti,*
*Peyğəmbərin ümməti,*
*Heç olar **yüz** yaşında.*

**(Məxdumqulu, 2010:233-234)**

## NAHANA GELDIŇ

Bu nakyldyr, adamzat, sen bu mekana geldiň,
Owwal ataň bilinden syzyp nahana geldiň,
Atadan enä baryp, bir katra gana geldiň,
Enede surat bolup, bu şirin jana geldiň,
**Dokuz aý**y ötürip, inip jahana geldiň,
Emip enäň süýdüni, gundalyp, dona geldiň.

Ýaradan gudratyndan diş bile dahan berdi,
Sözlemäge söz bile dahanda zyban berdi,
Köňlüň gidip her ýana, turdy, aýagyň ýördi,
Bildiň ýakyn-ýadyňny, gözüň dünýäni gördi,
**Ýedi-sekiz** ýaşyňda ataň mollaga berdi,
Okyp Gurhan kitaby, ulalyp, ona geldiň.

**On bäş** ýaşa baraňda, oglanlykdan saýlandyň,
Gyz-geline meýl edip, köňül berip küýlendiň,

Göýä baryp ak öýüň dört daşyna aýlandyň,
Hakyň permany bile ahyr bir gün öýlendiň,
**Ýigrimi** ýaşa bardyň, esbabyňny şaýlandyň,
Bedew münüp, segredip, sürüp meýdana geldiň.

**Otuz** ýaşa baryňça, göýä bir algyr şir sen,
Dünýä gamy başyňda, göýä ýüwrüp, ýelir sen,
Dünýäge doýmak ýokdur, bolgyňça bolsun diýr sen,
Ähli-musulman bolsaň, ölgiňçä halal iýr sen,
**Kyrk**yňda toba eýläp, bir mürşide gol biýr sen,
Köňlüňni bire baglap, eziz Subhana geldiň.

**Elli** ýaşa baraňda, dogrulykda bolar sen,
Gödeklikden aýryldyň, şiweligi biler sen,
Her niçe jepa çekseň, ahyr bir gün öler sen,
Bäş wagtyňy okyban, Haka şükür kylar sen,
**Altmyş** ýaşa baraňda, garryganyň biler sen,
Eken ekiniň bişip, orak ormana geldiň.

**Ýetmiş** ýaşa baraňda, ganyň gaçar ýüzüňden,
Ak dişleriň döküler, şugla gider gözüňden,
Kuwwat senden aýrylar, güýjüň gaçar dyzyňdan,
Hiç kişi heder etmez, seniň aýdan sözüňden,
**Segsen** ýaşa baranda, köňlüň geçer özüňden,
Gider bolsaň dünýäden, ýakasyz dona geldiň.

**MAGTYMGULY**, mähnetdir her kim **togsan**a ýetse,
Kem-kem qeler jahana eger **ýüz** ýaşa ýetse,
Hiç kimden haraý bolmaz ajal ýakaňy tutsa,
Imanyňy gazansaň, ýoluňny rowan etse,
Ahyr boljagyň şuldur – teniň ýer bile ýatsa,
Işigi, tüýnügi ýok, garaňky hana geldiň.

## GƏLDİN (tərcümə)

*Bu nağıldır, adəmzad, sən bu məkana gəldin,*
*Əvvəl atan belindən sızıb nihana gəldin,*
*Ondan anaya varıb, bir qətrə qana gəldin,*
*Anada surət olub, bu şirin cana gəldin,*
***Doqquz ay**ı ötürüb, enib cahana gəldin,*
*Əmib ana südünü, böyüyüb, dona gəldin.*

*Yaradan qüdrətindən diş ilə dəhan verdi,*
*Sözləməyə söz ilə dəhanda zəban verdi,*
*Könlün gedib hər yana, durdu, ayağın yürdü,*
*Bildin yaxın-yadını, gözün dünyanı gördü,*
***Yeddi-səkkiz** yaşında atan mollaya verdi,*
*Oxub Quran kitabı, yetişib ona gəldin.*

***On beş** yaşa varanda oğlanlıqdan saylandın,*
*Qız-gəlinə meyl edib, könül verib küyləndin,*
*Guya varıb ağ öyün dörd daşına dolandın,*
*Haqqın fərmanı ilə axır bir gün öyləndin,*
***İyirmi** yaşa vardın, əsbabını şaylandın,*
*Bədəv minib, səyridib, sürüb meydana gəldin.*

***Otuz** yaşa varınca, sanki bir alğır şirsən,*
*Dünya qəmi başında, guya yürüb, yelirsən,*
*Dünyaya doymaq yoxdur, olunca olsun dersən,*
*Əhli-müsəlman olsan, ölüncə halal yersən,*
***Qırx**ında tövbə edib, bir mürşidə əl versən,*
*Könlünü birə bağlar, əziz sübhana gəldin.*

***Əlli** yaşa varanda, doğruluqda olarsan,*
*Kobudluqdan ayrıldın, incəliyi bilərsən,*

*Hər necə cəfa çəksən, axır bir gün ölərsən,*
*Beş vaxt dua oxuyub haqqa şükür qılarsan,*
***Altmış** yaşa varanda, qocalığı bilərsən,*
*Əkən əkinin biçıb, oraq-ormana gəldin.*

***Yetmiş** yaşa varanda, qanın qaçar üzündən,*
*Ağ dişlərin tökülər, şölə gedər gözündən,*
*Qüvvət səndən ayrılar, gücün qaçar dizindən,*
*Heç kişi hədər etməz, söylədiyin sözündən,*
***Səksən** yaşa varanda, könlün keçər özündən,*
*Gedər olub dünyadan, yaxasız dona gəldin.*

*MƏXDUMQULU, möhnətdir hər kim **doxsan**a yetsə,*
*Kəm-kəm gələr cahana əgər **yüz** yaşa yetsə,*
*Heç kimdən haray olmaz əcəl yaxanı tutsa,*
*İmanını qazansan, yolunu rəvan etsə,*
*Axır olacağın budur – tənin yer ilə yatsa,*
*İşığı, tünlüyü yox, qaranlıq xana gəldin.*

**(Məxdumqulu, 2010: 372-373)**

## SANA GELDIŇ

Adam ogly asly zatyň,
Bir owuçdan sana geldiň.
Ot bile ýelden, toprakdan,
Katrasydan gana geldiň.

Ýatardyň garaňky jaýda,
Ne Gün göründi ne Aý-da,
**On dört gün bile dört aý**da,
Hak emr etdi, jana geldiň.

Gör, niçik boldy gudratda,
Ryzk berdi ganly şerbetde,
**Dokuz aý, dokuz sagat**da,
Inip, bul jahana geldiň.

Biwepaga geldiň ine,
Süýt bere besledi ene,
Timar gerek jana-tene,
Köýlek bile dona geldiň.

**Bir**den **ikä** gitdi ýaşyň,
Ýyglamakdyr seniň işiň,
**Üç** ýaşyňda çykdy dişiň,
Süýtden ötüp, nana geldiň.

Dürli til açyldy dürden,
Perwaýyň ýok haýr-u şerden,
**Bäş-alty** ýaşyňda zerden,
Geýip, hup erkana geldiň.

**Ýedi** ýaşda düşer dişiň,
Ylym, mekdep boldy işiň,
**Sekiz**iňde ýazdyr gyşyň,
**Dokuz** başlap, **on**a geldiň,

**On iki**de güller bilen,
Gezdiň şirin tiller bilen,
**On üç**de bilbiller bilen,
Seýri-gülüstana geldiň.

Heser urdy **on dört** ýaşda,
Arzumanyň galam gaşda,

Ter mahbup guçduň **on bäş**de,
Yşk içre mestana geldiň.

**Ýigrim**iňe bardyň joşup,
**Ýigrim bäş**de gaýnap daşyp,
**Otuz** ýaşlarda söweşip,
Şir kimin meýdana geldiň.

**Otuz bäş**de sermest bolup,
Ýüwürdiň din gyljyn çalyp,
**Kyrk**yňda dört käsäň dolup,
Geçip, gör (sen) sana geldiň.

**Kyrk bäş**de gurduň dessany,
**Elli**de bastan astany,
**Elli bäş**de tabystany,
Göýä zemistana geldiň.

**Altmyş**da gyş öýe girdiň,
**Altmyş bäş**de jandan irdiň,
**Ýetmiş**de gunça gül tirdiň,
Toply zemistana geldiň.

**Ýetmiş bäş**de ah çekiler,
**Segsen**de dişiň döküler,
**Segsen bäş**de bil büküler,
Kirişsiz kemana geldiň.

Sandan çykdyň **togsan** ýaşda,
Iman dile **togsan bäş**de,
**MAGTYMGULY**, sen **ýüz** ýaşda,
Bir belli mekana geldiň.

## SANA GƏLDİN[33] (tərcümə)

*İnsan oğlu, əsli zatın,*
*Az bir şeydən sana gəldin.*
*Od ilə yeldən, torpaqdan,*
*Qətrə sudan qana gəldin.*

*Yatardın qaranlıq cayda[34],*
*Nə gün göründü, nə ay da,*
***On dörd gün**lə **dörd ay**da,*
*Haqq əmr etdi, cana gəldin.*

*Gör necə oldu qüdrətdə,*
*Ruzi verdi qanlı şərbətdə,*
***Doqquz ay**, **doqquz saat**da,*
*Enib bu cahana gəldin.*

*Gəldin fani dünyaya,*
*Süd verib bəslədi ana,*
*Tumar gərək cana-tənə,*
*Köynək ilə dona gəldin.*

***Bir**dən **iki**yə keçdi yaşın,*
*Ağlamaqdır sənin işin,*
***Üç** yaşında çıxdı dişin,*
*Süddən ötüb, nana gəldin.*

*Dürlü dil açıldı birdən,*
*Fikrin yox xeyrü-şərdən,*

---

[33] İnsanlar arasına çıxmaq
[34] Yer

***Beş-altı** yaşında zərdən,*
*Geyib xub ərkana*[35] *gəldin.*

***Yeddi** yaşda düşər dişin,*
*Elm, məktəb oldu işin,*
***Səkkiz**ində yazdır qışın,*
***Doqquz** aşıb, **on**a gəldin.*

***On iki**də güllər ilə,*
*Gəzdin şirin dillər ilə,*
***On üç**də bülbüllər ilə,*
*Seyri-gülüstana gəldin.*

*Aşiq oldun **on dörd** yaşda,*
*İstəklindir qələm qaşda,*
*Tər məhbub qucdun **on beş**də,*
*Eşq içrə məstana gəldin.*

***İyirmi**də daşıb- coşub,*
***İyirmi beş**də qaynayıb-daşıb,*
***Otuz** yaşlarda savaşıb,*
*Şir kimi meydana gəldin.*

***Otuz beş**də sərməst olub,*
*Qaçdın dində qılınc çalıb,*
***Qırx**da dörd kasan dolub,*
*Keçib gör(sən) sana gəldin.*

***Qırx beş**də qurdun dastanı,*
***Əlli**də basdın aslanı,*

[35] Azadlıq, müstəqillik, sərbəstlik

***Əlli beş**də tabistanı*[36]*,*
*Elə bil zimistana gəldin.*

***Altmış**da qış evə girdin,*
***Altmış beş**də candan bezdin,*
***Yetmiş**də qönçə gül dərdin,*
*Toplu zimistana gəldin.*

***Yetmiş beş**də ah çəkilər,*
***Səksən**də dişin tökülər,*
***Səksən beş**də bel bükülər,*
*Kirişsiz kamana gəldin.*

*Ərköyün oldun **doxsan** yaşda,*
*İman dilə **doxsan beş**də,*
*Məxdumqulu, sən **yüz** yaşda,*
*Bəlli bir məkana gəldin.*

**Mikayıl Azaflı (1924-1990)**

## OLAR

Atadan düşəndə ana qoynuna,
Canda təbiətdən can aşkar olar.
**Doqquz ay, doqquz gün, doqquz saat**da,
Dünyaya gəlməyə ixtiyar olar.

El ona ad qoyar, şadlıqnan bəzər,
**Bir, iki, üç**ədək əmər süd, gəzər,

[36] Yay fəsli

**Dörd, beş, altı** yaşda müdəm sal nəzər,
Qoyma xəstələnər, ana zar olar.

**Yeddi**sində qədəm qoyar məktəbə,
**Səkkiz, doqquz, on** yaş, il-il mərtəbə,
Elmlər oxuyar, çatar mətləbə,
**Ön dörd**ündə eldən xəbərdar olar.

**On beş**də çalışar gedənə çata,
**On altı, on yeddi** baxar həyata,
**On səkkiz, on doqquz** düşəndə şota,
İnstituta, ya da hərbə var olar.

**İyirmi** gəncliyin şah bahar çağı,
**İyirmi bir** ömrün şuxluq çırağı,
**İyirmi iki** eşq-məhəbbət bağı,
Qəlbini tərpədən bir nigar olar.

**İyirmi beş**də gəl, toy-büsat quraq,
Arzular eşqinə qədəhlər vuraq.
Gözəl sevgisilə çəkər kef-damaq,
Meydanda sınanmış kamandar olar.

Əsil olsa, bilər ata qədrini,
Ana hörmətini, qardaş xətrini.
Bedasılsa kəsmək olmaz fətrini,
Fikri-zikri yığmaq dövlət-var olar.

**Otuz**da eşidər uşaq səsini,
**Qırxd**a çəkər oğlun-qızın bəhsini.
**Əlli**də düşünər hər bəhrəsini,
**Altmış**ında qoca ixtiyar olar.

Taqətdən düşdükcə dal yavaş-yavaş,
Keçmişi yadına sal yavaş-yavaş.
**Yetmiş**də dəyişər hal yavaş-yavaş,
Ondan sonra günü ahı-zar olar.

Qocalıb keçmişi gəl ondan soruş,
Deyər aslanlarla bağladım yarış.
Bədən əyri-üyrü, üz qırış-qırış,
Gözlər nurdan düşər, qulaq kar olar.

**Səksən**də axtarar, ha kömək əli,
**Doxsan**da azdırsa, deyərlər dəli.
**Yüz**ündə Əzrayıl çəkər çəngəli,
Köçər bu fanidən, tezbazar olar.

Gələn gedəcəkdi, o geci-tezi,
Ağlayar kimsəsi itməmiş izi.
Dünyadan aparar on arşın bezi,
Əbədi vətəni gor-məzar olar.

**AZAFLI**, əzəldən elədir insan,
Hər şeyə hakimdir, kölədir insan.
Belə yaranıbdır, belədir insan,
Axşamı tir olar, sabah tar olar.

**(Azaflı, 2008: 403-404)**

## Miskin Qılıc (1845-1905)

### AYRILSA

Ten bolar gözelin halı,
Den bilen duşdan ayrılsa.
Bigörk bolar yar cemali,
Göz bilen gaşdan ayrılsa.

**On beş** yaşda ıska müner,
**Yiğrim**de elvana döner,
Bara-bara ışkı sınar,
**Yiğrim beş** yaşdan ayrılsa.

**Otuz**dır aynı mahalı,
**Kırk beş** yaşda sonkı halı,
Öser garrılık semah,
**Eli**nde sacdan ayrılsa.

**Altmış** yaşda bolmaz coşı,
**Yetmiş**de köneler dişi,
**Seğsen** yaşda gaçar huşı,
Akılı başdan ayrılsa.

**Toğsan** yaşda görmez kördür,
**Yüz** yaş kime miyesserdir,
Ahır barcak erin gördür,
Can hem cesetten ayrılsa.

Gözel halın zebun bolar,
Gözde yaşın ceyhun bolar,

Övezbike mecnun bolar,
**MISGINGILIÇ**dan ayrılsa.

**AYRILSA**
**(türkcə)**

*Çetin olur güzelin hâli,*
*Eşi dostundan ayrılsa,*
*Çirkin olur yârin cemâli,*
*Göz ile kaşından ayrılsa.*

***On beş** yaşında aşka düşer,*
***Yirmi**sinde elvana döner,*
*Gide gide aşkı tükenir,*
***Yirmi beş** yaşından ayrılsa.*

***Otuz**dur aynı zamanı,*
***Kırk beş** yaşında son hâli,*
*Eser yaşlılık rüzgârı,*
***Elli**sinde saçından ayrılsa.*

***Altmış** yaşında olmaz coşkunluğu,*
***Yetmişi**nde dökülür dişi,*
***Seksen** yaşında gider aklı,*
*Aklı başından ayrılsa.*

***Doksan** yaşında görmez, kördür,*
***Yüz** yaş kime nasiptir?*
*Ahirinde gideceğin yer mezardır,*
*Can da cesetten ayrılsa.*

*Güzel hâlin zebûn olur,*
*Gözde yaşın ırmak olur,*
*Övezbike, mecnun olur,*
***MISGINGILIÇ'**tan ayrılsa.*

**(www.kultur.gov.tr/TR/dosyagoster.aspx?**
**DIL=1...109884...misgingilic...)**

## Miskin Vəli (1894-2001)

### GƏLDİM

Ən ibtida torpaq idim,
Bəzənib cahana gəldim.
Dörd mələyin zatındanam,
Dolana-dolana gəldim.

Əriyib yağ tək süzüldüm,
Eşqi-həvəslə üzüldüm,
Təəccüb, necə düzüldüm,
Bu bir qətrə qana gəldim.

Qan oldum yerimdə qaldım,
**Beş ay**ımda nəfəs aldım,
**Doqquz ay**da məskən saldım,
Sonra bu cahana gəldim.

Götürüb tutdular suya,
Dedilər, tez verin maya,
Bələdilər boydan-boya,
Bu cürə dahana gəldim.

Anam lay-lay dedi, yatdım,
Hərdən yatanı oyatdım,
Maya əmdim, maya tutdum,
Az-az ətə-qana gəldim.

**Bir** yaşda durdum ayağa,
**İki**də eyvan-otağa,
**Üç** yaşımda oynamağa,
Baxdı ata-ana gəldim.

**Dörd** yaşımda dedim-güldüm,
**Beş** yaşda tərbiyə aldım,
**Altı** yaşda qulluq bildim,
Gətirdim nişana gəldim.

**Yeddi**də aldım dəftəri,
**Səkkiz**də bildim hünəri,
**Doqquz**da xeyiri-şəri,
Onda qana-qana gəldim.

**On beş**ində dərsim aldım,
Gələcəyi yada saldım,
Elmin dəryasına daldım,
Dolandım ümmana gəldim.

**İyirmi**də bir oğlanam,
Qoy sevinsin ata-anam,
Düşmanımla bir düşmanam,
Bəslənib meydana gəldim.

**İyirmi beş**də dərinəm,
Olarmı işdən ərinəm,

Çalışdım yaxşı görünəm,
Mərifəti insana gəldim.

**Otuz**umda bəzənmişəm,
Hər işimdə qazanmışam,
Gündə üç yol dolanmışam,
Mən süfreyi-nana gəldim,

Çatdım **otuz beş** yaşıma,
Ağlım cəm oldu başıma,
Peşman olum savaşıma,
Düşməyin gümana gəldim.

**Qırx** yaşımda var kamalım,
Coşqundur əhvalım-halım,
Pozulmasa bu cəlalım,
Layiqdir qurbana gəldim.

**Qırx beş**də budur diləyim,
Ödənib əksik gərəyim,
Qocalığa necə deyim,
Gəlməsin bu yana gəldim.

**Əlli** yaşımda dayandım,
Bədəndə zəiflik qandım,
Sanki qəflətdən oyandım,
Oyana-oyana gəldim.

**Əlli beş**də geri qalar,
Ağılım-huşum azalar,
Oğul-uşaq gözdən salar,
Düşərəm dumana gəldim.

**Altmış**ımda var namazım,
Bir gün mənə olar lazım,
Çarələri təqdir yazım,
Qail oldum ona gəldim.

**Altmış beş**də var ilqarım,
Bədəndə artır azarım,
Xəzan vurmuş yarpaqlarım,
Saralmış zamana gəldim.

**Yetmiş**imdə batdım yasa,
Gözlədim itməsin hasa,
Yaxın oldu əsə-əsə,
Dolana-dolana gəldim.

**Yetmiş beş**də dolaşıram,
Gün kimi dağdan aşıram,
Dildə kəlməmi çaşıram,
O yana-bu yana gəldim.

**Səksən**ində düşdüm xəstə,
Yatammıram döşək üstə,
Qocalıq təngi nəfəsdə,
Gətirdi amana gəldim.

**Səksən beş**imdə yatıram,
Qəmə-qüssəyə batıram,
Taqətim yoxdur oturam,
Düşdüm pərişana gəldim.

**Doxsan**da artdı azarım,
Neylərəm dövlətim-varım,

Baxdım bağlanıb bazarım,
Düşmüşəm zindana gəldim.

**Doxsan beş**də oğul-uşaq,
Qonşu gəldi halallaşaq,
Çətin oldu halallaşmaq,
Hörmətli mehmana gəldim.

**Yüz**ündə nəfəsim getdi,
Qəssəl yudu, ellər götdü,
Səfərim mənzilə yetdi,
Girdim dondan-dona gəldim,

Ellər qıldı namazımı,
Yazanlar yazdı yazımı,
Səs gəldi açdım gözümü,
Bir qaranlıq dama gəldim.

Çırağımız haqdan yandı,
Gördüm üç kimsə dayandı,
Birisi Şahi-Mərdandı,
Sidqim bağlı ona gəldim.

Dolu badə içə bilsəm,
Şəkkü-şəfa seçə bilsəm,
Mən Siratdan keçə bilsəm,
Cənnəti-rizvana gəldim.

Sirri qaldım sirr işlərə,
Əməlim olan dəftərə,
Qorxudur axır mənzərə,
Sığındım sübhana gəldim.

Ömrümün axır-əzəli,
Deyirlər itirdin ləli,
Əslim-elim **MİSKİN VƏLİ**,
Qul oldum "Quran"a gəldim[37].

## Molla Məhərrəm (XIX)

## ATAMIZ ADƏMDİR, ANAMIZ HƏVVA

İbtida yox, intəha yox, qədimdir
Kərim, ləmyzəl, əzimüş-şanə.
Qadirdir, payanı yox fəzilətin
Hər şeyi ol desə gərək yaranə.

Atamız Adəmdir, anamız Həvva,
Cismim dörd şeydən[38] çün oldu pərva,
Mövlam əmr eylədi bir qətrə aba,
Nazil oldum anda mən bir xəzanə.

Rəhm içində **bir ay** qaldım müttəfərq,
**İki ay** olunca eyləmədim fərq,
**Üç ay** tamam oldu dutdum bir vərəq,
Rəngimiz ağ ikən döndərdi qanə.

**Dörd ay**ım olanda şəklimi qurdı,
Ol zaman üstümə mələk yürüdü,

---

[37] AMEA Folklor İnstitutunun elmi işçisi Maşallah Xudubəylinin şəxsi arxivindən götürülmüşdür.
[38] Əlyazmanın katibinin açıqlamasında sözün mənası bu şəkildə verilir: ab, atəş, xak, bad

Ol mələk də bənzər, şəbih qayırdı,
**Beş ay**da xub doldum ləhm üstxanə.

**Altı ay**da külli-cəsəd qayrıldım,
Çar tərəfdən bəndərbənd quruldum,
**Yeddi ay**ım tamam oldu dirildim,
Titrəyüb tərpənüb gəldim canə.

**Səkkiz ay**da mənə oldı bir qəla,
Sanasan bəlaya oldum mübtəla,
**Doqquz ay** olanda əmr etdi mövla,
**On ay**ım tamam oldı düşdüm cəhanə.

Gözüm açup rövşən gördüm cahanı,
Tanımadım yaxşı ilə yamanı,
Qulağıma çox verdilər azanı,
Təklif eylədilər məni imanə.

**Bir** yaşımda yükrək üstə bağladı,
Tifl nadan gah güldü, gah ağladı,
Şəri şəfa qıldı, Mövlam raxladı
**İki** yaşda düşdüm nemək-nanə.

**Üç** yaşımda bana çalındı sünnət,
Əhmədi-Muxtarə bən oldum ümmət,
**Dörd** yaşımda dilim öpdü şəhadət,
Zikri tohid deyüb gəldim imanə.

**Beş** yaşımda atam yazdı əlif-beyi,
Der, ey oğul, oxu, bilginən bir şeyi,

**Altı** yaşımda bildim təhecceyi-hərfi[39],
**Yeddi** yaşımda mayil oldum Quranə.

**Səkkiz** yaşda dərsim oldu dörd kitab,
Hər kim sual eyləsə bulurdum cavab,
**Doqquz** yaşda öylə oldum sərhesab,
**On** yaşımda döndüm abü rəvanə.

**On bir** yaşda bana elm oldu bəyan,
Cədidi-müxtəsər, şahidi-səbiyan,
Mənayi-fərayiz, bir də "Gülüstan",
Oxudum tərəssül, bildüm bəyanə. [40]

**On iki**də elmdən oldum xəbərdar,
Allah bir, nəbim Məhəmməd, xəlifə çahar,
**On dörd**ündə mənə eşq etdi izhar.
**On beş** yaşda qıldı dəlü divanə

**On altı** yaşımda atəşə düşdüm,
**On yeddi** yaşımda yandım, təpidim,
**On səkkiz**də bir mənzilə yetişdim,
Necə ki bir məst yuxudən oyanə.

**On doqquz**da getdi eşqin tüğyanı,
**İgirmi**də buldum ədəb-ərkanı.
Ərəbcən ihdə aşrinə əs-səni
Yaş olunca durdum qarşu cahanə.

**Otuz** yaşda yetdi ürfanlığa hal,
**Qırx** yaşımda oldum kamilül-kəmal,

---

[39] "Əlifbanı bilmək" mənasında işlədilir.
[40] Bunlar, ehtimal ki, o dövr dərslik kitablarının adlarıdır.

**Əlli** yaşa yetdüm, ağardı saqqal,
**Altmış**ında düşdü talan dəndanə.

**Yetmiş** yaşə yetdi görmədi gözüm,
Hər kimə söylərəm eşitməz sözim,
**Səksən** yaşa yetdi, çəkildi səbrim,
**Doxsan**da döndi qəddim kəmanə

Qəddim kaman oldu, getdi amanım,
Gəldi mələkül-mövt, oldı mehmanım,
Movla əmr etdi, apardı canım,
Hanı dünya baqi degil bəyanə.

Qohum-qardaş ağlədilər, doydılar,
Üstümdən dünya libasın soydular,
Apardılar dərin yenə qoydulər,
Hər biri dağılub getdi bir yanə.

Anlar getgəc gəldi Münkirü Nəkir,
Rəbbin kim, nəbin kim, dur, tez xəbər ver.
Verdüm cəvabımı fəqiri-Qətmir,
Yetişdilər hər nə var yaxşı-yamanə.

Onlar getdi, gəldi qəbrin əzabı,
Yoxlamadı heç günahı, səvabı.
Anlar bana etdi zülmü xətayi,
Qəbrimin içi oldı zülmətxanə .

Mərhəmət eylədi rəhimül-ğafur,
Məğfursən, yux(u)la çalınca sur,
Əmr oldı Xudadan çalındı sur,
Oldu həşrün-nəşur yeri meydanə.

Durdum ərasətdə yüz ilə varuban,
Əhməd şəfaətçi, haqq etdi divan.
Dedi: Gəl, möhtərəm ey ibni-Sübhan,
Gəl, məcal sənədi, di gəl mizanə.

Nə gəlüm mizanə, bən günahkar qul,
Təqsiri çox, səvabı az kim, eylə qəbul,
Haqq bana rəhm etdi, şəfaət rəsul,
Seyidi ümmətimiz qöymanəm yanə.

Haqqın rəhmi ilə buldum nicatı,
Mən bəndəyə nəzər qıldı Siratı,
Bərqül-xatif[41] kibi keçdüm Siratı,
Məzlum, məhrum, girdim rizvanə

Mövla yarum oldı, şəfi peyğəmbər,
Xilas oldum qəmdən cümlə sərasər,
Götürdüm sundüsül-bərqi-münəvvər,
Bəni vasil qıldı huri-qılmanə.

Tarixi hicri 1245
Qofte-yi in əsrar Molla Möhtərəm vələdi-Həcər Sübhan (qadə sirrehu) Abdülqəni vələdi-Məhəmməd Əfəndi Xəlisə Qarizadə (Bu sirləri söyləyən Məhəmməd Əfəndi Xəlisə Qarizadənin övladı Abdülqəninin övladı Həcər Sübhanın (qəbri nurla dolsun!) övladı Molla Möhtərəmdir).
**(Mərhum Molla Məhərrəmin Şeri, B 6835/8460)**
**Mollamurt (1879-1930)**

[41] Gözqamaşdırıcı ildırım

## EYLEDİ

Peleqin elinden giderem dada,
Bu pelek kimsege vepa eyledi;
Yakasın tanatdı yakına, yada,
Qurbanmırat aqamqa jepa eyledi?

**On** yaşında urdı uçar quşları,
**On bir**de bitirdi müşqül işleri,
**On iki**de bolan deni-duşları
Daşında zovk edip, sapa eyledi.

**On üç**de at minip, çıkdı şikara,
**On dört**de ışk edip, qül üzli yara,
**On bəş**de yaradı namısa-ara,
Namartlığa taqna-tupa eyledi.

**On altı**da aqam boldı mestana,
**On yedi**de etdi qövün istəne,
**On sekiz**de seyran kıldı bostana,
**On dokuz**da zovkı-sapa eyledi.

**Yiqrimi**de nöker boldı dostına,
Düşmanların için doldurdı qana,
Özini aldırdı beq bilen xana,
Pelek bivaqt jebri-jana eyledi.

**Yiqrim bir**de ak öy tutup, öylendi,
**Yiqrim iki**de bedev minip, şaylandı,
**Yiqrim üç**de aqır yüki taylandı,
**Yiqrim dört**de derde şıpa eyledi.

Hiç kemi qalmadı **yiqrim bəş**inde,
Kırk çiltenler pata berdi düşyinde,
Qören xayran qaldı akıl-xuşında,
Xer etqen axdına vepa eyledi.

**Yiqrim altı**sında pelek qörmedi,
**Yiqrim yedi**sinde öre yörmedi,
**Yiqrim sekiz**inde yarın bermedi,
**Yiqrim dokız**ında pena eyledi.

Peleqin işine xayran boldılar,
Yedi yıl yas tutup, qiryan boldılar,
Alaç tapmay, baqrı biryan boldılar,
Pelek munca jebri-jepa eyledi.

Xer qöze yaş dolar tutanda adın,
Pelek xiç kimsenin bermedi dadın,
Elmıdam aqladıp, yandırdı odın,
.......... pelek jebri-jepa eyledi.

**(Mollamurt, 1941: 16-17)**

## EYLƏDİ

Fələyin əlinden edərəm nala,
Bu fələk kimsəyə vəfa eylədi;
Yaxasın tanıtdı yaxına, yada,
Qurbanmırat ağama cəfa eylədi?

**On** yaşında vurdu uçar quşları,
**On bir**də bitirdi müşkül işləri,
**On iki**də bolan deni-duşları
Daşında zövq edib, səfa eylədi.

**On üç**də at minib, çıxdı şikara,
**On dörd**də eşq etdi gülüzlü yara,
**On beş**də yaradı namusa-ara,
Namərdliydən tövbə eylədi.

**On altı**da ağam oldu məstana,
**On yeddi**də etdi qövün istənə,
**On səkkiz**də seyran qıldı bostana,
**On doqquz**da zövqi-səfa eylədi.

**İyirmidə** nökər oldu dostuna,
Düşmanların için doldurdı qana,
Özünü aldırdı bəy ilə xana,
Pelek bivaxt cəbri-cəfa eylədi.

**Iyirmi bir**də ağ ev tutub, evləndi,
**Iyirmi iki**də bədöv minib, şaylandı,
**Iyirmi üç**də ağır yükü taylandı,
**Iyirmi dört**də dərdə şəfa eylədi.

Heç kimi qalmadı **iyirmi beş**ində,
Qırx çiltənlər buta verdi düşündə,
Görən heyran qaldı ağıl-huşunda,
Hər verdiyi əhdə vəfa eylədi.

**Iyirmi altı**sında fələk görmədi,
**Iyirmi yeddi**sinde öre yörmedi,
**Iyirmi səkkiz**inde yarın vermədi,
**Iyirmi doqquz**unda fəna eylədi.

Fələyin işine heyran qaldılar,
Yeddi il yas tutub, giryan oldular,

Əlac tapmayıb, bağrı büryan oldular,
Fələk bunca cövri-cəfa eylədi.

Hər göze yaş dolar tutanda adın,
Fələk heç kimsənin vermədi dadın,
El müdam ağladıb, yandırdı odun,
........... fələk cövri-cəfa eylədi.

## Molla Nepes (1810-1861)

## JAHANA GELDİ

Ezel günde barça jany ýaratdy,
Ruhy peýda bolup, jahana geldi.
Gudratyn bildirdi, ýokdan bar etdi,
Taňrysyn rast tanyp, Subhana geldi.

Päkize göwheri köp hyrydaryň,
Mydama halk arzuw kylar didaryň,
Ýene sordy «Kim – diýp – Perwerdigäriň»
«Ýaratgan Sen» diýip, imana geldi.

Tarypyn, dessanyn eşidiň menden,
Hak döwletin zyýat etsin gün-günden,
Atasy sulbundan, ene neslinden,
Garaoglan Onbegi jahana geldi.

Bolgan owazasy äleme düşdi,
Barça musulmana kuwwat ýetişdi,
**İki** ýaş üstünden salamat geçdi,
**Üç** ýaşynda sözläp, zybana geldi.

**Dört** ýaşynda boldy sabylar başy,
Söýündi, guwandy kowum-gardaşy,
Oglan bolup oýnap geçirdi **bäşi**,
**Alty**da at münüp, meýdana geldi.

**On** ýaşynda dag serine ser çekip,
Kast edip, ganymdan gyrmyz gan döküp,
Jülgäni ýandyryp, daglarny ýykyp,
Dünýä at tozundan dumana geldi.

**On bäş**inde ösdi ýigitlik bady,
Täze mahbup guçup, köňlüniň şady,
**Ýigrimi** ýaşynda Garaoglan ady,
Göterildi, çawy asmana geldi.

**Ýigrim bäş**de çar tarapa çarh urup,
Goçaklara Aly tälimin berip,
Myhman gelse, garşy çykyp, rast durup,
Ol güni mest olup, yhsana geldi.

**Otuz** ýaşda bolup il kethudasy,
Iliň serenjamy – serde gowgasy,
**Otuz bäş**de ýetip beglik binasy,
**Kyrk** ýaşynda hökmi rowana geldi.

Ýowa ýüz urdular külli il bolup,
Barça il bir ýana, bir wekil bolup,
Ortadan akdy gan göýä sil bolup,
Gör, kaýsynyň pygly ýamana geldi.

Ýowuz günler iliň başyna düşdi,
Saglar munda galdy, saýrylar gaçdy,

Aly kimin ýalňyz özi ýetişdi,
Iller eşret ile döwrana geldi.

Dostmämmet, Garaoglan iki byradar,
Byradarna arza ýazdy seraser,
Horezm şährinden segsen müň leşger,
Mämmetemin handan nyşana geldi.

Wekil, özbek bolup gadyrdan bolup,
Emir Ahmet söýünhana baş bolup,
Barça jemg bu işiden jan bolup,
Han hezret naýyby merdana geldi.

Huda her kişiniň çyragyn ýandyr,
Bir sözüň şerbeti müň teşne gandyr,
Kim oňa «tüf» diýse, dişlerin syndyr,
Hasmlaryň işi zyýana geldi.

Çagyrdylar Pähliwany, pirleri,
Ýetişdi Ürgenjiň weli şirleri,
Ahaldan, Ürgençden äriň ärleri,
Şükri-lillä biziň mekana geldi.

Türkmeniň täjidir Onbeg öwlady,
Ata-baba begdir, bellidir ady,
Baharyň barany, säheriň bady,
Kanda bolsa ajap zamana geldi.

Agyr uruglydyr, çoh belent illi,
Meýdanda gylyçly, diwanda dilli,
Set hezar leşgerde owazy belli,
Kapyrlar Aly diýp, gümana geldi.

Kapyra din üçin Zülpükar çalyp,
Namys üçin iliň arkasyn alyp,
Duşmany çar tarap derbe-der salyp,
Gylyjyndan älem lerzana geldi.

**NEPES** diýr içmişem ezel gün jamy,
Zehnime kuwwat biýr Haknyň Kelamy,
Ganymatdyr han hezretiň eýýamy,
Dostlar şat, duşmanlar amana geldi.
**(Molla Nepes, 2010: 158-161)**

## CAHANA GƏLDİ (tərcümə)

Əzəl gündə bütün canı yaratdı,
Ruhu fayda olub, cahana gəldi.
Qüdrətin bildirdi, yoxdan var etdi,
Tanrısın rast salıb, sübhana gəldi.

Pakizə gövhərsən, çox xiridarın,
Müdama xalq arzu qılar didarın,
Yenə sordu "Kimdir pərvərdigarın?"
"Yaradan sən", - deyib, imana gəldi.

Tərifin, dastanın eşidin məndən,
Haq dövlətin ziyad etsin gün-gündən,
Atası sülbündən, ana nəslindən,
Qaraoğlan Onbəyi cahana gəldi.

Onun şan-şöhrəti aləmə düşdü,
Bütün müsəlmana qüvvət yetişdi,
**İki** yaş üstündən səlamət keçdi,
**Üç** yaşda danışıb zəbana gəldi.

**Dörd** yaşında oldu cavanar başı,
Sevindi, güvəndi qohum-qardaşı,
Böyük oğlan olub keçirdi beşi,
**Altı**da at minib, meydana gəldi.

**On** yaşında dağ sərinə sər çəkib,
Qəsd edib, yağıdan qırmızı qan töküb,
Çölləri yandırıb, dağları yıxıb,
Dünya at tozundan dumana gəldi.

**On beş**ində əsdi igidlik badı,
Təzə məhbub quçub, könlünün şadı,
**İyirimi** yaşında Qaraoğlan adı,
Yayıldı, şöhrəti asmana gəldi.

**İyirmi beş**də dörd yana çarx vurub,
Qoçaqlara Əli təlimin verib,
Mehman gəlsə, qarşı çıxıb, rast durub,
Ol günü məst olub, ehsana gəldi.

**Otuz** yaşda olub el kəndxudası,
Elin sərəncamı – sərdə qovğası,
**Otuz beş**də yetib bəylik binası,
**Qırx** yaşında hökmi-rəvana gəldi.

Yavuz günlər elin başına düşdü,
Sağlar burda qaldı, sayrılar qaçdı,
Əli kimi yalnız özü yetişdi,
Ellər işrət ilə dövrana gəldi.

Dostməmməd, Qaraoğlan iki bəradər,
Bəradərə ərzə yazdı sərasər,

Xarəzm şəhrindən səksən min ləşkər,
Məmmədəmin xandan nişana gəldi.

Xuda, hər kişinin çırağın yandır,
Bir söz şərbətinə min təşnə qandır,
Kim ona «tüf» desə, dişlərin sındır,
Xəsmlərin işi ziyana gəldi.

Çağırdılar pəhləvanı, pirləri,
Yetişdi Ürgəncin vəli şirləri,
Axaldan, Ürgənçdən ərin ərləri,
Şükrülillah, bizim məkana gəldi.

Türkmənin tacıdır Onbəy övladı,
Ata-baba bəydir, bəllidir adı,
Baharın yağışı, səhərin badı,
Harda olsa əcəb zamana gəldi.

Ağır uruqludur, çox bülənd elli,
Meydanda qılınçlı, divanda dilli,
Səd həzar ləşkərdə avazı bəlli,
Kafir, Əli deyib, gümana gəldi.

Kafirə din üçün Zülfüqar çalıb,
Namus üçün elin arxasın alıb,
Düşməni dörd yana dərbədər salıb,
Qılıncından aləm lərzana gəldi.

**NƏFƏS** der: içmişəm əzəl gün camı,
Zehnimə qüvvət ver, haqqın kəlamı,
Qənimətdir xan həzrətin əyyamı,
Dostlar şad, düşmənlər amana gəldi.

**(Nəfəs$_b$, 2010: 149-151)**

**Qurbani** (1640-1800)

## YAXŞIDIR

Bəyim, sana sayım çağ dövranını,
Uşağa ilk ana-ata yaxşıdır.
**Bir** yaşımdan **üç** yaşıma yetəndə,
Qonşular qolunda yata, yaxşıdır.

**Beş** yaşımda uyar eş-yoldaşına,
Oynar toz-torpaqda gedər xoşuna,
**Altı**sında ağlı gəlir başına,
Tezdən bir xocaya yetə, yaxşıdır.

**Yeddi**sində böyük-kiçiyi sayar,
Mənliklənir qövm-qardaşın öyər,
**Səkkiz**ində hər bir əhvalı duyar,
Zehni xoş fikrə çata, yaxşıdır.

**Doqquz**unda artıq elmə ulaşır,
Min bir xəyal qurar, qəmsiz dolaşır,
**On** yaşında qüvvət tapar, güləşir,
Canın qoşmasa zəhmətə, yaxşıdır.

**On bir**ində üzü aya şövq verir,
Dünyanı özünə dümdüzdür görür,
**On iki**də bədəninə su yürür,
Atanın öyüdün tuta, yaxşıdır.

**On üç**ündə sevda düşər sərinə,
Boş qalmaya ava quşa yerinə,
Hama adaq vermək istər birinə,
Meyil versə bir sənətə, yaxşıdır.

**On dörd**ündə iş-güç xoşuna gəlməz,
Yanar eşq oduna rahatı qalmaz,
Dünyanın varını bir pula almaz,
Sanır daldan-dala ötə, yaxşıdır.

**On beş**ində ədəb-ərkanı tanır,
Bulur kamalını eldən utanır,
Seçər dost-düşmanı qılınc qurşanır,
Minərsə, bir köhlən ata, yaxşıdır.

**On altı**da şöhrət-şanı dallanır,
Gözəllər dilində adı ballanır,
El-ulusda qıza elçi yollanır,
Bir yosmaya nişan ata, yaxşıdır.

**On yeddi**də səltənətin yürüdür,
Nəyə varsa o nəsnəyə yarıdır,
Dosta gülər düşmanını kiridir,
Çıxarmasa əldə xəta, yaxşıdır.

**On səkkiz**də toy-düyünü görülür,
Yasdıq qaçırana bəxşiş verilir,
Gərdək üçün xas otağı qurulur,
Murad alıb murad sata, yaxşıdır.

**On doqquz**da bağı verir meyvəni,
Ata olur, eldən kəsər davanı,
Qurar məhəbbəti, sürər səfanı,
Qaymağı ağ bala qata, yaxşıdır.

**İyirmi**də evin, uşağın sevər,
Hara getsə, evə gəlməyə ivər,

Gördüyü der ki, oğlunu evər,
Tezdən ersin səltənətə, yaxşıdır.

**İyirmi bir**də sevdadan ayrılır,
Gələcək iş hesabına qoyulur,
**İyirmi iki**də əziz sayılır,
Ellərdə başlansa mədhə, yaxşıdır.

**İyirmi beşd**ə şər işdən saqınır,
Az söylər, çox dinlər, ədəb taxınır,
Mürşid arar, yolak gözlər baxınır,
Xidmət etsə kamil zata, yaxşıdır.

**Otuz**unda qürbət eli arz(u) eylər,
Gedər yad ellərə könlünü əylər,
Gəzib gördüyünü hər yanda söylər,
Tez gələ sila vüslata, yaxşıdır.

**Otuz iki**də hər təriqətində,
Gecə-gündüz durmaz ibadətində,
**Otuz beş**ində əhil kəmalətində,
İşi uyar hər sünnətə, yaxşıdır.

**Qırx** yaşında torun yiyəsi olar,
Meyil məhəbbətin onlara salar,
**Qırx beş**də saqqalı sünnəti bular,
Pək diqqət versə səhhətə, yaxşıdır.

**Əlli**sində hər bir sözü üzədir.
Öyüd verir cahillərə səzadır.
Yılar ev-eşikdən, yığnaq gözətir,
Dalar şirin söz-sohbətə, yaxşıdır.

**Əlli beş**də qalmaz dünya işinə,
Qar yağar, çal uğrar görklü başına,
**Altmış**ında gədik düşər dişinə,
Yeyə xamur işi kətə, yaxşıdır.

**Altmış beş**də beldən açmaz qurşağı,
Xoşlar bağ-bostandan kəsməz ayağı,
**Yetmiş**ində ağır duyar qulağı,
Aşmış gündür sanır bata, yaxşıdır.

**Yetmiş beş**də iyi seçməz gözləri,
Çiynindən buraxmaz kürkü yazları,
**Səksən**ində fərdən düşər dizləri,
Erərsə, hörmət-xidmətə, yaxşıdır.

**Doxsan**da namaz vaxtı zay olur,
Dayaqsız gəzəməz beli yay olur,
Der ki fanidən köçsəm ey olur,
Artıq mənə bundan ötə, yaxşıdır.

**Yüz** yaşında iman gərək yarısa,
Vəsiyyətin edər sözü varısa,
**QURBANİ** der, ömür yüz qarısa,
Könül der, təzəyəm, buta yaxşıdır.

**(Çelik, 1941: 140-141;**
**Kaya, 2004: 242-247)**

## Sayat Nova[42]

### ŞÜKÜR OLSUN YARADANA

Şükür olsun yaradana, var edən pərvərdigara,
Ab ikən, topraq ikən düşdüm qızıl səməndərə,
Vaxti ki, bad alışdı qələmdən düşdüm dəftərə,
Həlbət, haqqın buyruğudur düşdüm laməkan şəhərə.

**Üç ay**ım tamam oldu, xəbər oldu nurmadara,
**Altı ay**ım tamam oldu, sığındım qızıl kəmərə,
**Doqquz ay**ım tamam oldu, çağırım mövlam qurtara,
Cansat oldum, aldım qapaz, göz açdım, düşdüm bahara.

**Bir** ilim tamam oldu o qüdrət ağdan oldum,
**İki** ilim tamam oldu, anamın məməsin atdım,
**Üç** ilim tamam oldu ağlayıb beşikdən qaldım,
**Dörd** ilim tamam oldu, gəzdim, ayaq basdım yerə.

**Beş** ilim tamam oldu, dilə gəldim, həm dəhana,
**Altı** ilim tamam oldu, uruxsat oldu dəndana.
**Yeddi** ilim tamam oldu, qəsd eylədim abü nana,
**Səkkiz** ilim tamam oldu, göz açdım düşdüm bahara.

**Doqquz** ilim tamam oldu, hələ olmamışam belu,
**On** ilim tamam oldu, gəzərəm dəli-dolu,
**On bir** ilim tamam oldu, çünki olacağam əhlu,
**On iki** ilim tamam oldu, tapşırdılar ustakara.

---

[42] Azərbaycan aşıq şerinin təsiri altında yarandığı üçün bu vücudnaməni də burada verməyi məqsədəuyğun hesab etdik.

**On üç** ilim tamam oldu, öyrəndim tamam sənət,
**On dörd** ilim tamam oldu, ustama yetirdim xələt,
**On beş** ilim tamam oldu, mənşur etdim ağu qara.

**On yeddi** ilim tamam oldu, hələ olmamışam dastan,
**On səkkiz** ilim tamam oldu, gördüm gülü gülüstan,
**On doqquz** ilim tamam oldu, gəzdim Həbəşü Hindistan,
**İyirmi** ilim tamam oldu, ləl sataram sövdəgara.

**İyirmi beş**im tamam oldu, girib meydanda süzərəm,
**Otuz** ilim tamam oldu, əjdaha olub gəzərəm,
**Otuz beş**im tamam oldu, hey yazaram, hey pozaram,
**Qırx** ilim tamam oldu, hər şeyim çıxdı təyyara.

**Qırx beş**im tamam oldu, hər işə oldum xəbərdar,
**Əlli** ilim tamam oldu, üzümə bəsləndi ar,
**Əlli beş**im tamam oldu, çox çəkərəm ahu zar.
**Altmış** ilim tamam oldu, qafil oldum babalara.

**Altmış beş**im tamam oldu, çox çəkərəm ahu vax,
**Yetmiş** ilim tamam oldu, gözümdən getdi şəfəq,
**Yetmiş beş**im tamam oldu, dəliyəm, həm də səfeh,
**Səksən** ilim tamam oldu, bir payım getdi məzara.

**Səksən beş**im tamam oldu, canıma düşdü azar,
**Doxsan** ilim tamam oldu, özümdən oldum bezar,
**Doxsan beş**im tamam oldu, yetdim min illi kaftara.

Günahkaram, həm bəndəyəm, qoyma uzaqlara məni,
Dünyada günahsız kim qalır gözləyin Süleymanı,

Divan vaxtı yetişəndə kim sorar Sayat Novanı,
Bu dünya vaqiədir, nə baxırsan etibara.

**(Sayat Nova, 1963: 61-62)**

## Şair Cavad (?-?)

## YETİŞDİM

İbtida xəlq oldum qolu-bəladan,
O vaxtdan insana sana yetişdim.
Bir aləmə gəldim sirri əladan,
Səda gəldi imtahana yetişdim.

Səs gəldi ki, məni yaradan bilər,
Baxdım tənəzzül var ağlayıb, gülər,
Gördüm iki hissə sədalar gələr,
Bəli, dedim: Xoş məqama yetişdim.

**Üç ay** keçdi məlum oldum anama,
Məkanım bətli qan cismi xanama,
Bu vaxtın bağıdı, çoxdu fənama,
Düzüldü hər əzam danə yetişdim.

Elə ki, **doqquz ay, doqquz gün** oldu,
Zənanə toplaşdı böyük ün oldu,
Gəldim bu cahana canhacan oldu,
Atam-anam şad, bu kana yetişdim.

Gecə-gündüz mən ağladım, altı ay,
Anam yuxusuz qalıb dedi: Lay-lay.

**Bir** yaşıma qədər məmə oldu pay,
**İki** yaşda suya-nana yetişdim.

**Üç** yaşımda şirin gəldim anaya,
Dilim şirin gəldi qohum-əqrəbaya,
Atam şükür etdi bari-xudaya,
**Dörd** yaşımda dürr-dahana yetişdim.

**Beş** yaşımda oldum vazehi göyçək,
Dediyim sözləri saydılar gerçək,
Meylim oynamaqdı, etdim əyləncək,
**Altı** yaşda xoş dövrana yetişdim.

**Yeddi** yaşda mənim şagird çağımdı,
**Səkkiz** də, **doqquz** da gül budağımdı,
**On** yaşımda bildim qönçə bağımdı,
**On beş** yaşda imtahana yetişdim.

**İyirmi** yaşda sevdim bir canan,
Mənə çox xoş gəldi gülən, oynayan,
Yetişdim məqsədə şövqü natavan,
Əsas məqsəd bir canana yetişdim.

Elə ki, yetişdim **iyirmi beş** yaşa,
Təzədən mən çatdım ağıl və huşa,
Ehtiram göstərdim qohum-qardaşa,
Dərya idim, bir ümmana yetişdim.

**Otuz** yaşda oldum əhli-danəndə,
İbadət eylədim oldum haq bəndə,
Bildim ki, günaha tutar şərbəndə,
**Qırx** yaşımda qana-qana, yetişdim.

**Əlli** yaşda bildim ömrüm yarıdı,
İnsanı aldadan dünya varıdı,
**Altmış** yaşda ağlım haqq bazardı,
Yada düşdü ata-ana, yetişdim.

**Yetmiş** yaşda qocalığa tutuldum,
Keçən günlərimə ağladım, güldüm,
**Səksən** yaşda xəstəliyə bulundum,
Bildim həyat imiş fəna yetişdim.

**Doxsan** yaşda qaldım evlərdə yalqız,
Almadı sözümü oğul, gəlin, qız,
Gördüm əcəl mənlə durur üzbəüz,
Könlüm qondu hər bir yana yetişdim.

**Yüz** yaşımda tamam oldu həyatım,
Qızıldı məzarım, hər ehtiyatım,
Qılındı namazım sonu salatın,
Xələtim ağ, qeyri dona yetişdim.

İki kimsə gəldi, tutuldu dilim,
Durdu qabağımda güllü əməlim,
Qəzəbli dillənir, tez cavab verim,
Bir ümidim o sübhanə yetişdim.

Dilimdə car etdim haqqı bir Allah,
Əşrəfi əndiyə ya Rəsul Allah.
İslamın pənahı ol Vəlieyullah,
On dörd kimsə mehribana, yetişdim.

Bu vaxtı yetişdi Vəleyi-Xuda,
Dedi: Haqq bəndədi, atmayın oda,

Məzlumların pənahı ol Şiri-Xuda
Ağam gəldi, sanki cana yetişdim.

Tutdum dəmanindən, açıldı dilim,
On bir övladımla mən sənə qulam,
Üzüm turabında göstərdi yolum,
Yol göstərir o Rizvana yetişdim.

Qülvü-Allah, əhəd bir və min birad,
Cəbrayıla ustad, ey böyük ustad.
Göstər rəhmini yol versin sirat,
**QUL CAVADAM,** gövhər-kana yetişdim.
**(Pirsultanlı, 2006: 103-106)**

## Şair Əli (?-?)

## CƏSƏDNAMƏ

**Üç** yaşından **beş** yaşına gələndə,
Göyçəklənib bu qız, əcəb, qız olu.
Beş yaşından **on** yaşına gələndə
Gönçətək açılmış varandaz olu.

**On bir**ində kətan örtər başına,
**On iki**də vəsmə yaxar qaşına.
Çünki yetdi (daha) **on üç** yaşına,
Qonşuya-qohuma o bir söz olu.

**Əlli** yaşda gəldin Əli sözünə,
**Altmış**ında duman çökər gözünə.

**Yetmiş**ində taqət gəlməz dizinə,
Ocaqlar başında xub yalqız olu.

İnkir-minkir gəldi əlində gürzü,
Didərüba qayət tapmadı sözü.
Xişm ilə vurdu o odlu gürzü,
Əgri sümükləri düzbədüz olu.

**(Şair Əli, 2009, s. 350-351)**

## Tilim Xan (?-?)

## YETİŞDİM

Aləm-i zərratdə məxluqat oldum,
Şükr Allaha, müsəlmanə yetişdim.
Məhəmmədə ümmət, Allaha bəndə,
İqrar verdim mən, imanə yetişdim.

Neçə müddət geçdi o macəradan,
Qərinələr gəldi, geçdi aradan.
Səfiyyullah xəlq eylədi yaradan,
Gəlib tərkib-i insanə yetişdim.

Zati-vücuduma qoydular binə,
Tay gəlib yetişdim məzhəbə, dinə,
Daxil eylədilər ata sülbünə,
Məni oldum imtahanə yetişdim.

Yetməzdim dünyanın ixtilatınə,
Heç qadir deyildim zahir, batinə,
Atadan gəldim mən ana bətnınə,
Mülhəq oldum əvvəl qanə yetişdim.

Ta **qırx gün** olunca bir cəsəd oldum,
Aralandım qandan nik-o bəd oldum,
Sər-o pa-və bədən sahib yəd oldum,
İntizar- zindəganə yetişdim.

Rəng tökdü bir mələk ustuvar oldum,
Cismim təkamula çatdı, var oldum,
Üç yüz altmış altı piy, damar oldum,
Dörd yüz qırx dörd ustuxanə yetişdim.

Nəqş bənd eylədi bu cansiz təni,
Bisəmən gövhəri qıldı səməni,
Gecə gündüz pərvəriş etdi məni,
**Dörd ay on gün** geçdi, canə yetişdim.

Nəqş bənd eylədi yetirdi canə,
Göbəyimdən çəkdim bəs ab-o danə,
Bənzətdi bir parça əti insanə,
Qəd-o qamət şövkət, şanə yetişdim.

Bir mələk də gəldi haqq-i sayımə,
Anamın kəmanı oldu qaimə,
Ta yetirdi məni doqquz ayimə,
Sınanmış gövhər tək kanə yetişdim.

Bir mələk də xəbər tutdı halımdan,
Danışdırıb iqrar aldı dilimdən,
Hadı və dəlil tək tutdu əlimdən,
Ta ki gəlib bu xakdanə yetişdim.

Yığılıb dayələr yudulər məni,
Nəməksa eyləyib bələdi təni,

Ata-anam tapdı dürr-i ədəni,
Xilqət oldum imtahanə yetişdim.

Ziyad oldu ata-anamın şadı,
Dedilər:  - Bəs Allah verdi muradı,
Mənimçin qoydular Müsəmma adı,
Çağıranda, mən hər yanə yetişdim.

**İki** yaşımacan əmdim şir-i xam,
Hasil oldu onda mənə hali-kam,
Əziz oldu ata-ana, mən aram,
Onlarınan canhacanə yetişdim.

**Üç** yaşımda yengi düşdüm yola mən,
Qumru sifət ta ki gəldim dilə mən,
Qovm içində gəzdim əldən ələ mən,
Ta sünnəti- müsəlmanə yetişdim.

**Dörd** yaşımda dörd kitabı eşitdim,
Xəbər aldım məqsüdüma yetişdim,
Dördümü sovuşub **beş**imə geşdim,
Bülbül olub gülüstanə yetişdim.

**Altı**da azımi-məktəb xanə mən,
**Yeddi**də yetişdim ab-o nanə mən,
**Səkgiz**də başladım həqq Quranə mən,
**Doqquz**umda yol-ərkanə yetişdim.

**On** yaşımda bəs özümə dil verdim,
**On bir**də xəlqilən oturdum, dördüm,
**On iki**də on ikini çağırdım,
Əli ol Şahi-mərdanə yetişdim.

**On üç**də üzümün ğubarın sildim,
**On dörd**ümdə on dörd mə'sumu bildim,
Şükr-i sübhan etdim namazım qıldım,
Məzhəb-o din, rükn, imanə yetişdim.

Şeş ğusl-o təyəmmüm, vizunu bildim,
Müəllimdən namaz dərsini aldım,
Namaz rəkətlərin on yeddi qıldım,
Şiyə olub müsəlmanə yetişdim.

**On beşi** - **on altı**da getdim məşqə mən,
**On yeddi**də xub sataşdım eşqə mən,
**On səkgiz**də hər aşiqdən başqa mən,
**On doqquz**da mən tüğyanə yetişdim.

**İyirmi** yaşımda eşqə qərq oldum,
Məşhur-o məruf-i qərb-o şərq oldum,
Hər yana dolandım misli-bərq oldum,
Könül verib bir cananə yetişdim.

**Otuz** yaşdan ta ki **otuz beş**ətən,
Xilasıdım xəyaldan əndişədən,
Əslan tək gurlayıb çıxdım bişədən,
Hər meydanda rüstəmanə yetişdim.

**Qırx** yaşımda əqlim gəldi cəm oldu,
Köç-o külfət xəyali həmdəm oldu,
Gecə gündüz həmnişinim qəm oldu,
Dərd səri-xani-manə yetişdim.

**Əlli** yaşda ömrü yarı çağladım,
Geçən günü yadə salıb ağladım,

Yoqquşa yetəndə himmət bağladım,
Gərdəne-i biynişanə yetişdim.

**Altmışa** yetəndə bukuldu belim,
Bir əsa götürdüm üç oldu əlim,
Gözlərim az görür bilmirəm neylim,
Qocalıqdan bu nişana yetişdim.

**Yetmişə** yetəndə töküldü dişim,
Qocalıq göründü zar oldu işim,
Bədən lərzan oldu ağrıdı başım,
Yorğun oldum ah - əfğanə yetişdim.

**Səksanə** yetəndə işləməz sözüm,
Oğul-uşaq daha çəkmədi nazım,
Ölümü özümə bilirdim lazım,
Çox eyləyib arzumanə yetişdim.

**Doxsana** yetəndə çox oldum düşgün,
Təvəqqü eylədim, görmədim xoş gün,
Lənət bu dünyayə bu imiş beş gün,
İstiğfari-pəşimanə yetişdim.

**Yüz** yaşımda bir guşəyə saldılar,
Neçə gündən halım xəbər aldılar,
Qoca deyib danışdırıb güldülər,
Gülünc olub qız oğlanə yetişdim.

**Yüzdən artıq oldu iyirmi yaşım**,
Gedəndə gəlmədi başıma huşum.
Bədən lərzan oldu, ağrıdı başım,
Bir cəllad-cavidanə yetişdim.

Saldı çəngəyini çiğartdı cani,
Zar-o giryan oldum, qıldım fəğanı,
Əzrail ömrümü eylədi fani,
Axır dərdi-bidərmanə yetişdim.

Qovum qardaş yığılıban ağladı,
Biri canlı biri cansız çağladı,
Yaxa yırtıb, gözlərimi bağladı,
Bir şivəni-alişanə yetişdim.

Mürdəşurlar ğusl, tədfin verdilər,
Yeddi üzvə sidr-kafur vurdular,
Başdan başa mənə ağ geydirdilər,
Cəhd eyləyib karvanə yetişdim.

Ondan sora mənə təng oldu ərsə,
Kərvan geçdi qulaq verdim cərəsə.
Məni mindirdilər şəcər fərəsə,
Ta ki varib qəbristanə yetişdim.

Xəlayıq yığılıb namazım qıldı,
Mulla təlqin için yaxına gəldi,
Dəfn etdilər cümlə məxluq dağıldı,
Əvvəl mənzil-qəribanə yetişdim.

Mənzilim qaranqu, nəfəs təng oldu,
Natəvan vicudum ölməyin bildi,
Tərpəndikcə topraq gözümə doldu,
Çün qəfəsi-xakdanə yetişdim.

Fışari-qəbri də gördü bədənim,
Xurd oldu ustuxan pozuldu tənim.

Burnumdan əmdiyim süd gəldi mənim,
Biycan oldum genə canə yetişdim.

Məşriqdən iki kəs gəldi nagəhan,
Su olardı əgər görsəydi ahən.
Çün qaranqu oldu başıma cəhan,
Mələkeyni-ərşiyanə yetişdim.

Qiblə tərəfindən göründü bir təxt?
Varıydı içində mərdi-nikubəxt.
Onu görcək mənə asan oldu səxt,
Əli kimi pəhləvanə yetişdim.

Nəhib etdi ol nəkir-o münkərə,
Verməyin azar siz bu mərdi-pirə,
Ondan işıq oldu mənzili-tirə,
Cəmalı mahi-tabanə yetişdim.

Rəbbdən, nəbidən, imamdan sual
Eylədilər, mənim dilim oldu lal.
Heç Əli onlara vermədi macal,
Cavab verdi, qanə qanə yetişdim.

İmamım Əlidir damadi-Əhməd,
Zövci-bətul olan şəfiyi-ümmət,
.........................
Həsən, Hüseyn şəhidanə yetişdim.

Zeynüləbd, Bağır, Cə'fər və Kazim,
Rza, Təqi, Nəqi mənə mülazim,
Əsgəri və Mehdi xətm-i Əazim,
Kitabımdır ol Quranə yetişdim.

Millətim Xəlildir, məzhəbim Cəfər,
Qibləgahım Kəbə, dinimə məsdər,
Çün Əli eylədi dilimdə əzbər,
Cavabında yol- ərkanə yetişdim.

Ondan sora gəldi qəllad-i şedad,
Birisi rəhm eylər, birisi biydad.
Mənim için bərəhut etdilər ad,
Sud kəm olub mən ziyanə yetişdim.

Əli adı daim dildə mükərrər,
Kənənde-yi xeybər xacey- Qənbər,
Rəhnumalıq etdi saqiyi-kövsər,
Məhşər divanında sanə yetişdim.

Məni apardılar darüssəlamə,
Yetişdim murada, məqsüda, kamə,
Munis oldum hüriye-xoş kəlamə,
Darüssəlam xoş məkanə yetişdim.

Çəhardəh mə'sumu çağır biygüman,
Söylədiyin başa gələr, **TİLİM XAN**!
Apardı behiştə Qasim ol cinan,
Bir kərəm-i biy payanə yetişdim[43].

---

[43] Məhəmməd Zənganlının şəxsi arxivindən (Əlyazması hüququnda)

## Xaltanlı Tağı (1800-1906)

### GƏLDİM

Abi-ataş xak-baddan cəm oldum,
Adəm dəryasından sorağa gəldim.
Şərin biətindən dinin şərtindən,
Ana vücudunda yarpağa gəldim.

Haqq məni eylədi mütfi anaya,
Güzar etdim qeyri-mehmanxanaya,
Süzüldüm qətrədən düşdüm araya,
Ləpə çəkdi məni qırağa gəldim.

**Qırx gün** qaldı o qətrələr duruldu,
**İki qırx**ımda rəngim təğayür oldu,
**Üç qırx**ımda mənə mələk buyruldu,
**Dört qırx**ımda qan idim, qaltağa gəldim.

**Beş qırx**a yetəndə verildi canım,
Damar, sümük, ilik, ətdi üryanım,
**Altı qırx**da zühur etti sübhanım,
**Yeddi qırx**da kökdən budağa gəldim.

Köçüb o mənzildən gəldim fənaya,
Mənə ad qoyuban tutdular dayə,
Düşdüm namu-nəmək ab-həvayə,
Gəzib əldən-ələ qucağa gəldim.

**Bir** yaşımda məni hamı eşitdi,
**İki** yaşımda cismim, özüm bərkitdi,
**Üç** yaşımda ətim, sümüyüm bitdi.
